Xalqın qəzeti!

# Xalq qəzeti

№ 116 (30232) 3 iyun 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Biz tərəfdaşlarımızla birlikdə neft kəmərləri inşa etdik, neft yataqlarına sərmayə qoyduq, daha sonra qaz infrastrukturu inşa etdik. Cənub Qaz Dəhlizi bizim birgə tarixi nailiyyətimizdir, 3 min 500 kilometrdən artıq neft kəmərlərindən ibarət bir sistemdir və o, enerji təhlükəsizliyi və enerji şaxələndirilməsində müstəsna rol oynayır.**

# Azərbaycanın qlobal enerji təhlükəsizliyinə töhfəsi artır



**Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 6 ölkəsinin 11 tanınmış neft şirkəti arasında 1994-cü il sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişin imzalanması müstəqil dövlətimizi qarşıya qoyduğu məqsədlərə doğru aparan böyük bir yolun başlanğıcı olub.**

Bu saziş, eyni zamanda, təbii sərvətlər amilinin Azərbaycanın gələcək inkişafındakı rolu barədə ictimai düşüncəyə hakim kəsilən mücərrəd təsəvvürləri konkretləşdirdi, qarşıdakı istiqamətlərə aydınlıq gətirdi. Azərbaycan, eyni zamanda, "Əsrin müqaviləsi" ilə özünün təbii sərvətlərinə sahib çıxmaq haqqını bütün dünyaya bəyan etdi, milli mənafeləri, iqtisadi və strateji maraqları qorumaq əzmini sərgilədi. Bir sözlə, bu müqavilə dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi. "Azəri–Çıraq–Günəşli" (AÇG) yataqlarından hasilat isə 20 il əvvəl – 1997-ci ilin noyabr ayında başladı. İlkin hesablamalara görə, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində çıxarıla bilən neft ehtiyatı 511 milyon ton olsa da, sonralar yeni qiymətləndirmələrə əsasən, neft ehtiyatı 1.072 milyard ton həcmində müəyyənləşdirilib.

*(ardı 7-ci səhifədə)*

# İtaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Sercio Mattarellaya

**Hörmətli cənab Prezident.**

2 İyun – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qarşılıqlı etimada və xoş ənənələrə əsaslanan Azərbaycan–İtaliya münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Güclü siyasi əlaqələrimiz gündən-günə genişlənən ticari, iqtisadi, enerji, təhsil, mədəni və digər sahələrdə əməkdaşlığımızın və çoxölçülü strateji tərəfdaşlığımızın təməlini təşkil edir. Bu da, öz növbəsində, dövlətlərimizin maraqlarına və xalqlarımızın mənafelərinə xidmət edərək onları bir-birinə daha da yaxınlaşdırır.

İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır. İqtisadi sahədə səmərəli fəaliyyətimizin yüksələn xətlə inkişaf etməsi bizi sevindirir. Bunun da əsas tərkib hissələrindən birini enerji sahəsində uğurlu və davamlı əməkdaşlığımız təşkil edir. Şadam ki, bu istiqamətdə birgə atdığımız addımlar Avropanın enerji təhlükəsizliyinə töhfə verərək, eyni zamanda, Azərbaycan–İtaliya əməkdaşlığını möhkəmləndirir.

İtaliya şirkətlərinin Azərbaycanda, xüsusilə də işğaldan azad edilmiş ərazilərimizdə aparılan yenidənqurma və bərpa işlərində fəal iştirakını təqdir edirik. Ölkənizi təmsil edən şirkətlər Qarabağ və Şərqi Zəngəzurda ən çox iş görən şirkətlər sırasındadırlar ki, bu da dövlətlərarası əlaqələrimizin səviyyəsindən xəbər verir.

Biz dost ölkə və etibarlı strateji tərəfdaşımız olan İtaliya ilə əlaqələrimizin genişlənməsinə xüsusi əhəmiyyət verir, qeyri-neft sektorunda birgə fəaliyyətimizi şaxələndirmək və yeni məzmunla zənginləşdirmək əzmindəyik. Apardığımız ali səviyyəli siyasi dialoq, çoxsaylı qarşılıqlı səfərlər, imzalanmış sənədlər, həyata keçirilən birgə layihələr əməkdaşlığımızın yeni istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynayır. Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına İtaliyanın daim verdiyi dəstəyi yüksək qiymətləndiririk.

Əminəm ki, Azərbaycan ilə İtaliya arasındakı ənənəvi dostluq münasibətləri, həm ikitərəfli, həm də Avropa İttifaqı çərçivəsində səmərəli əməkdaşlığımız dost xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək, strateji tərəfdaşlığımız daha da dərinləşəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost İtaliya xalqına daim firavanlıq və əmin-amanlıq diləyirəm.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 may 2023-cü il**

## Fransa "Brüssel formatı"na qarşı – Paris niyə Mişellə razılaşmır?



Səhifə ⇨ 3

## Əgər sülh dinamikası belə davam etsə...



Səhifə ⇨ 4

## Qərbdən Şərqə əsas yollar ölkəmizdən keçir



Səhifə ⇨ 7

## Dünya siyasətinin Ərdoğan fenomeni



Səhifə ⇨ 11

## Erməni separatizmi sıravi vətəndaşlara divan tutur



Səhifə ⇨ 3

## Kişineu sammiti Hayastanda "siyasi təzyiqi" qaldırıb



Səhifə ⇨ 6

## Davamlı sosial islahatların uğurları



Səhifə ⇨ 12

## Güney Azərbaycanın da müstəqil olmaq hüququ tarixdən gəlir



Səhifə ⇨ 10

## Ukrayna NATO-dan öz təhlükəsizliyinə zəmanət istəyir

Səhifə ⇨ 11

# Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturu”nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416; 2004, № 6, maddə 440, № 9, maddə 674; 2005, № 6, maddə 491, № 12, maddə 1102; 2006, № 7, maddə 592, № 8, maddə 659; 2007, № 6, maddə 615, № 9, maddə 869, № 10, maddə 947, № 11, maddə 1106; 2008, № 3, maddə 168, № 8, maddə 719; 2009, № 5, maddə 322, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 185; 2011, № 2, maddə 85, № 6, maddə 508, № 9, maddə 791; 2012, № 9, maddə 852; 2013, № 5, maddə 511, № 11, maddə 1320; 2014, № 12, maddə 1573; 2015, № 2, maddə 127, № 6, maddə 697, № 12, maddə 1474; 2016, № 3, maddə 455, № 6, maddə 1070, № 12, maddə 2057; 2017, № 5, maddə 783, № 10, maddə 1796; 2018, № 6, maddə 1204, № 10, maddə 2012, № 12 (I kitab), maddə 2595; 2019, № 2, maddə 207; 2023, № 3, maddə 378) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin strukturu”nun 2-ci hissəsinin səkkizinci – otuz ikinci abzasları müvafiq olaraq doqquzuncu – otuz üçüncü abzaslar hesab olunsun və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

“Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyun 2023-cü il**

# Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 2965 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan daxili işlər orqanları əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin sisteminə işə götürülən mülki işçilərin ştat sayı həddi”ndə dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 5 avqust tarixli 2965 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 882; 2011, № 2, maddə 143, № 6, maddə 534, № 9, maddə 810; 2012, № 1, maddə 18, № 3, maddə 248; 2013, № 5, maddə 548, № 11, maddə 1346; 2014, № 1, maddə 28, № 2, maddə 174, № 9, maddələr 1080, 1108; 2015, № 11, maddə 1361, № 12, maddə 1552; 2016, № 3, maddə 531; 2017, № 5, maddə 919; 2018, № 2, maddə 269, № 10, maddə 2043; 2019, № 4, maddə 687; 2020, № 2, maddə 166; 2021, № 12, maddə 1445) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına saxlanılan daxili işlər orqanları əməkdaşlarının, Daxili Qoşunların hərbi qulluqçularının və Daxili İşlər Nazirliyinin sisteminə işə götürülən mülki işçilərin ştat sayı həddi”ndə dəyişikliklər təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 2 iyun 2023-cü il**

# Azərbaycan Prezidenti: Türkiyənin güclü sənayesi onun müttəfiqlərini də gücləndirir

**Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay (mart – red.) türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşıma öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirdi. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır.**




Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündən-günə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir.

“İlham Əliyev. İnkişaf – məqsədimizdir” çoxcildliyinin çapdan yeni çıxmış 127-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı aprelin 29-da İstanbulda “TEKNOFEST” aerokosmik və texnologiya festivalında çıxışı zamanı söyləyib.

AZƏRTAC xəbər verir ki, çoxcildliyin yeni kitabında toplanmış materiallar 2023-cü ilin mart-may aylarını əhatə edir. Bu kitaba Prezident İlham Əliyevin aprel ayında Türkiyəyə işgüzar səfəri çərçivəsində “TEKNOFEST”də iştirakına dair materiallar, Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın “CNN Türk” televiziyasının müxbirinin suallarına cavabları daxil edilib.

Prezident İlham Əliyev aprel ayında Tacikistanda dövlət səfərində, Qazaxıstanda, Bosniya və Herseqovinada rəsmi səfərlərdə, Bolqarıstanda işgüzar səfərdə olub. Azərbaycan Prezidentinin bu səfərlər çərçivəsində keçirdiyi görüşlər, iştirak etdiyi tədbirlər, habelə imzalanmış sənədlər haqqında informasiyalar, liderlərin mətbuata birgə bəyanatlarının mətnləri yeni kitabda verilib.

Bu nəşrdə Azərbaycan Prezidentinin ölkəmizə səfərə gəlmiş Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə Qəbələdə keçirdiyi görüş haqqında informasiya, mətbuata birgə bəyanatların mətnləri də yer alıb.

May ayı ADA Universitetinin təşkilatçılığı ilə Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda beynəlxalq konfransın keçirilməsi ilə əlamətdar olub. Dövlətimizin başçısı konfrans iştirakçılarının çoxsaylı suallarını cavablandırıb. Azərbaycan Prezidentinin dərin məzmunlu və məntiqli cavabları ilə 127-ci kitabda tanış olmaq mümkündür.

Yeni nəşrdə Azərbaycan Prezidentinin Novruz bayramı münasibətilə Talış kəndindən xalqımıza təbrikinin mətni də verilib.

Dövlətimizin başçısı aprel-may aylarında bölgələrə – Neftçala, Salyan və Ağdam rayonlarına səfərlər edib. Neftçala rayonuna səfər zamanı Olimpiya İdman Kompleksinin, Neftçala Kürkənd-2 nömrəli Mayak avtomobil yolunun yenidən qurulmadan sonra açılış mərasimləri keçirilib. Prezident İlham Əliyev, həmçinin “Azerbaijan Fish Farm” MMC-nin Yenikənd Nərə Damazlıq Təsərrüfatında yaradılmış şəraitlə tanış olub, Bankə qəsəbə 2 saylı tam orta məktəbin açılış mərasimində iştirak edib. Salyan rayonunda isə Mərkəzi Xəstəxananın Doğum Evində və uşaq poliklinikasında əsaslı təmirdən sonra yaradılmış şəraitlə maraqlanıb, “Azərişıq” ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzinin və “ASAN xidmət” Mərkəzinin açılışlarını edib, Azərbaycan Televiziyasına müsahibə verib. Prezidentin müsahibəsinin mətni və səfərləri haqqında geniş məlumat oxuculara 127-ci kitabda təqdim olunur.

Prezident İlham Əliyev Ağdam rayonuna səfəri çərçivəsində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin, Ağdam Muğam Mərkəzinin, Ağdam şəhərində salınacaq 2-ci və 3-cü yaşayış məhəllələrinin, inzibati binanın təməllərini qoyub, Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub. Yeni kitaba bununla bağlı informasiyalar daxil edilib.

“Azərnəşr” tərəfindən buraxılan 127-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# BP ölkəmizin mötəbər enerji tərəfdaşıdır

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 2-də BP şirkətinin Hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən redaksiyamıza bildiriblər ki, görüşdə Azərbaycan ilə BP arasında əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri nəzərdən keçirildi.

BP tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin önəmi qeyd edildi. İşğaldan azad olunmuş ərazilərdə günəş elektrik stansiyasının inşası ilə bağlı BP şirkəti ilə birgə aparılan işlər müzakirə olundu.

Görüşdə, həmçinin Azərbaycanın paytaxtında keçirilən Bakı Enerji Həftəsinin əhəmiyyəti vurğulandı.

**“Xalq qəzeti”**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Polşa Respublikası adından və şəxsən öz adımdan Sizə, ölkənizə, bütün vətəndaşlarınıza səmimi-qəlbdən təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Polşa Respublikası ilə Azərbaycan Respublikasının dinamik inkişaf edən ikitərəfli əlaqələri ölkələrimiz arasında hörmətin, rəğbətin, əməkdaşlığa verilən əhəmiyyətin ən yaxşı ifadəsidir. Azərbaycan Polşa üçün Cənubi Qafqaz regionunda çox mühüm tərəfdaşdır və biz Azərbaycanla bir çox sahələrdə – iqtisadi, siyasi və mədəni sahələrdə əməkdaşlığı dərinləşdirmək istəyirik. Biz iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsində və ölkələrimizin yüksək iqtisadi potensialına uyğun səviyyəyə çatdırılmasında xüsusilə maraqlıyıq.

Hörmətli cənab Prezident, Sizə cansağlığı, firavanlıq, Azərbaycan Respublikasının bütün vətəndaşlarına sülh, əmin-amanlıq, ölkənizin hərtərəfli inkişafının möhkəmləndirilməsi üçün fəaliyyətinizdə uğurlar arzulayıram. Cənab Prezident, fürsətdən istifadə edərək, Sizin üçün əlverişli vaxtda Polşaya dəvətimi təkrarlayıram.

**Dərin hörmətlə,**

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

***

**Cənab Prezident!**

Dost ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə

Zati-alinizə böyük məmnunluq hissi ilə ən səmimi təbriklərimi çatdırıram.

Bu fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin daha da inkişaf etməsini arzulayıram.

Sizə cansağlığı və səadət, dost ölkənizə və onun xalqına davamlı tərəqqi və rifah diləyirəm.

Zati-aliləri, yüksək ehtiramımı qəbul edin.

**Hörmətlə,**

***Nəvaf əl-Əhməd əl-Cabir əl-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

***

**Hörmətli cənab Prezident!**

Dost Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə məmnuniyyətlə səmimi təbriklərimizi və xoş arzularımızı çatdırırıq.

Bu gözəl fürsətdən istifadə edərək, ölkələrimiz və xalqlarımız arasında mövcud olan dostluq əlaqələrindən məmnunluğumuzu ifadə edir, bu əlaqələrin ortaq maraqlarımız naminə daha da möhkəmlənməsinə səy göstərdiyimizi vurğulayırıq.

Sizə uzun ömür, cansağlığı, dost xalqınıza davamlı inkişaf və rifah diləyirik.

**Ən xoş arzularla,**

***Əhməd Nəvaf əl-Əhməd əl-SABAH,***
***Küveyt Dövlətinin Baş naziri***

***

**Cənab Prezident!**

Dost Azərbaycan xalqının Sizin atanız və sələfiniz, ölkənizin tarixinə ən böyük töhfə vermiş Prezident Heydər Əliyevin 100 illiyini qeyd etdiyi günlərdə Zati-alinizə ehtiramımı, səmimi təbriklərimi çatdırmaqdan şərəf və böyük məmnunluq duyuram.

Cibuti xalqı və hökuməti Azərbaycan xalqına öz rəğbətini və dostluq hisslərini ifadə etməklə mənim təbriklərimə qoşulur. Qədirbilən Azərbaycan xalqı haqlı olaraq dəyişikliklərin müəllifi olmuş və ölkənizi sabitlik, dayanıqlı inkişaf yolu ilə irəliyə aparmış ümummilli liderinin xatirəsini daim əziz tutur. O, uzaqgörən və xarizmatik lider olaraq ölkənin təbii sərvətlərindən, ilk növbədə, enerji ehtiyatlarından səmərəli istifadə ilə rəşadət nümayiş etdirib.

Heydər Əliyev siyasi praqmatizmin dəyişməz istiqamətvericisi və mövcud reallıqlara söykənən islahatların həyata keçirilməsində etalon kimi xalqın yaddaşında həmişəlik qalacaqdır.

Sizi və dost Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Zati-aliləri, cənab Prezident, ən səmimi qardaşlıq salamlarımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***İsmail Ömər QELLE,***
***Cibuti Respublikasının Prezidenti***

***

Zati-aliləri!

Bu il mayın 10-da bütün dünyada hörmətli atanız, qürurlu Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi qeyd edildi. Heydər Əliyev uzun illər ərzində çalışdığı işlərdə güclü liderlik keyfiyyətləri nümayiş etdirmiş, xalqını ötən əsrin mürəkkəb tarixi və siyasi təlatümlərindən uğurla çıxarmışdır. Onun səyləri ölkəsinin və xalqının müstəqilliyinin qorunması və möhkəmlənməsində həlledici rol oynamışdır. Heydər Əliyevin idarəçilik istedadı, siyasi qətiyyəti və dönməz əqidəsi hələ sovetlər dönəmində bir çox irimiqyaslı layihələrin həyata keçirilməsində özünü büruzə verdi.

Ötən əsrin 90-cı illərində Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkə daxili və xarici amillər, regional gərginlik və qarşıdurmalar, eləcə də iqtisadi problemlər səbəbindən böyük qeyri-müəyyənliklə üzləşdi. Heydər Əliyev Azərbaycanın taleyinin təhlükə altında olduğu böhranlı bir dövrdə hakimiyyətə gələrək ölkənin parçalanma və anarxiyadan xilas edilməsində həyati rol oynadı, bununla da davamlı inkişaf üçün zəmin yaratdı. Onun uzaqgörənliyi Azərbaycanın xüsusilə milli resursların səmərəli idarə olunması yolu ilə bugünkü iqtisadi tərəqqisində mühüm rol oynadı.

Heydər Əliyevin Vətəninə verdiyi töhfələr, o cümlədən, müxtəlif sahələrdə hərtərəfli islahatların həyata keçirilməsi olduqca önəmlidir. Onun dövlət quruculuğu proqramı milli dilin qorunub saxlanılması, Azərbaycanın çoxəsrlik mənəvi və mədəni ənənələri ilə səciyyələnən qədim irsinin beynəlxalq miqyasda tanınması kimi nailiyyətlərlə nəticələndi.

Mən Sizin atanızla onun siyasi karyerasının son dövründə şəxsən görüşmək şərəfinə nail olmuşam. Məndə həmin görüşdən unudulmaz təəssürat yaradan onun Zati-müqəddəsləri Ekumenik Patriarx Varfolomeyə və digər dini liderlərə necə hörmət nümayiş etdirməsi idi.

Azərbaycana rəhbərlik etməklə dünyada silinməz iz qoymuş Heydər Əliyev bütün həyatı boyu azərbaycanlı olması ilə fəxr etmişdir.

O, həqiqətən, milli qürur mənbəyidir və bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul olunur. Onun ölkənizin inkişafına verdiyi çoxsaylı töhfələrin işığında ümidvar olduğumu bildirirəm ki, Azərbaycan öz ulu öndərinin müəyyənləşdirdiyi yolla irəliləyərək bundan sonra da yeni zirvələr fəth edəcəkdir.

**EMMANUEL,**
**Xalkidon (Kadıköy)**
**Baş Mitropoliti**

# Mövqelərimiz atəşə tutulub

**İyunun 2-si saat 12:25-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bundan başqa, saat 18:00 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Azərbaycan Ordusunun qeyd olunan istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

**“Xalq qəzeti”**

# Fransa "Brüssel formatı"na qarşı – Paris niyə Mişellə razılaşmır?



## *Yaxud Azərbaycan–Ermənistan sülh gündəminin Makronun "bacı təəssübkeşliyindən" xilası*

**Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında iyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa siyasi birliyi"nin ikinci Zirvə toplantısı çərçivəsində qeyri-formal görüş keçirildi. Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi, Almaniya Kansleri Olaf Şoltsun və Fransa Prezidenti Emmanuel Makronun iştirakı ilə baş tutmuş görüş başa çatandan sonra, beşli təmasla bağlı açıqlama vasitəçidən, yəni Ş.Mişeldən gəldi. Məhz Ş.Mişelin fikirlərinə əsasən müəyyənləşdirdik ki, görüş pozitiv ruhda keçib və gələcəyə nikbin yanaşmaq mümkündür.**

Nikbinliyi bir neçə cəhətdən əsaslandıra bilərik. Birincisi, bu il iyulun 21-də Brüsseldə tərəflər üçtərəfli formatda – Prezident İlham Əliyev, Aİ Şurasının rəhbəri və baş nazir Nikol Paşinyan yenidən bir araya gələcəklər. İkincisi, iyunun 1-dən iyulun 21-dək olan müddətdə Azərbaycanın və Ermənistanın Xarici işlər nazirləri Vaşinqtonda görüşəcəklər ki, bu məqam da liderlərin sözügedən təmasının konkret gündəliyinin formalaşmasına müsbət təsir göstərəcək. Üçüncü cəhət isə beştərəfli görüşdə Cənubi Qafqazla sülh gündəmi danışıqlarının intensivləşməsi vacibliyinin vurğulanmasıdır. Bu isə tərəflərin çıxılmış yoldakı iradəsindən xəbər verə bilən faktordur. Ancaq diqqət yetirmək istədiyimiz məqam başqadır və sadaladıqlarımız müstəvisində, məhz, həmin məqama dair fikirlərimizi bölüşəcəyik.

***

Əvvəldə heç də əbəs yerə bildirmədik ki, beştərəfli qeyri-formal görüşlə bağlı məlumat verən Aİ Şurasının rəhbəri Şarl Mişel olub. Yəni, onun vasitəçilik mandatı baxımından danışıqlara dair fikir yürütməsinin doğruluğu məntiqinə sığındıq. O zaman Fransanın bəyanatının hansı məqsədlə yayılmasını anlamaq zərurəti yaranır. Həqiqətən, görəsən, Yelisey sarayının istəyi nədir? Sualımız ritorikdir, çünki cavabı təxmin etmək o qədər də çətin deyil.

Mövcud istiqamətdə fikir bildirməzdən əvvəl yada salaq ki, Fransa Prezidenti E.Makron necə ki ötən il oktyabrın 6-da keçirilmiş Praqa sammitindən sonra qəbuledilməz tona üstünlük verib danışıqlar prosesini dalana dirəmişdisə, indi də eyni xətti götürməkdədir. Yelisey sarayının bəyanatındakı məntiq bunu deyir. Yəni, Mişelin açıqlamasında olmayan məsələlərin gündəmə gətirilməsi açıq sabotajdır. Elə buna görə ölkəmizin Xarici İşlər Nazirliyinin sənədə reaksiyası sərtdir.

Azərbaycan XİN-in mətbuat katibi Ayxan Hacızadə vurğulayıb ki, Kişineuda "Avropa siyasi birliyi"nin Zirvə toplantısı çərçivəsindəki görüşün yekunları üzrə mətbuata açıqlamanı, ənənəyə uyğun olaraq Brüssel formatının təşkilatçısı kimi Ş.Mişel verib: "Daha sonra Fransa Prezidenti tərəfindən birtərəfli qaydada görüş barədə verilmiş açıqlama tərəflərin mövqeyini əks etdirmir və təhrif edir".

***

Bəs, Yelisey sarayının bəyanatında nələrdən bəhs olunur? Bildirilir ki, Azərbaycan və Ermənistan liderləri 6 oktyabr 2022-ci ildə Praqada 1991-ci il Alma-Ata Bəyannaməsi ilə müəyyənləşmiş sərhədlərə hörmətlə bağlı öhdəliklərini bir daha təsdiqlədilər. Rəsmi Parisin sənədində, həmçinin, vurğulanır ki, Avropa liderləri, guya, iki Cənubi Qafqaz ölkəsini bütün öhdəliklərinə, xüsusən, hərbi əsirlərin tezliklə azad edilməsinə əməl etməyə çağırıblar. Fransa Azərbaycan–Ermənistan sərhədinin Ermənistan tərəfinə göndərdiyi, hazırda varlığı ilə yoxluğu bilinməyən mülki müşahidə missiyasının fəaliyyətinin müzakirəsini də beştərəfli "görüşün gündəliyinə" dürtməyi unutmayıb. Sən demə, liderlər həmin missiyanın Ermənistanın xeyrinə vacibliyindən söz açıblar.

Deyəsən, Makronun bacısı Ermənistandan, heç xəbəri yoxdur. Xəbəri olsaydı, bilərdi ki, ölkədə Aİ-nin tərkibi, pensiyaya çıxmış alman və fransız polislərindən ibarət həmin monitorinq missiyasını, necə deyərlər, ağ yuyub qara sərməklə məşğuldurlar. Fransanın dövlət başçısı müşahidəçilərin, təxminən, bir ay öncə keçirdikləri mətbuat konfransının erməni mediası tərəfindən məsxərə predmetinə çevrilməsindən də məlumatsızdır. Yeri gəlmişkən, onların nə üçün jurnalistlərin önünə çıxdıqları müəmmalı qalmışdı. Çünki fəaliyyətləri ilə əlaqədar heç nə deməmişdilər, üstəlik konspriologiyaya vararaq, elə görüntü yaratmışdılar ki, guya, bunlar lazımi bilgilərə sahibdirlər.

Nə isə, Makron öz patronajlığı ilə reallaşdırılan işin ermənilərə faydalı olduğunu Avropanın ictimai rəyinə sırımaq istəyirsə, özü bilər. Nəhayət, missiya Ermənistan tərəfdə nə oyun çıxarır-çıxarsın, onun bizim üçün, bir o qədər, əhəmiyyəti yoxdur. Ancaq Yelisey sarayının Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinə təminatın tətbiqi vacibliyindən söz açmasının, üstəlik, bunun beştərəfli görüşdə müzakirəsinin baş tutduğunu deməsinin bizə dəxli var. Mövcud xüsusda Makronun istənilən düşmənçilik ritorikasından əl çəkməyin və regionun bütün əhalisinin rifahı naminə sülhün bərqərar edilməsi üçün səylərin davamının mühüm önəm daşıdığını vurğulamasının da həmçinin.

Bəli, hiss olunur ki, Fransa, loru dildə desək, aranı qarışdırmaq niyyəti güdür. "Düşmənçilik ritorikasından əl çəkmək", "regionun bütün əhalisinin rifahı" kimi, ilk baxışdan, humanizmə köklənmiş ifadələrin seçilməsi aşkar manipulyasiyadan başqa bir şey deyil. Bölgə əhalisi rifah istəyirsə, belə görünür, Paris o rifahı Ermənistan müstəvisində axtarmaq mərəzindən daşınmayıb. Üstəlik, bəyanatda "Dağlıq Qarabağ" ifadəsinin işlədilməsi də var. Bu ifadə, faktiki olaraq, Azərbaycanın ərazi bütövlüyü məntiqinin və Bakının bu məntiqdən irəli gələn mövqeyinin heçə sayılmasıdır. Nəzərə alaq ki, ölkəmizin ərazisində Dağlıq Qarabağ adlı inzibati ərazi vahidi yoxdur. Görünür, Fransa Alma-Ata Bəyannaməsini yada salarkən, onun imzalandığı dövrdə həmin ifadənin mövcudluğunu iddia etmək fikrinə düşür. Beləliklə, əslində ərazi bütövlüyü və suveren hüquqlar məsələsini şübhə altına alır. Suveren hüququmuz keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvinə çatdığı kimi, hazırda Qarabağ iqtisadi rayonu yaratmağa da çatır. Parisin bunu anlamaq istəməməsi onun sülh gündəliyinə xələl gətirmək cəhdindən və ermənipərəst mövqeyindən qaynaqlanmaqdadır.

Bəli, Fransa təxribatından qalmır. Əslində, Yelisey sarayında yaxşı bilirdilər ki, buna Azərbaycandan reaksiya gələcək. Heç şübhəsiz, həmin reaksiyaya rəsmi İrəvanın əks-reaksiyası da düşünülmüşdü. Budur, Ermənistan mediası Azərbaycan XİN-nin mətbuat katibinin fikirlərini Bakının aqressiv ritorikası kimi dəyərləndirir. Halbuki, A.Hacızadənin söylədikləri beştərəfli qeyri-formal təmasla bağlı "Brüssel formatı"nın leqallığının, mövcud xüsusda, Ş.Mişel vasitəçiliyinin önə çəkilməsinin, mülahizələrin reallıq kimi təsvirindən uzaq durulmasının zəruriliyi ruhunda idi. Belə yanaşma isə həm obyektivliyin qorunması, həm də subordinasiyanın gözlənilməsi baxımından vacibdir.

***

Qeyd edək ki, ABŞ Dövlət Departamenti də Kişineu sammiti çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin bir araya gəlmələrinə reaksiya verib. Dövlət Departamenti "Amerikanın səsi" radiosunun erməni xidmətinin sorğusuna cavabında Ş.Mişelin görüş sonrası fikirlərinin qayəsindən irəli gələrək bildirib: "Bizi liderlərin Kişineuda bugünkü görüşü də daxil olmaqla, sülh sazişi üzrə tərəflər arasında aparılan danışıqlarda davam edən iştirak və irəliləyiş ruhlandırır. Açıq dialoq nöqteyi-nəzərlərin tam başa düşülməsi də daxil olmaqla, tərəqqi üçün vacibdir. Biz dialoqu təşviq etməyə və davamlı və ləyaqətli sülhə nail olmaq üçün çalışan tərəfləri dəstəkləməyə davam edəcəyik".

Göründüyü kimi, Fransadan fərqli olaraq, ABŞ-ın "Brüssel formatı"na münasibəti pozitivdir. Görünür, Paris keçmişin təcrübəsini – diqqətə çatdırdığımız kimi, ötən ilin Praqa sammitindən sonrakı pozuculuğunu təkrarlamaq niyyətindədir. O da görünür ki, bu format çərçivəsində Kişineuda müzakirəyə çıxarılan məsələlər Ermənistan üçün sərfəli olmadığından, Makron ayrıca bəyanat yayaraq, saxta gündəm formalaşdırmağa baş vurur. Əlbəttə, bütün diplomatik etiketlərə zidd belə yanaşmanın İrəvana heç bir xeyri yoxdur. Əksinə, ziyanı var.

***

Ziyandan söz düşmüşkən, Fransa ermənipərəstliyi ilə bağlı Ermənistanın nisbətən real düşünən tək-tük siyasi çevrəsində maraqlı fikir var. Həmin fikrə görə, Paris İrəvana sözlü dəstəklərdən uzaq durmalıdır. Çünki müxtəlif tərəfkeşlik sənədləri – qətnamələr, bəyanatlar Paşinyan administrasiyasının illüziyalara qapılmasını şərtləndirir. Bu isə hakim erməni komandasının reallığı dərk etməsini çətinləşdirir, bütövlükdə Ermənistan dövlətçiliyi üçün təhlükəli durum formalaşdırır.

Həqiqətən də bu deyim məntiqlidir. Çünki 44 günlük müharibədən qalib çıxmış Azərbaycanın diktə etdiyi sülh şərtləri ilə razılaşmamağın ötən iki il yeddi ay müddətində İrəvan üçün hansı pessimist nəticələr doğurduğu göz önündədir. Deməli, belə rəyə gələ bilərik ki, Fransa hazırda diplomatik etiketlərə zidd davranışı ilə Ermənistanın iflas ssenarisinə xüsusi rəng qatır. Əlbəttə, bu rəng Parisin Cənubi Qafqazdakı maraq və mənafe boyalarının bozluğu ilə birləşmiş eybəcər karikatura yaradıcılığıdır. Başqa sözlə desək, avantürist Makron administrasiyası, əslində, İrəvanı özünün bölgəyə hesablanmış ambisiyalarının alətinə çevirir...

Fransanın qəbuledilməz bəyanatı ilə bağlı bir vacib məqamı da vurğulamaq istərdik. Belə görünür, Makronla Mişel arasında gərginlik var. Ola bilər, birinci gözləyirmiş ki, ikinci beştərəfli görüş sonrası onun bəyanatında vurğuladıqlarını açıqlayacaq. Aİ rəsmisinin isə həmişə Azərbaycanı qıcıqlandırmaqdan kənar dayandığı aşkardır.

Bu yerdə Mişelin növbəti görüşün üçtərəfli formatda təşkilini bildirməsinə də diqqət yetirək və Fransanın dövlət başçısının ötən ilin Praqa sammitindən sonra dördlü masada əyləşdiyini yada salaq. Məlum olduğu kimi, Makron həmin təmasdan sonra Azərbaycanı işğalçılıqda günahlandırmaqla, əslində, Aİ Şurası rəhbərinin missiyasını fiaskoya uğratmışdı.

Görünür, hazırda Mişel öz vasitəçiliyini iflasdan qoruyur. Ötən ildəki iflas isə həm də ona görə baş vermişdi ki, Ermənistanın baş naziri "Brüssel formatı" çərçivəsindəki növbəti görüşə Makronsuz qatılmayacağını vurğulamışdı. Bu, Azərbaycan tərəfindən rədd edilmiş, nəticədə Cənubi Qafqaz liderlərinin dekabrın 7-də Brüsseldə bir araya gəlmələri mümkün olmamışdı.

Bəli, deməli, indi "Brüssel formatı" Fransanın təsirindən uzaqlaşa bilib. Mövcud məqamın isə Parisdə qıcıq yaratması labüddür. Yelisey sarayının bəyanatı, məhz, həmin qıcığın nəticəsidir və bunu, yalnız oyuncağı əlindən alınmış uşağın ağlamasına yanaşma baxımından, anlayışla qarşılamaq mümkündür. Makron özünü təsvirimizdəki ampluada görürsə, buyursun, nə qədər istəyirsə, ağlasın, yəni erməniperətslik etsin. Şübhəsiz ki, onun "bacı təəssübkeşliyi", ən azından, hazırkı mərhələdə "Brüssel formatı"na xələl gətirə bilməyəcək...

***

Sonda bir məqamdan da söz açaq. Əslində Yelisey sarayının bəyanatı ortaya gülünc durum çıxarır. Həmin durumu təsvir etmək üçün siyasət mövzusundan uzaq, sonradan həm də siyasət hadisəsinə çevrilmiş bir hadisəni yada salaq. Məlum olduğu kimi, futbol üzrə ötən dünya çempionatlarının birinin final mərhələsində Şimali Koreya millisi də iştirak edirdi. Əlbəttə, şimali koreyalılar qrup mərhələsindəcə mübarizəni dayandırmışdılar. Lakin totalitar ölkə hakimiyyəti daxildə belə bir xəbər yaymışdı ki, guya, Şimali Koreya finalda Portuqaliya futbolçularını məğlubiyyətə uğradaraq, mundialın qalibi adını qazanıb.

Bəli, indi Fransa hakimiyyətinin bəyanatı da təxminən rəsmi Pxenyanın "təbliğat maşını"nın gördüyü işə bənzəyir. Ermənilər buna inanırlarsa, inansınlar. Hərçənd, erməniperəstliyin Fransa təmayülündən əlini üzənlərin sırasının da əhəmiyyətli dərəcədə genişləndiyi faktdır. Fransızlara gəldikdə isə, onlara belə "təbliğat" heç lazım deyil. Onlara Makronu yolda, küçədə görəndə silləmək lazımdır ki, bunu da vaxtaşırı edirlər. Həqiqətən, döyüləsidir. Həm də siyasi boşboğazlığına görə.

**Ə.RÜSTƏMOV,**
**"Xalq qəzeti"**

# Erməni separatizmi sıravi vətəndaşlara divan tutur

**Qarabağdakı qondarma rejimin başçısı Araik Arutyunyan Xankəndi və ətraf bölgələrdə yaşayan erməniləri insan haqları və konstitusion hüquqdan məhrum edən "sərəncam" imzalayıb.**

Erməni mediasında yer alan məlumata görə, separatçıların lideri Xankəndi və onun ətrafında hər hansı aksiya, yürüş və mitinqin keçirilməsini qeyri-müəyyən vaxta qədər yasaqlayıb. Arutyunyan bunu bölgədəki "hərbi vəziyyətlə" izah edib. Baş separatçının Xankəndidə tətbiq etdiyi bu qadağa sakinlərin narazılığına səbəb olmaqla yanaşı, erməni mediası tərəfindən sərt tənqidə məruz qalıb. "Hraparak" nəşri Araik Arutyunyanı "quldurbaşı" adlandırıb və yazıb ki, bu qadağalar daxildəki narazılığın qarşısını almaq, onun açıq müstəviyə keçməsini əngəlləmək üçündür.

Təkcə sıravi ermənilər deyil, bəzi separatçılar da Araikə qarşı çıxır və belə qüvvələrin sayı sürətlə artmaqdadır. "Artsax Milli Assambleyası"nın spikeri iddia edir ki, "Araik Arutyunyan ya istefa verib yeni seçkilərə getməlidir, ya da etimad referendumu keçirilməlidir".

Qondarma rejimin "təhlükəsizlik şurasının keçmiş katibi" Samvel Babayanın da Arutyunyana qarşı cəbhə açması müşahidə edilir ki, bu da separatçıların lideri ətrafında vəziyyətin mürəkkəbləşdiyini göstərir. Fəqət, Araikin Xankəndi və ətraf bölgələrdə aksiya və yürüşləri yasaqlayan "sərəncam"ının məhz indi elan edilməsinin daha ciddi səbəbləri var.



## İrəvanın təzyiqlərinə müqavimət

A.Arutyunyanın aksiya və mitinqləri yasaqlamasının ikinci bir səbəbi rəsmi İrəvanın separatçıların liderinə göstərdiyi təzyiqlə əlaqədardır. Azərbaycanla sülh müqaviləsi imzalamağın zəruriliyini yaxşı dərk edən Paşinyan, bu yolda ən böyük əngələ çevrilmiş separatçılara təzyiq göstərməyə çalışır. Lakin sülhü öz hakimiyyətlərinin sonu kimi dəyərləndirən Araik və ətrafı, nəyin bahasına olursa-olsun, sülh müqaviləsinin imzalanmasına maneə törətməkdə qərarlıdır. Bu səbəbdən də rəsmi İrəvan indiki məqdamda Arutyunyanın mövqelərinin mümkün qədər zəiflədilməsində maraqlıdır. Onun özü isə İrəvanın münasibətini bildiyi üçün sərt və mərkəzləşdirilmiş idarəetmə formalaşdırmaqla təzyiqlərə qarşı daha dayanıqlı və hazırlıqlı olmağa çalışır.

## Separatçılara amnistiya...

Araikin Xankəndinə gətirdiyi qadağaların üçüncü – ən böyük səbəbi isə Prezident İlham Əliyevin separatçılara vəd etdiyi amnistiyadır. Dövlət başçısı Kişineu səfəri ərəfəsində bu məsələyə diqqət çəkmiş və bildirmişdi ki, Qarabağ separatçıları istefa verdikləri və Azərbaycanın qanunlarını tanıdıqları halda, amnistiya imkanlarından yararlana bilərlər: "Yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna, hər hansı amnistiyadan söhbət gedə bilər".

Göründüyü kimi, Araik və çevrəsi Bakının amnistiya vədinə Qarabağdakı ermənilərin hüquqlarına qəsdlə cavab verir. Amma separatçılar unutmamalıdırlar ki, Azərbaycan hər zaman bu qədər mərhəmətli olmayacaq. Yəni yararlanmaq istəmədikləri amnistiya şansından da həmişəlik məhrum ola bilərlər.

**Seymur ƏLİYEV**

# Fransa Prezidentinin açıqlaması tərəflərin mövqeyini təhrif edir

**"Əfsuslar olsun ki, Fransa tərəfindən belə davranışın sərgilənməsi ilk hal deyil və bu, Azərbaycanla Ermənistan arasında sülh prosesinə, bölgədə təhlükəsizliyə və sabitliyə heç də müsbət töhfə vermir."**

Bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan və Ermənistan liderləri arasında Kişineuda keçirilən görüşünün nəticələrinə dair yayılmış bəyanatına cavab olaraq deyib.



Ayxan Hacızadə bildirib ki, Kişineuda Avropa Siyasi İcması sammiti çərçivəsində Azərbaycan Respublikasının Prezidenti və Ermənistanın baş naziri arasında Aİ Şurasının Prezidenti Şarl Mişelin, Fransa prezidentinin və Almaniya kanslerinin iştirakı ilə görüşün yekunları üzrə mətbuata açıqlama, ənənəyə uyğun olaraq, Brüssel formatının təşkilatçısı kimi Şarl Mişel tərəfindən verilib.

Daha sonra Fransa Prezidenti tərəfindən birtərəfli qaydada görüş barədə verilmiş açıqlama tərəflərin mövqeyini əks etdirmir və təhrif edir.

**"Xalq qəzeti"**

# Əgər sülh dinamikası belə davam etsə...

## *Rəsmilər kimi ekspertlər də güman edirlər ki, sülh danışıqlarının nikbin dinamikası müsbət nəticə verəcək*



**"Avropa siyasi birliyi"nin Kişineudakı 2-ci Zirvə toplantısı çərçivəsində Azərbaycan və Ermənistan liderlərinin Aİ Şurasının prezidenti Şarl Mişelin moderatorluğu ilə keçirilən görüşü qeyri-formal xarakter daşısa da, danışıqları Fransa və Almaniyanın dövlət başçılarının müşayiət etməsi formatı sanbala mindirdi. Vaşinqton, Brüssel, Moskva raundlarından sonra sülh prosesindən irəliləyişin gözlənildiyi Moldovadakı təmas tərəflərin mövqelərini bir daha dəqiqləşdirməsi nöqteyi-nəzərindən aktual sayılırdı. Düzdür, bəzi ekspertlər onların çərçivə sənədini imzalayacağı ehtimalını irəli sürürdülər, amma bunun reallaşma şansı aşağı idi.**

### Təşəbbüskar prosesdən razıdır, amma...

Bakı–İrəvan sülh danışıqlarının növbəti raundları üçün əsas formulun hazırlanması məqsədini daşıyan Kişineu görüşündən sonra vasitəçi Şarl Mişelin verdiyi açıqlama da nikbin notlara köklənmişdi. Fransız əsilli Mişelin vasitəçilik missiyasında nə qədər xeyirxah və səmimi niyyətli olmasını qeyd etməklə yanaşı, "beşliy"in dəyirmi masasından hansı konkret nəticə əldə etdiyini açıqlamaması diqqət çəkdi. Halbuki, 14 may Brüssel formatından sonra moderatorun dediyi yenilik tərəflərin qarşılıqlı şəkildə ərazi bütövlüyünün tanınması olmuşdu. Yəni, o zaman şifahi şəkildə olsa da, Bakı və İrəvan arasında müəyyən razılaşmaya nail olunmuşdu. Düzdür, Kişineu görüşü qeyri-formal xarakter daşıyırdı və Mişelin mövqeyi də buna adekvat olaraq, daha çox məlumatlandırma məqsədli idi. "Praqa və Brüssel görüşlərindən sonra biz Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasının bütün elementlərinin müzakirəsinə davam etdik. Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan, Fransa Prezidenti Emmanuel Makron və Almaniya kansleri Olaf Şolts ilə geniş müzakirəmiz oldu", – deyə Ş.Mişel özünün "Twitter" hesabında yazıb. Daha sonra isə o, tərəflərin götürdükləri öhdəliklərə yerinə yetirmələrinin vacibliyini qeyd edib: "Biz həmçinin iyulun 21-də Brüsseldə keçiriləcək növbəti görüşü də müzakirə etdik. Oktyabrda Qranadada ASB növbəti sammiti çərçivəsində Ermənistan, Azərbaycan, Almaniya və Fransa liderləri ilə müzakirələrin davam etdirilməsi təklifini təsdiqlədik."

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Kişineu görüşü ilə bağlı "Twitter" paylaşımı da məlumat xarakterlidir: "Avropa siyasi birliyi"nin sammiti çərçivəsində Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin köməyi, eləcə də Almaniya və Fransanın iştirakı ilə keçirilən üçtərəfli görüş qeyri-rəsmi, müsbət və səmərəli şəraitdə baş tutub. Üçtərəfli görüşün növbəti mərhələsinin iyul ayında Brüsseldə keçirilməsi qərara alınıb".

### Paris yenə öz ampluasındadır

Görüşün bizim üçün yaddaqalan məyusedici məqamı isə Fransa hökumətinin verdiyi bəyanat oldu. Emmanuel Makron yenə birtərəfli və danışıqlara heç bir müsbət təkan verməyən açıqlaması ilə sülh prosesinə yalnız mane olmağa çalışdığını bir daha ortaya qoydu. Bakı lap əvvəldən Parisin bu formatda iştirakına etirazını bildirmişdi. Yelisey sarayından yayılan bəyanatda Avropa liderlərinin tərəfləri hərbi əsirlərin tezliklə azad edilməsi öhdəliyini yerinə yetirməyə çağırdığı vurğulanır. Ardınca isə Ermənistanın rifahı naminə Aİ-nin müşahidəçi missiyasının önəmi, həmçinin, Dağlıq Qarabağ (?) ermənilərinin hüquq və təhlükəsizliyinə təminatın vacibliyi xüsusi olaraq qeyd edilir. Əslində, təəccüb doğuracaq heç nə yoxdur. Fransa həmişə olduğu kimi, özünün ermənipərəst mövqeyini ortaya qoyur. Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Fransa Prezidenti Emmanuel Makronun Azərbaycan və Ermənistan liderləri arasında Kişineu görüşünün nəticələrinə dair bəyanatına cavabında bu amil xüsusi qeyd edilir: "Əfsuslar olsun ki, Fransa tərəfindən belə davranışın sərgilənməsi ilk hal deyil və bu, Azərbaycanla Ermənistan arasında sülh prosesinə, bölgədə sülh və sabitliyə heç də müsbət töhfə vermir". Kişineu görüşünün yekunları üzrə mətbuata açıqlamanın ənənəyə uyğun olaraq Brüssel formatının təşkilatçısı Şarl Mişel tərəfindən verildiyini deyən XİN rəsmisi Parisin bəyanatının özündə təhrifdən başqa heç nə daşımadığına diqqət çəkir: "Fransa Prezidenti tərəfindən birtərəfli qaydada görüş barədə verilmiş açıqlama tərəflərin mövqeyini əks etdirmir və təhrif edir".

### Bakının missiyası

Fransanın Cənubi Qafqazda çoxdan gözlənilən sülhün bərqərar olmasına, xalqların rahat və əmin-amanlıq şəraitində yaşamalarına maraq göstərməməsi, əksinə, bu prosesin uğursuzluğa düçar olmasına çalışması bu günün məsələsi deyil. Paris otuz ildir bölgədə suyu bulandırmaqla məşğuldur. Onun "sülhməramlı" missiyası, dəyişməyən diplomatik ampluası məhz bunun üzərinə köklənib. Özünü Bakı və İrəvanı barışdırmağa çalışan qərblilərin düşərgəsinə pərçimləməyə çalışan Fransanın əsl niyyəti bizə çoxdan bəllidir. Deməli, indiki halda aydın görünən həqiqət ondan ibarətdir ki, Paris Azərbaycan və Ermənistan arasında üzü pozitiv platformaya yönələn sülh prosesindən təcrid edilməyənə qədər, həm tərəflər, həm də Cənubi Qafqaz bölgəsi üçün başağrısı olaraq qalacaq. Yəqin, oyunun qaydalarını pozan legionerin "cərimə meydançasına" göndərilməsi missiyası Azərbaycanın üzərinə düşəcək. Bakının bu missiyanı uğurla yerinə yetirəcəyinə isə heç kəsin şübhəsi olmasın.

*Ekspert rəyi*



**Orxan AMAŞOV, "Caliber.az" saytının siyasi analitiki:**

– Düşünürəm ki, Kişineu görüşündə minimum məqsədə nail olundu. Məqsəd isə ondan ibarət idi ki, mayın ilk günlərində Vaşinqtonda keçirilən sülh danışıqlarında yaranmış dinamika sarsılmasın. Bəzi ekspertlər hesab edirdilər ki, iyunun 1-də çərçivə sənədi imzalana bilər, amma bu ehtimalın gerçəkləşmə faizi aşağı idi. Çünki tərəflər bir çox məsələlərlə bağlı ümumi məxrəcə gəlməyiblər. Qarşıda bizi nə gözləyir? Hazırda Bakı və İrəvan sülh və dövlətlərarası münasibətlərin normallaşmasına dair çərçivə sənədinin imzalanması üzərində işləyir. Bu sənəd sülh müqaviləsinə nail olmaqdan ötrü bir mərhələdir. Ziddiyyətli məqamlar hələ qalır. Əsas məsələ odur ki, İrəvan Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyır. İndiki məqamda bu, Paşinyan üçün siyasi-mənəvi öhdəlikdir. Həmin öhdəlik sənəddə öz əksini tapanda, hüquqi öhdəliyə çevriləcək. O, hələ də Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi ilə bağlı məsələnin beynəlxalq formatda həllini israr edir. Bakı isə buna cavab olaraq deyir ki, bölgədə yaşayan ermənilərlə dialoq daxili işidir. Biz beynəlxalq ictimaiyyətə prosesin şəffaflığını göstərə bilərik, amma heç bir müdaxiləyə imkan verilməyəcək. Məhz qeyd etdiyim məsələ ilə bağlı müəyyən razılaşma olmalıdır. Əgər buna nail olunsa, iyulun 21-də çərçivə sənədinin imzalanması mümkünləşə bilər.

*Ekspert rəyi*



**Asim MOLLAZADƏ, Mili Məclisin deputatı, politoloq:**

– Vaşinqton dialoqunda, Moskva danışıqlarında və indi Kişineu görüşündə Makronun iştirakı və ardınca açıqlamaları onu deməyə əsas verir ki, Paris Ermənistanın sülh istiqamətində hansısa addımları atmasını, konkret sənədin imzalanmasını istəmir. Çox güman ki, Fransa bilavasitə, məhz bu niyyətli fəaliyyətini davam etdirəcək. Əgər ölkə mövcud istiqamətdə səylərini artırsa, qarşıdakı Brüssel görüşü də nəticəsiz başa çatacaq. Belə görünür ki, bir neçə dövlət bölgəyə sülhün gəlməyində maraqlı deyil və İrəvana təzyiq göstərməklə, ona sülhə çatmaq istiqamətində tələb olunan zəruri addımları atmasına imkan verməyəcəklər. Zəruri addımların konkret nədən ibarət olduğu isə Azərbaycan Prezidenti İlham Əliyevin Laçından səsləndirdiyi bəyanatda öz əksini tapıb. Yəni, dövlətimizin başçısı sülhün real yol xəritəsini nümayiş etdirib. Bu yolun alternativi yoxdur. Bakı indiki mərhələdə nəyi etməyin zəruriliyini beynəlxalq ictimaiyyətə açıqlayıb. Hazırda yalnız, beynəlxalq hüquq normalarına söykənən, BMT və ATƏT-in müvafiq sənədlərinə uyğun fəaliyyət həyata keçirilməlidir.

**İmran BƏDİRXANLI, "Xalq qəzeti"**

---

**Burada müsbət tendensiya kimi onu göstərmək olar ki, artıq anklavlar üzərindəki suverenlik məsələsində qarşılıqlı razılaşma əldə olunub. Mövcud prosesin başa çatdırılması sülh sazişini şərtləndirən əsas amillərdəndir. Ermənistan və Azərbaycan arasında anklavlar məsələsini yenidən gündəmə gətirən baş nazir Nikol Paşinyan qeyd edib ki, İrəvan anklav kəndləri Azərbaycana qaytarmağa hazırdır. Onun sözlərinə görə, rəsmi İrəvan və Bakı 1975-ci ilin sovet xəritələrinə əsaslanaraq, delimitasiya aparmağa ilkin razılıq veriblər. Paşinyanın fikrincə, bu istiqamətdə aparılan müzakirəni faydalı hesab etmək olar: "Danışıqların birinci bəndi tərəflərin Praqada razılaşdığı Alma-Ata Bəyannaməsi əsasında ərazi bütövlüyünün qarşılıqlı tanınması ilə bağlı olub".**

# Paşinyan anklavları qaytarmağa hazırdır



Ötən ay keçirdiyi geniş mətbuat konfransında Paşinyanın səsləndirdiyi fikirlər Ermənistan cəmiyyətində geniş rezonans doğurmuşdu. Hayların kəskin etirazları ilə qarşılanan həmin incə məqam baş nazirin Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisinə Qarabağın da daxil olduğunu etiraf etməsi idi. Paşinyan bir az da irəli gedərək demişdi ki, anklavlar Azərbaycanın ərazi bütövlüyünün tərkib hissəsidir. O, anklavlar məsələsinin həlli üçün bir neçə variantın olduğuna diqqəti çəkmişdi: "Bu variantlardan biri belədir: xəttin hər iki tərəfindəki anklav ərazilər yerləşdikləri tərəfin nəzarəti altında qalır. Başqa bir variant isə odur ki, iki dövlət arasında sülh müqaviləsi imzalandıqdan sonra Artsvaşen (Başkənd) Ermənistanın, qalan ərazilər isə Azərbaycanın suverenliyi altına qayıdacaq". Paşinyan hesab edir ki, bu, siyasi nöqteyi-nəzərdən olan mövqedir, hüquqi aspekt sonadək öyrənilməlidir.

"Bizim üçün yol problemi yarada biləcək anklav yoxdur. Əgər bu yol elə keçmirsə, onda başqa cür keçəcək və burada heç bir problem yoxdur. Əslində, biz öz yol şəbəkəmizi o dərəcədə inkişaf etdirmişik ki, o cür problem sadəcə mövcud deyil". Ermənistanın baş naziri Nikol Paşinyan bu sözləri ASB-nin Kişineu Zirvə toplantısından sonra Moldovadakı erməni icmasının nümayəndələri ilə görüşündə dilə gətirib. Onun bildirdiyinə görə, hazırda anklavlar məsələsi elə təqdim olunur ki, bununla ictimaiyyətə psixoloji təzyiq göstərilir: "Biz deyirik ki, anklavları qəbul edirik, Bakı da eyni mövqedədir. Nə olar, qoy yol o tərəfdən deyil, bu tərəfdən keçsin. Bu məsələdə bizə psixoloji təzyiq göstərilməsinə imkan verə bilmərik".

***

"Mən birbaşa rəhbərimin nöqteyi-nəzərini bölüşürəm, əks təqdirdə, bu siyasi komandada yer almazdım". Ermənistan baş nazirinin aparat rəhbəri Araik Arutyunyan dünən media nümayəndələri ilə söhbətində anklav məsələsinə münasibətini bu formada ifadə edib. O, erməni jurnalistin konkret Kərki ilə bağlı sualına cavabında deyib: "Hesab edirəm ki, baş nazir bu suala, kifayət qədər, dəqiq cavab verib, heç nə əlavə edə bilmərəm. Müxtəlif variantlar müzakirə edilir, hələlik hər hansı qərar qəbul olunmayıb".

***• ARAYIŞ: Ermənistanın Azərbaycan ərazisində yalnız bir anklavı olub. Paşinyanın, digər hayların Artsvaşen adlandırdıqları və inzibati baxımdan Gexarkunik vilayətinə (Göyçə mahalı) daxil olduğunu iddia etdikləri bu ərazi Gədəbəy rayonunun inzibati-ərazi vahidindəki Başkənddir. Bu kənd 1992-ci il avqustun 6-8-də həyata keçirilmiş eyniadlı əməliyyat nəticəsində Azərbaycanın nəzarətinə keçib.***

Psixoloji təzyiqin göstərilməsi məsələsində Paşinyan haqlıdır. 1998–2008-ci illərdə Hayastanın xarici işlər naziri olmuş Vardan Oskanyan "Mediamaks" saytı üçün qələmə aldığı məqaləsində bunları yazırdı: "Nəhayət, aydın oldu ki, Nikol Paşinyan Qarabağı Azərbaycana verir (?). Üstəlik, o da məlum oldu ki, "anklavlar" adı altında əlavə ərazilər də verir. Amma bu, iki dost və qonşu ölkə – İran və Gürcüstanla strateji kommunikasiyalarımıza ciddi ziyan vuracaq. Həm də təbii olaraq ciddi təhlükəsizlik problemləri əmələ gətirəcək. Heç şübhə etmirəm ki, tezliklə biz Azərbaycana "qeyri-dəhliz məntiqi" ilə Zəngəzur dəhlizinin də veriləcəyi xəbərini eşidəcəyik".



İşğal dövrünün "qəhrəmanlarından" sayılan Oskanyan, eləcə də digər eks-lərin nə demələrindən asılı olmayaraq, reallıq və fakt göz önündədir. Azərbaycanın heç vaxt heç bir ölkənin torpaqlarında gözü olmayıb. Hərçənd, indi Ermənistan deyilən dövlət tarixi Azərbaycan torpaqları hesabına yaradılıb və bu tarixi həqiqəti hayların özləri də yaxşı bilirlər. Bütün bunlara rəğmən, Bakı qalib tərəf kimi İrəvana barışıq əlini uzadır, bölgədə sülhün, əmin-amanlığın bərpasını istəyir.

İndi həllinin son mərhələsinə qədəm qoymuş Ermənistan və Azərbaycan arasındakı münaqişəyə bu iki ölkənin hüdudlarından kənarda, sadəcə, Qarabağ məsələsi prizmasından baxılır və qəbul edilir. Zəfərimizlə başa çatmış 44 günlük müharibədən sonra Cənubi Qafqazda söz və qüdrət sahibinə çevrilmiş Azərbaycanın mövqeyi ilə razılaşmaq, artıq həm də yeni reallığın diktəsidir. Sülh gündəmi də buna görə formalaşdırılır.

**İ.HƏSƏNQALA, "Xalq qəzeti"**

---

**İyirmi birinci əsrin İpək Yolunun üstündə inşa edilən Zəngəzur dəhlizinə Rusiyanın xüsusi maraq göstərməsi təəccüblü deyil. Dünən Moskvada Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri – Şahin Mustafayev, Mher Qriqoryan və Aleksey Overçukun həmsədrliyi ilə üçtərəfli işçi qrupunun görüşü başlayıb.**

# Zəngəzur yolu Moskva müzakirəsində

Bu barədə verilən məlumatlarda bildirilib ki, görüşdə Azərbaycanla Ermənistan arasında sərhəd və gömrük proseduru müzakirəyə çıxarılacaq. Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan bir müddət əvvəl İrəvanla Bakı arasında 1975-ci ilin sovet xəritələri əsasında delimitasiya ilə bağlı ilkin razılığın əldə edildiyini açıqlamışdı.

Ümumən, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları sənədə əsasən yaradılan üçtərəfli işçi qrupunun hazırda gündəliyində duran əsas məsələlər iki ölkə arasında kommunikasiyaların açılması, sərhəd keçid rejimlərinin bərpası, eləcə də Zəngəzur dəhlizinin istifadəyə verilməsidir. Məlumdur ki, Moskva üçtərəfli Bəyanatın 9-cu bəndinə uyğun olaraq, Zəngəzur dəhlizinə nəzarəti öz əlində cəlməşdirmək istəyir.

Bəli, gələcəkdə transmilli layihəyə çevriləcəyə iddialı bu marşruta bağlı Rusiyanın mövqeyi və rolu olduqca önəmlidir. Amma Brüssel və Vaşinqton platformalarında kommunikasiya xətləri üzərində suverenlik prinsipi əsas götürülür. Bu prinsiplə Kremlin məlum iddiaları arasında fikir ayrılıqlarına son qoyulmalıdır. Həmçinin, bu məsələdə Bakı və İrəvan arasında bir çox istiqamətlərdə konsensus var. Görünən odur ki, Moskvanın müəyyən güzəştlərə gedəcəyi təqdirdə, tərəflər arasında razılıq əldə edilə bilər.

Yeri gəlmişkən, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov yerli telekanala müsahibəsində Zəngəzur dəhlizi layihəsi ilə bağlı maraqlı açıqlama verib. "Zəngəzur dəhlizinin açılması Ermənistanın özünü təhlükəsiz hiss etməsi üçün də vacibdir", – deyən səfir bildirib ki, bu dəhliz Türkiyənin Şərqlə Qərb arasındakı əlaqəsini təmin edəcək. Onun açılması ilə, eyni zamanda, Türkiyə ilə Azərbaycan arasındakı məsafə 38 kilometr olacaq". Səfirin sözlərinə görə, Zəngəzur dəhlizi Ermənistanın inkişafı, gələcəyi üçün əhəmiyyətlidir: "Ermənistan son 30 ildə bir çox layihədən məhrum oldu. Həmin layihələr onun ərazisindən yox, Gürcüstandan keçərək, Türkiyəyə, Qara dənizə və Aralıq dənizinə çatdı. Ermənistan bu layihədən də kənarda qalsa, həyata keçirə biləcək başqa proyekti qalmayacaq".

**"Xalq qəzeti"**

# Böyük siyasətə qayıdışın Naxçıvan xronikası



**Heydər Əliyevin həyatının Naxçıvan dövrünün xronikası müxtar Respublikanın rəsmi ictimai-siyasi qəzeti olan "Şərq qapısı"nın səhifələrində geniş yer tutur. O zaman bu diyarda nəşr olunmuş yerli həmkarlar ittifaqının "Ağrıdağ" və xalq hərəkatının "Varlıq" qəzetləri də ulu öndərin Naxçıvana gəlişini, keçirdiyi görüşləri və siyasi fəaliyyətini ətraflı işıqlandırıb.**

Naxçıvanda 1921-ci ilin noyabrından nəşrə başlamış "Şərq qapısı" qəzeti Muxtar Respublikanın aparıcı mətbu nəşri olmaqla, bu qədim diyarın XX əsr tarixinin ən mükəmməl salnaməsini yaratdığı kimi, ümummilli lider Heydər Əliyevin Naxçıvanda xilaskarlıq missiyasının əhatəli mənzərəsi də onun bu dövrdə işıq üzü görmüş saylarında şərəfli bir tarixə çevrilib. Qəzetin 75 illik yubileyi münasibətilə Naxçıvan MR Ali Məclisinin redaksiyaya göndərdiyi təbrik məktubunda bu barədə deyilir: "1991–1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən möhtərəm Heydər Əliyevin şəxsiyyəti və fəaliyyəti ətrafında Azərbaycan Respublikasına o zaman rəhbərlik etmiş şəxslərin yaratdıqları sərt informasiya blokadasının yarılmasında "Şərq qapısı" qəzeti xüsusi rol oynamışdır".

"Şərq qapısı" üçün bu movqe hec də yenilik deyildi. Ötən əsrin 80–90-ci illərindən başlayaraq bu vilayət qəzeti ölkəmizdə müstəqillik ideyalarının təşəkkülü və yayılması ilə bağlı fəal mübarizə aparıb. 1990-cı ilin 20 Yanvarında Naxçıvan Muxtar Respublikasının Ali Soveti torpaqlarımıza erməni təcavüzü ilə bağlı ədalətsizliklərə etiraz olaraq diyarın sovet imperiyasının tərkibindən çıxması haqqında deklarativ qərar qəbul edən zaman "Şərq qapısı" həmin ağır və mürəkkəb zamanda "partiya-sovet" mövqeyinə zidd 7 "müstəqil" nömrə buraxmış, imperiya əsarətinə müqaviməti və xalqın etirazını əks etdirmişdi.

Bu ənənə və məslək yoluna sadiq qalan qəzet böyük siyasətçi Heydər Əliyevin Naxçıvana dönüb burada siyasi reabilitasiya keçməsi dövründə ümummilli liderə sədaqət məsələsində ölkə mətbuatına örnək oldu. Naxçıvanın baş qəzeti respublikanın partiya-sovet mətbuat orqanları sırasında ilk olaraq öz səhifələrində dünya şöhrətli siyasətçi və dövlət xadiminə layiq olan tribuna verdi.

Muxtar respublika mətbuatının tədqiqatçısı Surə Seyidin yazdığı kimi, "Şərq qapısı" qəzeti Heydər Əliyevin Naxçıvandakı həyat və fəaliyyətinin güzgüsü olmaqla, onun müharibə şəraitində, blokadanın yaratdığı ağır sosial-iqtisadi durumda həyata keçirdiyi xilaskarlıq missiyasının xronikasını yaradıb. Bütün bunlarla yanaşı, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışına zəmin yaradan ümumxalq çağırış və tələbləri də muxtar respublikaya və ölkəyə "Şərq qapısı" qəzeti vasitəsilə yayılıb.

## "Daha susa bilməzdim..."

Dünya siyasətinin nəhəngi Heydər Əliyev doğulduğu torpağa dönəndən 2 gün sonra "Şərq qapısı" qəzeti ümummillim liderlə əlaqə yaradıb ondan müsahibə almışdı. Qəzetin əməkdaşı Möhsün Möhsünovun ulu öndərlə bu müsahibəsi qəzetin 26 iyul 1990-cı il tarixli sayında "Daha susa bilməzdim..." adı ilə çap olunmuş, ölkədə və ondan kənarda da əks-səda doğurmuşdu.

Yeri gəlmişkən, qeyd edim ki, Naxçıvanda "Azərinform"un (indiki AZƏRTAC) müxbiri kimi çalışdığım 1990–1991-ci illər mənə təkcə Naxçıvanı yox, həm də bu qədim diyarın onlarca dəyərli və dəyanətli ziyalılarını da tanıtdı. Bu sırada yaddaşımda silinməz xatirələri ilə qalan Möhsün Möhsünov publisistik məharəti, satirik qələmi və yazı uslubu ilə başqalarından fərqləndiyi kimi, müsahiblərinə münasibətində də ciddi bir adam idi. Arada xeyli yaş fərqimiz olsa da, ünsiyyətimiz alınmış, ulu öndər Heydər Əliyevlə keçirilən ilk görüşlərin iştirakçısı olmuşduq. O görüşləri ulu öndərin Möhsun müəllimə, eləcə də mətbuata dəyər və hörmətinin ifadəsi kimi xatırlayıram.

Mətbuat tədqiqatçılarının Heydər Əliyevin vətənə qayıtdışından sonra partiya-sovet mətbuatında dərc olunmuş ilk müsahibəsini Möhsün müəllim oxuculara belə təqdim etmişdi: "Söhbətə başlamazdan əvvəl bildirmək istəyirəm ki, Heydər Əliyev doğma Naxçıvan torpağında bacısının mənzilində yaşayır. Gözəl, səliqəli həyətdə Heydər Əliyevlə görüşə onun dostları, qohumları, pərəstişkarları gəlirdilər. O, bizimlə çox səmimi və mehriban görüşdü. Onu da deyim ki, gəldiyi günə nisbətən özünü daha gümrah hiss edir. Çöhrəsində bir nikbinlik, xoş əhval-ruhiyyə var. Sadə yarımqol köynək geymişdi. Naxçıvanla bağlı əhvalatları şirin yumorla söyləyir. O danışdıqca bu böyük insanın dərin, möhkəm hafizəsinə həsəd aparmalı olursan. Özümü təqdim etdim, yarızarafat, yarıgerçək dedi: Bir şərtlə müsahibə verərəm ki, olduğu kimi dərc edəsiniz. Mən razılaşdım".

Müsahibədə müxbirin suallarına ətraflı cavab verən böyük siyasətci dövrün siyasi gedişlərini uzaqgörənliklə dəyərləndirirdi: "Bir baxın, artıq altıncı ildir ki, keçmişi amansız surətdə söyürük. Altıncı ildir ki, ölkəmiz iqtisadi və siyasi cəhətdən dağılır. Bütün bu dövrlərdə bizə vədlər "yedirdirlər", nə bilim bu yeni mərhələdir, bu dönüş mərhələsidir, bu kəskin dönüşdür və i.a. Axı, nə qədər mərhələ ola bilər? Buna görə də belə hesab edirəm ki, indi hər bir adama, hər bir xalqa, hər bir siyasi təşkilata və siyasi qüvvəyə öz taleyini müstəqil müəyyən etmək imkanı verilməlidir. Bugünkü fikrim budur".

Kifayət qədər əhatəli bir müsahibədə bu cavabları ilə Heydər Əliyev siyasət meydanında yeni olmadığını sübut etmiş və xalqın azadlıq mübarizəsini dəstəkləmişdi. Bütün şüurlu həyatını xalqına həsr edən ulu öndər müxbirin "Bu məqamda sizin özünüzə ən başlıca sualınız nə olardı?" sorğusuna cavabında söyləmişdi: "Soruşardım ki, ay Əliyev, bəzi adamları niyə yaxşı tanımamısan?". Bu sözlər ulu öndərin ünvanına söylənilən şər və böhtanlara, onu doğma məmləkətinə həsrət qoymaq istəyənlərə ən tutarlı cavabı olmuşdu.

"Şərq qapısı"nın dərc etdiyi digər bir yazıda – publisist və şair Zeynal Vəfanın "Şəxsiyyət" məqaləsində müstəqil ölkədə keçiriləcək prezident seçkiləri ərəfəsində ağır böhrandan xilas yolunun Heydər Əliyev fenomeni və Heydər Əliyev şəxsiyyəti ilə bağlı olduğu aydın və qətiyyətlə bildirilmişdi: "Əgər o şəxs faciələrimizi doğuran səbəbləri aşkarlayıb bizi boğazadək batdığımız böhran bataqlığından çəkib çıxara biləcəksə, bakirəliyi tapdalanmış qızlarımızın, başları kəsilmiş ağsaqqallarımızın, tonqallarda yandırılmış körpələrimizin intiqamını almaq üçün öz polad yumruğunu günahsız xalqımızı qızıl xəzinələri üstə dilənçi kökünə salmış acgöz Azərbaycan mafiyasının təpəsində Koroğlu gürzünə çevirə biləcəksə, buyursun....Bunun üçün qüdrətli şəxsiyyət olmaq gərəkdir. Belə bir şəxsiyyət isə 7 milyonun içində hələlik bir nəfərdir, təkcə bir nəfər: Heydər Əliyev!"

## "Azərbaycan sizin sözünüzü gözləyir"

Çox keçmədi ki, "Şərq qapısı" qəzetində respublika ziyalılarının Heydər Əliyevə "Azərbaycan sizin sözünüzü gözləyir" başlıqlı müraciəti dərc olundu. Bu tarixi çağırış ölkənin həyatında dönüş nöqtəsi oldu. Müraciətdə deyilirdi: "Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs sizsiniz!...Yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə şəxs Siz ola bilərsiniz. Yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütlələrini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi-iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərinə öz layiqli töhfəsini verə bilər".

Qəzetin elə həmin sayında müraciətə cavab olaraq dərc olunmuş ümummilli lider Heydər Əliyevin "Yeni, müstəqil Azərbaycan uğrunda" başlıqlı məktubunu müstəqil Azərbaycanın xilası yolunda ilk addım kimi də dəyərləndirmək olar. Tarixi reallıqlar sübut etdi ki, Azərbaycan tarixində yeni bir siyasi qüvvənin – Yeni Azərbaycan Partiyasının yaradılmasına Heydər Əliyevin razılıq verməsi və 1992-ci il noyabr ayının 21-də Naxçıvan şəhərində partiyanın təsis konfransının keçirilməsi zamanın təxirəsalınmaz tələbinin cavablandırılması olmuşdu.

O dövrdə ulu öndərin siyasi fəaliyyətə başlaması ilə bağlı qəzetin dərc etdiyi məqalə və xəbərlərdə ümummilli liderin start verdiyi xilaskarlıq missiyasının gedişini əks etdirilirdi. "Şərq qapısı" qəzetində dərc edilmiş başqa bir müsahibədə böyük rəhbər müxbirin "Heydər bəy, bir insan kimi həyatınız üçün yaranmış təhlükədən qorxmursunuzmu?" sualına cavabında bildirmişdi: "Xeyr, Sizə bunu tam səmimiyyətlə deyirəm. Mən nə hədələrdən, nə də rəzil niyyətlərdən qorxmuram. Mən çoxdan siyasətçiyəm. Siyasi həyatda belə hallar da olur. Ümidvaram ki, bu niyyət sahibləri haqq yoluna qayıdacaqlar. Tarixin bizə demokratik və əsl hüquqi bir cəmiyyət qurmağa imkan verdiyi bir dövrdə siyasi mübarizənin yalnız mədəni üsullarından istifadə edilməlidir. Ağlın və zehnin gücü, professionallıq və nəhayət, müdriklik siyasi mübarizənin əsas vasitələri olmalıdır".

Bütün siyasi fəaliyyəti dövründə ağlın və zəkanın gücünə inanan böyük siyasətçi Naxçıvan dövrü siyasi fəaliyyətində də Azərbaycanın işıqlı və xoşbəxt gələcəyi uğrunda mübarizəni özünün həyat amalına cevirmişdi. Kommunist rəhbərlərin uydurduğu "Heydər Əliyev Naxçıvandakı fəaliyyəti ilə Azərbaycanı parçalayır" kimi böhtanları mətbuatda yayan adamlara isə onun cavabı həmişə birmənalı olmuşdu. O dönəmdə respublika mətbuatında nəinki çıxışlarına, hətta adının çəkilməsinə belə qadağalar qoyulmuş Heydər Əliyevə "Şərq qapısı" qəzeti geniş və mötəbər tribuna olmuşdu.

Muxtar Respublikaya rəhbərliyi zamanı Naxçıvan gəncləri ilə görüşündə: "Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir", Naxçivan şəhər Şəhidlər Xiyabanında keçirilən mitinqdəki çıxışında: "Dünən Bakıda, Azadlıq meydanında keçirilən mitinqdə Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy xalqı, milləti birliyə, həmrəyliyə çağırdı. Biz bu çağırışa bir nəfər kimi səs veririk, xalqımızın birliyi üçün əlimizdən gələni edəcəyik" kimi bəyanatları ilə ulu öndər müstəqil Azərbaycan uğrunda mübarizəsinin də məram və hədəfini bəyan edirdi.

"Nezavisimaya qazeta"nın müxbiri bir az da qalmaqal yarada bilən "Prezident Ə.Elçibəy açıq çıxışlarında İranın daxili və xarici siyasətini tənqid etmişdir. Eyni zamanda Naxçıvan rəhbərliyi İranla fəal əməkdaşlıq edir. Bakının və Naxçıvanın xarici siyasətə müxtəlif mövqelərdən yanaşmasından nə danışmaq olar?" sualına da ulu öndər böyük siyasət qrossmeysteri kimi cavab vermişdi: "Mən bu sualın məzmunu ilə tam razı deyiləm. Naxçıvanın heç bir müstəqil xarici siyasəti ola bilməz. Azərbaycan qonşu ölkələrlə yalnız xoş münasibət yaratmağa çalışmalıdır. Bu hər bir dövlətin xarici siyasətinin əsas qanunudur. Naxçıvana gəldikdə isə, biz 6 aydır ki, blokadadayıq. Belə ağır şəraitdə biz böhran vəziyyətindən həmsərhəd İran və Türkiyə ilə iqtisadi əlaqələr hesabına çıxırıq. Zənnimcə, bizim bu əlaqələrimiz Azərbaycanın xarici siyasətinə zərrə qədər də zidd deyil. İran və Türkiyə ilə səmimi qonşuluq münasibəti Azərbaycana yalnız xeyir gətirə bilər".

"Nezavisimaya qazeta"nın dərc etdiyi "Nə hədələrdən, nə rəzil niyyətlərdən qorxuram" adlı həmin müsahibədə səslənən bu fikirlər Heydər Əliyev fenomeninin Azərbaycanın müstəqilliyinin qorunub saxlanması uğrunda mübarizəsinin mahiyyətini əks etdirirdi.

***Namiq ƏHMƏDOV,***
***"Xalq qəzeti"***

# "Heydər Əliyev və hüquq elminin inkişafı"



**Baş Prokurorluqda "Ulu öndər Heydər Əliyev və hüquq elminin inkişafı" mövzusunda konfrans təşkil edilib.**

Tədbirdə Bakı Dövlət, Naxçıvan Dövlət, eləcə də ADA universitetlərinin və digər ali məktəblərin hüquq fakültələrində təhsil alan tələbələri, habelə professor-müəllim heyəti, tanınmış ziyalılar, dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri, prokurorluğun veteranları və gənc prokurorluq işçiləri iştirak ediblər.

Baş Prokurorluğun idarə rəisi Elnur Musayev tədbirin məqsəd və vəzifələrinindən danışıb. Xalq yazıçısı Çingiz Abdullayevin çıxışını gənc hüquqşünaslar böyük maraqla qarşılayıblar.



Konfransda Baş Prokurorluğun idarə rəisi Mahir Abbasov, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev, BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev və Cinayət Prosesi kafedrasının müdiri Firuzə Abbasova, DİA-nın kafedra müdiri İsaxan Vəliyev, MAA-nın İqtisadiyyat və hüquq fakültəsinin dekanı Ayxan Rüstəmzadə, ADA Universitetinin Hüquq fakültəsinin dekanı Rəşad İbadov, Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımovun çıxış və təqdimatları dinlənilib.

Tədbir zamanı Baş Prokurorluğun təşəbbüsü ilə ərsəyə gəlmiş ümummilli liderin xatirəsinə həsr olunmuş "Böyük şəxsiyyət...3 ştrixdə" adlı sənədli film seyr edilib.

***"Xalq qəzeti"***

# Tacikistanda ulu öndərə həsr edilmiş fotosərgi



**Ölkəmizin Tacikistandakı səfirliyi Düşənbədəki Milli Muzeydə Azərbaycanın Müstəqillik Günü və ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Heydər Əliyev – Müstəqil Azərbaycanın memarı" adlı fotosərgi təşkil edib.**

Tədbirdə Tacikistan Xarici İşlər Nazirliyinin, Mədəniyyət Nazirliyinin nümayəndələri, Tacikistanda akkreditə olunmuş xarici diplomatik korpusun rəhbərləri və üzvləri, jurnalistlər və yerli diaspor fəalları iştirak ediblər.

Sərgidə ulu öndər Heydər Əliyevin həyatının müxtəlif mərhələləri, sovet dövründə və müstəqillik zamanı Azərbaycana rəhbərlik etdiyi illərdə gördüyü işlər, keçirdiyi görüşlər, ölkəmizin regionlarına və xaricə səfərlərini əks etdirən fotoşəkillər nümayiş olunub.

Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov Heydər Əliyevin dövlət və xalq qarşısındakı misilsiz xidmətləri, Azərbaycanın taleyüklü məqamlarında göstərdiyi siyasi müdriklik, müasir müstəqil Azərbaycanın quruculuğu yolunda həyata keçirdiyi böyük işlər barədə məlumat verib.

Tədbirin sonunda səfirliyimiz tərəfindən Tacikistan Milli Muzeyinə Azərbaycanın 44 günlük Vətən müharibəsində şanlı Qələbəsindən bəhs edən "Zəfər Salnaməsi" kitabı hədiyyə olunub.

**Qulu KƏNGƏRLİ**

**Düşənbə**

# Kişineu sammiti Hayastanda “siyasi təzyiqi” qaldırıb

**İyunun 1-də Kişineuda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Almaniya kansleri Olaf Şolts və Fransa Prezidenti Emmanuel Makron arasında keçirilən qeyri-rəsmi görüş Hayastanda ciddi əndişə yaradıb. Görüşdə hər hansı konkret razılığın əldə olunmadığına, o cümlədən, hansısa sənədin imzalanmadığına baxmayaraq, hayların radikal kəsimi Azərbaycanla istənilən normallaşmanın qeyri-mümkünlüyünü və buna qarşı çıxacaqlarını bildirirlər. Obrazlı desək, daş atıb başlarını tuturlar.**



Belə yaramazlardan biri Qarabağdakı separatçı rejiminin sabiq “dövlət naziri” Ruben Vardanyandır. O, Kişineu görüşünün keçirildiyi gün – iyunun 1-də “Artsax təhlükəsizlik və inkişaf cəbhəsi” adlı qondarma ictimai hərəkatının təsis yığıncağında bildirib ki, dünya Qarabağ ermənilərinin Azərbaycanın həyata keçirmək istədiyi plana tabe olmayacağını anlamalıdır.

Maraqlıdır ki, Vardanyan bu ilin fevralında Azərbaycanın israrlı tələbindən sonra öz “vəzifəsindən” istefa verməyə məcbur olsa da, qondarma “hökumət”in adından danışmağa cəhd edib: “Bu, təkcə “Artsax hökuməti”nin deyil, öz hüquqları uğrunda mübarizə aparmağa hazır olan bütün xalqın (?) mövqeyidir. Bu mövqenin eşidilməsi, Ermənistanın və erməni dünyasının ona qoşulması vacibdir”.

O vurğulayıb ki, təşəbbüskarlar “təhlükəli laqeydliyə və biganəliyə qalib gələrək” ideya ətrafında birləşmək üçün hərəkata başlayıblar: “Biz, həmçinin ictimai hərəkat vasitəsilə “hökumət”in qəbul etdiyi qərarlara təsir göstərmək niyyətindəyik. Bu təzyiq dağıdıcı və ziyanlı deyil, sağlam və faydalı olmalıdır”.

Yığıncaqda gizli səsvermə yolu ilə qondarma “ictimai hərəkat”ın şurasının tərkibi seçilib və haylara müraciət qəbul edilib. “Artsax xalqı” ciddi ontoloji (varlıq) çağırışlarla üzləşib. Təəssüflə qeyd etmək lazımdır ki, Ermənistanın indiki hakimiyyəti Azərbaycanın 86,6 min kvadratkilometrdə ərazi bütövlüyünü tanıyaraq “Artsax”ı açıq şəkildə düşmənə təslim edir. Bu, həlledici andır, gecikmə geridönməz nəticələrə səbəb olacaqdır. Tariximizin bu dağıdıcı gedişatını yalnız 1988-ci il milli oyanış və mübarizə ruhunun bərpası yolu ilə dayandırmaq olar”, – deyə müraciətdə vurğulanır.

***

Radikal-revanşist kəsimin daha bir nümayəndəsi, 1998-2008-ci illərdə xarici işlər naziri olmuş, hazırda Civilitas Fondunun təsisçisi Vardan Oskanyan da dilə gəlib. Hazırda 68 yaşı olan, buna baxmayaraq iflic xəstəliyi səbəbindən çox qoca görünən, ayaq üstdə güclə dayanan Hələb ermənisi “Mediamaks” üçün məqaləsində yazıb: “2018-ci ildə hakimiyyət dəyişikliyindən – seçimin yanlış edildiyi artıq bəlli olandan sonra erməni xalqı dayanmadan alçaldılma dövrünə qədəm qoyub. 44 günlük müharibədəki ağır məğlubiyyətin rüsvayçılığın zirvəsi olduğu güman edilirdi. Ancaq Nikol Paşinyan “Artsax”ı əvvəlcə şifahi şəkildə Azərbaycana təhvil verəndə məlum oldu ki, bu belə deyil. Şübhəsiz ki, onu tezliklə yazılı şəkildə də təhvil verəcək. ABŞ-ın Azərbaycan Prezidentinin “Artsax hakimiyyəti”nin amnistiyasına dair xoş niyyətini alqışlaması bizim üçün daha bir aşağılanma, daha bir rüsvayçılıq damcısı oldu”.

V.Oskanyan əlavə edib ki, ABŞ-ı ittiham etməyə ehtiyac yoxdur: “Burada bir günahkar var. O da Ermənistanın indiki hakimiyyət orqanlarıdır. Bu rüsvayçılıqdan qurtulmağın və vəziyyəti kökündən dəyişməyin yeganə yolu xalq təzyiqi ilə bu hakimiyyəti istefaya məcbur etməkdir. Hesab edirəm ki, bu gün bütün ermənilərin Ermənistan hakimiyyətinin etdiyi bu tarixi ədalətsizliklərə (?) qarşı səsini ucaltmaqdan və “Artsaxın təslim edilməsi” prosesindən imtina etmək tələbindən başqa prioriteti yoxdur”.

Hayların sabiq baş diplomatının fikrincə, Ermənistan Azərbaycanla hər hansı sənəd imzalamaqdan yayınmaq şansına malikdir: “Bunun hamı üçün çox aydın başa düşülən və əsaslı səbəbləri var. Lakin Nikol Paşinyan hər hansı sənədi imzalamaq istəyirsə, Qarabağın gələcək statusu ilə bağlı qeyd-şərtlə imzalamalıdır. Əgər Paşinyan şifahi dediklərini imzalasa, bu, erməni xalqı üçün ən böyük rüsvayçılıq və geridönməz milli faciə olacaq”.

*Ekspert rəyi*



**İlyas HÜSEYNOV, politoloq**

– Kişineu görüşündən sonra Ermənistanda müxalifətin iqtidara qarşı çıxışları artıb. Paşinyanın əleyhinə olan qüvvələr bir sıra detalları əldə rəhbər tuturlar. Əgər anklavların qaytarılması məsələsi olacaqsa, bu Ermənistanda ağrılarla müşahidə olunacaq, iqtidara qarşı böyük hərəkətlilik yaranacaq. Bundan Ermənistanda hakimiyyəti devirmək istəyən qüvvələr yararlanmağa çalışacaqlar. Paşinyanı təslimçi, satqın, xain adlandıracaqlar. Vətən müharibəsinin yekunlarını təsdiqləyən üçtərəfli Bəyanatdan sonra da biz bu fikirləri görürdük. Ancaq ardınca Paşinyanın seçkidə qalib gəlməsi, müəyyən mənada, bir sıra suallara aydınlıq gətirdi. İndi də prosesləri kənardan idarə edən qüvvələr var. Aydındır ki, Paşinyan həm diasporla, həm də kilsə ilə nəyisə bölüşə bilmir. Onlar, sanki, ayrı planetdə yaşayır, regiondakı yeni reallıqları qəbul etmirlər. Ancaq Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması Ermənsitan tərəfindən ərazi bütövlüyümüzün tanınması ilə nəticələndi. Bu tanınma delimitasiya prosesinə, anklavlara və Qarabağdakı ermənilərin reinteqrasiya prosesinə təsir göstərəcək. Sadaladığım məsələlər həll edilsə, sülh müqaviləsi daha tez imzalanar və etibarlı olar.

***

“Tarixçilər gələcəkdə bu baharı uğursuzluq baharı, rüsvayçılıq baharı, “Artsax”dan imtina baharı” adlandıra bilərlər, lakin mən inanıram ki, gələcək tarixçilərin böyük əksəriyyəti bu baharı pislərin baharı və ya pislərin son baharı adlandıracaq”. Bunu isə iyunun 2-də keçirdiyi mətbuat konfransında Respublikaçılar Partiyasının icraçı orqanının üzvü, 2011-2019-cu illərdə Ermənistan parlamenti sədrinin müavini olmuş Edvard Şarmazanov bildirib.

Şarmazanovun daha sonra dedikləri Hayastandakı mövcud ictimai-siyasi vəziyyətin üzə çıxarılması baxımından maraq doğurur: “Ermənistandakı hakim rejimin – xuntanın başçısı Nikol Paşinyan bu yaz həyasızcasına və açıq şəkildə bəyan etdi ki, “Artsax” Azərbaycandır və nöqtə. Paşinyan bu yaz əlinə çəkic götürərək üçüncü Ermənistan Respublikasının tabutuna son mismarı vurdu. O, Qarabağı Azərbaycanın bir hissəsi elan edib, digər tərəfdən isə “soyqırımının” beynəlxalq səviyyədə tanınmasından imtina edib”. Şarmazanovun sözlərinə görə, Ermənistan cəmiyyətinin vəzifəsi “mənəvi, siyasi və intellektual elitanı” bir araya toplamaq və dövlət əleyhinə fəaliyyətə qətiyyətlə “yox” deməkdən ibarət olmalıdır: “Nikol uğur qazanmağa müvəffəq olsa, bu o deməkdir ki, 30 yaşlı Ermənistan sıfır dəyərə malikdir”.

O vurğulayıb ki, Ermənistanın hazırkı hakimiyyətinin təqdim etdiyi gündəlik sülh deyil, təslimçilik gündəliyidir: “Ermənistan kapitulyant və onun yığnağı ilə təmsil olunduğundan, təəssüf ki, bu kapitulyasiya xarici siyasətin əsas oyunçuları tərəfindən də müsbət qarşılanır”.

***

Ermənistan parlamentindəki müxalifətçi “Şərəfim var” fraksiyası isə dünən “Kadastr sənədinin köməyi ilə vətən, yoxsa “soyqırımı” mövzusunda dinləmə keçirib. Dinləmələrdə çıxış edən fraksiyanın katibi, deputat Tiqran Abramyan bildirib ki, son beş ildə cəmiyyətin diqqəti İrəvanda Ermənistan və Qarabağda ərazi, insan itkisinə, ləyaqət və nüfuzunun əldən getməsinə gətirib çıxaran qüvvənin hakimiyyətdə qalması üzərində cəmləşməlidir. O qeyd edib ki, bu, Ermənistan və Qarabağı hərraca çıxarmaq təşəbbüsüdür və təkcə Qarabağın yox, həm də Ermənistanın itirilməsinə gətirib çıxaracaq.

Bundan əlavə, İsveç və Almaniyanın erməni icmaları (Almaniya Erməniləri Mərkəzi Şurası və İsveç Erməni Assosiasiyaları İttifaqı) N.Paşinyanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağa hazır olmasını pisləyib, separatçı rejimin bəyanatını dəstəkləyib.

“California Courier” qəzetinin naşiri və redaktoru Harut Sasunyan isə fikirlərini yazdığı məqalədə çatdırıb: “2020-ci il müharibəsindən sonra baş nazir Nikol Paşinyan dəfələrlə Qarabağın Azərbaycanın bir hissəsi olduğuna eyham vurub. Bu, illərdir onun mövqeyidir. O, bir jurnalist kimi hakimiyyətə gəlməmişdən xeyli əvvəl hesab edirdi ki, “Artsax” Ermənistan üçün yükdür. 2022-ci ilin aprelində Paşinyan parlamentdə deyib ki, beynəlxalq ictimaiyyət Ermənistanı “Artsax”ın statusu ilə bağlı “planka”nı aşağı salmağa çağırıb. Bu ilin əvvəlində Paşinyanın partiyasının deputatlarından biri belə bir məğlubiyyət tonu ilə çıxış etdi: biz üç milyon ermənini “Artsax”ın 120 min sakini üçün riskə ata bilmərik. Nəhayət, 2023-cü ilin mayın 22-də İrəvanda 4,5 saatlıq mətbuat konfransı zamanı Paşinyan açıq şəkildə təsdiqlədi ki, onun Azərbaycan kimi tanıdığı əraziyə Qarabağ da daxildir. Bu həmin şəxsdir ki, 2019-cu ilin avqustun 5-də Xankəndidə (H.Sasunyan hay xislətinə uyğun olaraq “Stepanakert” yazır-S.H) “Artsax” vətəndaşlarının qarşısına çıxıb qışqırıb: “Artsax Ermənistandır və nöqtə”. Vəziyyəti daha da ağırlaşdıran Paşinyanın anklavların (Ermənistanın daxilində yerləşən keçmişdə azərbaycanlıların yaşadığı kəndlər) elan etdiyi 29,8 min kvadratkilometr əraziyə daxil olmadığını etiraf etməsidir. Paşinyan kimi təcrübəsiz, səriştəsiz və məğlub bir şəxs ölkəyə rəhbər olanda və istefa verməkdən imtina edəndə belə olur”.

Məqalədə daha sonra deyilir: “Paşinyan bilməlidir ki, Azərbaycanla hansısa kağızı imzalasa, Qarabağı buraxıb Azərbaycanla sülh bağlasa, erməni xalqı onun qanunsuz qərarlarını etibarsız hesab edəcək. Ermənistanda yeni milli hökumət hakimiyyətə gələn kimi, ilk gündən Paşinyanın bütün məğlubiyyət və anti-erməni qərarlarını ləğv edəcək və yenidən nəzərdən keçirəcək. Bu, təkcə mənim fikrim deyil. Ötən həftə Ermənistanda, Qarabağda və diasporda bir sıra iri erməni strukturları Paşinyanın “Artsax”ı təslim etməsini pisləyən bəyanatlar veriblər. Siyahıya bütün ermənilərin katolikosu II Qaregin, Böyük Kilikiya Evinin katolikosu I Aram, Amerika Erməni Yevangelist Cəmiyyəti, Erməni İnqilabi Federasiyası-Daşnaksütyun, Erməni Demokratik-Liberal Partiyası, Erməni Ümumi Xeyriyyə Birliyi daxildir. Ermənistan xalqı Paşinyana qarşı vahid cəbhə yaratmalı, onun İrəvandakı iqamətgahı qarşısına yüz min və daha çox erməni toplaşıb dərhal istefasını tələb etməlidir. Əgər belə birləşmiş və kütləvi güc nümayişi təşkil olunmasa, Paşinyan həm Qarabağı, həm də Ermənistanı məhv edənə qədər hakimiyyətdə qalacaq”.

Ancaq bütün bu etirazlara baxmayaraq, erməni cəmiyyəti radikal-revanşist kəsimin çağırışına cavab vermir. Görünən odur ki, sadə ermənilər də nəyahət, regionda sülhün bərqərar olmasını istəyir, Qarabağ məsələsinin onları inkişafdan saxlayan faktor olduğunu başa düşürlər. Bu baxımdan, İrəvanda revanşistlərin, yaxud Xankəndidə separatçıların nə deməsi elə bir əhəmiyyət daşımır. Paşinyan özü isə dünən “Facebook” səhifəsində yazıb: “Ermənistan Respublikasının baş naziri kimi mən bir nəticə əldə etmək istəyirəm. İstəyirəm ki, gələcək nəsillərimizə Ermənistan Respublikasının “kadastrı”nın tamamlanmış və tam “şəhadətnaməsi” qalsın”. Paşinyanın bu qənaəti “Dəmir yumruq”un nəticəsidir. “Dəmir yumruq” isə yerindədir. Onun zərbəsini revanşistlərin, daşnakların və separatçılar yenidən hiss etməsi zaman məsələsidir.

**Səxavət HƏMİD,**
**“Xalq qəzeti”**

# İqtisadiyyat naziri Gürcüstanda



**Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov iyunun 2-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə görüşüb.**

Gürcüstan hökumət administrasiyasında keçirilən görüşdə Gürcüstan ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın müsbət dinamikası və ölkələrimiz arasında mövcud strateji tərəfdaşlığın əsas istiqamətləri nəzərdən keçirilib. Siyasi dialoqun daha da gücləndirilməsinin vacibliyi qeyd edilib.

Söhbət zamanı Gürcüstan ilə Azərbaycanın dünya və regional əhəmiyyətli müxtəlif iqtisadi, enerji və nəqliyyat layihələrini uğurla həyata keçirdiyi bildirilib, iki ölkə arasında mövcud potensialdan tam istifadə etmək məqsədilə gələcəkdə daha sıx əməkdaşlığın vacibliyi vurğulanıb.

Hər iki ölkənin investisiya potensialı diqqət mərkəzində olub. Qeyd edilib ki, Gürcüstan hökumətinin prioritet istiqamətlərindən biri ölkənin tranzit funksiyasını gücləndirmək və regional logistika qovşağının formalaşdırılmasıdır.

Söhbət zamanı Bakı–Tbilisi–Qars yeni birləşdirici dəmir yolu xəttinin tikinti işlərinin sürətləndirilməsinin vacibliyi qeyd olunub.

Görüşdə Baş nazir İrakli Qaribaşvili Azərbaycan nümayəndə heyətini bu ilin payızında Tbilisidə keçiriləcək “İpək Yolu Forumu”na dəvət edib.

Görüşdə Baş nazirin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Azərbaycan Tbilisidəki səfiri Faiq Quliyev və Gürcüstanın Bakıdakı səfiri Zurab Pataradze iştirak ediblər.

***

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Gürcüstana səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili ilə görüşüb.

Görüşdə iqtisadiyyat naziri Mikayıl Cabbarov Gürcüstanla əlaqələrin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb, iqtisadi-ticarət əməkdaşlığının inkişafı, birbaşa investisiyaların cəlb edilməsi sahəsində tərəfdaşlıq məsələlərinə dair fikirlərini bildirib.

Levan Davitaşvili tərəfdaşlığın şaxələndirilməsi barədə fikirlərini bölüşüb, birgə layihələrin önəmini, Gürcüstan şirkətlərinin ölkəmizdə həyata keçirilən investisiya layihələrində iştirak etməkdə maraqlı olduqlarını qeyd edib.

***

Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Tbilisidə keçirilən Azərbaycan-Gürcüstan biznes forumu çərçivəsində Azərbaycanın və Gürcüstanın iki dövlət qurumu arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

Birinci sənəd Azərbaycanın İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və Gürcüstanın Ədliyyə Nazirliyinin Dövlət Reyestri üzrə Milli Agentliyi arasında imzalanıb. Sənədə əsasən dövlət idarələri daşınmaz əmlakın qeydiyyatı və kadastr fəaliyyəti sahələrində əməkdaşlıq edəcəklər.

Digər memorandum Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Gürcüstanın Biznes Assosiasiyası arasında imzalanıb.

# Tbilisidə Heydər Əliyevin 100 illiyinə həsr olunmuş biznes forum

**Tbilisidə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş Gürcüstan–Azərbaycan biznes forumu keçirilib.**





Tədbirdə dövlət rəsmiləri ilə yanaşı, hər iki ölkədən sənaye, tikinti, logistika, kənd təsərrüfatı, maliyyə, turizm, əczaçılıq, İKT və digər sahələrdə fəaliyyət göstərən şirkət nümayəndələri iştirak ediblər.

Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili çıxışında ölkələrimiz arasında iqtisadi-ticarət münasibətlərinin inkişaf etdiyini, bununla belə əməkdaşlığın genişləndirilməsi üçün potensialın böyük olduğunu bildirib.

O, hər iki ölkənin iştirakı ilə həyata keçirilən layihələrin bölgədə sülh və sabitliyə xidmət etdiyini vurğulayıb. Biznes forumun əhəmiyyətindən danışan nazir Levan Davitaşvili tədbirin yeni təşəbbüs və istiqamətlərinin müəyyənləşdirilməsi üçün əlverişli platforma olduğunu qeyd edib, müzakirələrin biznes əlaqələrinin genişləndirilməsi üçün faydalı olacağını vurğulayıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan ilə Gürcüstan arasında iqtisadi və siyasi əlaqələrin inkişafında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərini və mühüm rolunu vurğulayıb. Ulu öndərin uzaqgörən siyasəti və rəhbərliyi sayəsində iki ölkə arasında təməli qoyulan strateji tərəfdaşlığın bu gün də inkişaf etdiyini diqqətə çatdırıb.

Nazir Azərbaycanın dost Gürcüstanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu, əlaqələrin davamlı genişləndiyini qeyd edib.

Tədbirdə Azərbaycan və Gürcüstanın yüksək tranzit potensialından daha yaxşı istifadə etmək məqsədilə beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı üzrə əməkdaşlığın daha da möhkəmləndirilməsi imkanları vurğulanıb. Bu xüsusda, Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizinin əhəmiyyəti diqqətə çatdırılıb.

İqtisadiyyat naziri sənaye, ticarət, investisiya, alternativ və bərpaolunan enerji, turizm və s. sahələrdə tərəfdaşlığın gücləndirilməsi imkanlarını, hər iki tərəfin müvafiq qurumlarının bu yöndə fəaliyyətinin önəmini vurğulayıb.

Biznes forumda Azərbaycanın əlverişli biznes və investisiya mühiti, azad edilmiş ərazilərimizdə investorlar üçün yaradılan imkanlar, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Ələt Azad İqtisadi Zonasının tranzit potensialı barədə məlumat verilib, Gürcüstandan olan iş adamları fəal əməkdaşlığa dəvət edilib.

AZPROMO-nun rəhbəri Yusif Abdullayev Agentliyin fəaliyyəti, ölkəmizdə yaradılan investisiya mühitinin xarici sərmayədarlar üçün yaratdığı imkanlar haqqında məlumat verib.

Forum çərçivəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə Gürcüstanın Ədliyyə Nazirliyi yanında Dövlət Qeydiyyatı üzrə Milli Agentliyi arasında daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı və kadastr fəaliyyəti sahəsində əməkdaşlığa dair, eləcə də KOBİA və Gürcüstanın Biznes Assosiasiyası arasında əməkdaşlıq haqqında anlaşma memorandumları imzalanıb. Tədbir çərçivəsində hər iki ölkənin investisiya potensialına dair təqdimatlar, sahibkarlar arasında B2B görüşlər keçirilib.

**“Xalq qəzeti”**

# Azərbaycanın qlobal enerji təhlükəsizliyinə töhfəsi artır

(əvvəli 1-ci səhifədə)

Altı il bundan əvvəl – 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması mərasimi keçirildi. Saziş Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, “Chevron”, “Inpex”, “Statoil”, “ExxonMobil”, “TP”, “Itochu” və “ONGC Videsh” şirkətlərinin rəsmiləri tərəfindən imzalandı. Sənədə əsasən, BP layihənin operatoru olaraq qaldı. Saziş Milli Məclis tərəfindən həmin ilin oktyabrın 31-də ratifikasiya olundu.

Beləliklə, həmin tarix ölkəmizin həyatına çox əlamətdar bir gün kimi yazıldı, “Azəri-Çıraq-Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövr başlandı.

Sazişin bir hissəsi olaraq SOCAR-ın “Azəri-Çıraq-Günəşli” yatağındakı iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı və beynəlxalq tərəfdaş şirkətlərin Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəkləri qərara alındı. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsinin isə 75 faiz təşkil edəcəyi nəzərdə tutuldu. Bununla da ölkəmizin ümumi mənfəət göstəricisi 89,1 faiz hesablandı ki, bu da gələcəkdə yeni strateji layihələrə başlamağa zəmin yaratmaq demək idi.

Bu məqamda Azəri–Çıraq–Günəşli (AÇG) və Şahdəniz yataqları üzrə gəlirlərə də nəzər salmaq istərdik. ARDNF-dən verilən məlumata görə, 2022-ci il üzrə AÇG yatağı üzrə əldə olunan ümumi gəlirlər 9 milyard 889 milyon ABŞ dolları təşkil edib. Hesabat dövründə “Şahdəniz” yatağından (qaz və kondensat) isə gəlirlərin həcmi 1milyard 443 milyon ABŞ dolları olub. O cümlədən, “Şahdəniz” yatağı üzrə kondensatın satışından əldə olunan gəlirlər ötən ilin ilk 6 ayında 328,567 milyon ABŞ dolları təşkil edib.



Bakı Enerji Həftəsi çərçivəsində keçirilən enerji forumunun panel iclasında BP şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel Azərbaycanın AÇG yataqlar blokunun çox unikal neft-qaz mənbəyi olduğunu bildirib. Q.Birrel burada zəngin qaz ehtiyatlarının mövcudluğunu və bu potensialın reallaşdırılması istiqamətində tədbirlər həyata keçirildiyini vurğulayıb. Xatırladaq ki, adıçəkilən yataqlar blokunun hasilatda olan laylarının altında yerləşən dərin qatlardakı qaz ehtiyatlarının qiymətləndirilməsi prosesinə başlanılıb.

Bakı Enerji Forumunda çıxış edən BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qari Counz isə cari il “Şahdəniz” yatağından hasilatın ən yüksək sabit səviyyəyə çatdırılmasının planlaşdırıldığını, bu mərhələdə yatağın ildə təxminən 26 milyard kubmetr qaz hasil edəcəyini, bununla da regional və Avropa bazarları üçün enerji təchizatının təhlükəsizliyinə və diversifikasiyasına əlavə töhfə veriləcəyini deyib.

O bildirib ki, hazırda “Şahdəniz” yatağından gündəlik 73 milyon kubmetr qaz hasil olunur və hasilatın tədricən artırılması davam etdirilir. “Şahdəniz” layihəsi demək olar ki, 100 faizə çatan fenomenal əməliyyat səmərəliliyinə malikdir. Eyni zamanda, BP yeni qaz mənbələri axtarır. Bu ilin əvvəllərindən başlayaraq “Şahdəniz”də istismarda olan məhsuldar layların altında daha çox qaz tapmaq üçün yeni kəşfiyyat quyusunun qazılması da həyata keçirilir və burada işin yaxın vaxtlarda yekunlaşdırılacağı nəzərdə tutulur.

Bakı Enerji Forumunda respublikamızdakı neft və qaz hasilatında karbonsuzlaşdırmanın və emissiyaların azaldılmasının yollarının axtarılması məsələsinə də toxunulub. Məsələn, BP tərəfindən Azərbaycanın yataqlarında məşəlin müntəzəm yanmasını aradan qaldırmaq istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsinə başlanılıb və emissiyaları 50 faiz azaltmaq üçün obyektlərdə metan detektorlarının quraşdırılması diqqət mərkəzində saxlanılıb. Onu da qeyd edək ki, uzaq məsafədən idarə ediləcəyi və onun əksər sistemləri və proseslərinin avtomatlaşdırılacağı nəzərdə tutulan “Azəri-Mərkəzi-Şərqi” (ACE) platformasının daha az karbonlu olması da nəzərdə tutulub.

Bütün bunlarla bərabər, BP tərəfindən “Şahdəniz” yatağında “Şahdəniz Alfa” platformasındakı dizel generatorlarının “Şahdəniz Bravo”nun qazla işləyən daha az emissiyalı generatorlarında hasil olunan enerji ilə əvəzlənməsi üçün də tədbirlər həyata keçirilir. Bu, “Şahdəniz Alfa”dan karbon tullantılarının azaldılmasını və platformanın istismar səmərəliliyinin artırılmasını şərtləndirir.

**Vaqif BAYRAMOV,**
**“Xalq qəzeti”**

## Ekspert rəyi

**Eldəniz ƏMİROV,**
**enerji məsələləri üzrə ekspert**



Azərbaycan neft ehtiyatlarına görə, dünyada 20-ci yerdə qərarlaşır. Qaz ehtiyatlarına görə isə belə deyil, ABŞ, İran, Rusiya, Qətər kimi ölkələrlə müqayisədə çox geridir. Buna görə də respublikamızın Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyinin təmin edilməsində oynadığı rol 4-5 faiz həcmində qiymətləndirilir. Amma buna baxmayaraq, Azərbaycan tərəfindən Aİ ölkələrinin çox vacib nöqtələri qazla təmin olunur. Məsələn, Qərbi Avropa ölkələri okean üzərindən ABŞ-ın mayeləşdirilmiş təbii qazı (LNG) və Norveç “mavi yanacağ”ı ilə təchiz edilir. Şərqi Avropa ölkələrində isə məhz Azərbaycan qazına daha çox ehtiyac duyulur. Cənub Qaz Dəhlizi bu təchizatı gerçəkləşdirməyə imkan verir.

Bu dəhlizin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) isə Yunanıstan və Türkiyə sərhədindən başladığına görə, Yunanıstanın şimal qonşuları Ruminiya, Macarıstan, Slovakiya daxili qaz şəbəkələri vasitəsilə Azərbaycan qazını nəql edə bilir. Bu şəbəkələri paralel olaraq yeniləmək və genişləndirmək imkanları da Azərbaycan qazının interkonnektorlar vasitəsilə həmin ölkələrə nəqlini reallaşdırılır.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində son illərdəki addımları ABŞ tərəfindən yüksək dəyərləndirilir. Belə ki, Rusiya–Ukrayna müharibəsinin başlamasından sonra Avropa ölkələri kəskin enerji böhranı yaşayır.

Belə bir şəraitdə nəinki 10-a yaxın Avropa ölkəsindən Azərbaycan qazının tədarükü ilə bağlı müraciət daxil olub, hətta ölkə başçımızın bu istiqamətdə fəaliyyəti ABŞ Prezidenti Cozef Bayden tərəfindən də müsbət qarşılanıb. Çünki ABŞ-ın bir növ təkidi ilə Avropanın bir çox ölkəsi sanksiyalara qoşularaq Rusiyanın enerji resurslarından imtina edib.

Həmin ölkələr ABŞ-ın başladığı kampaniyadan kənarda qala bilməməklə bərabər enerjisiz də qala bilməz. Belə vəziyyətdə Azərbaycan bu ölkələrin köməyinə çatıb. Respublikamızın xüsusilə də Şərqi Avropa ölkələrinin enerji təchizatında yardımçı mövqe sərgiləməsi bu dövlətlərin ABŞ-a qarşı neqativ baxışlarının azalmasını şərtləndirib. Buna görə ABŞ prezidenti son üç məktubunun hər birində məhz enerji təhlükəsizliyi sahəsində Azərbaycanın oynadığı rola görə Prezident İlham Əliyevə təşəkkür edib.

Azərbaycan, həm də alternativ enerji strategiyasını tətbiq etməyə başlayıb. Bununla bağlı Gürcüstan, Rumıniya və Macarıstanla Buxarestdə “yaşıl enerji” sahəsində strateji tərəfdaşlığa dair Saziş imzalanıb. Nəticədə Azərbaycanda alternativ enerji mənbələri hesabına istehsal olunacaq elektrik enerjisinin Qara dənizin dibi ilə Avropaya ixracı nəzərdə tutulub.

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən hazırlanan “İxrac icmalı”nın may sayına əsasən, cari ilin yanvar-aprel ayları ərzində Azərbaycanın ümumi ixracı 12,6 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac 1,2 milyard ABŞ dolları təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac keçən ilin müvafiq dövrü ilə müqayisədə 21,2 faiz artıb. Bu ilin yanvar-aprel ayları ərzində yeyinti məhsulları üzrə ixrac 236,2 milyon ABŞ dollarına bərabər olub. “İxrac icmalı”nın məlumatına əsasən, 2023-cü ilin yanvar-aprel ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 9,1 faiz artaraq 248,2 milyon ABŞ dolları təşkil edib. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 53,8 faiz artaraq 74,7 milyon ABŞ dolları təşkil edib.**

# 4 ayda ümumi ixrac 12,6 milyard dollara çatıb

Bu ilin yanvar-aprel ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (313,7 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pomidor (tomat) (54,2 milyon ABŞ dolları) ikinci, meşə fındığı (47,2 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb. Cari ilin yanvar-aprel ayları ərzində Türkiyəyə 405,4 milyon ABŞ dolları, Rusiya Federasiyasına 285,2 milyon ABŞ dolları, Gürcüstana 142,6 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 49,2 milyon ABŞ dolları, Qazaxıstana isə 34,5 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Bu dövrdə qeyri-neft ixracı 275 milyon ABŞ dolları təşkil edib. 2023-cü ilin aprel ayı ərzində yeyinti məhsulları üzrə ixrac 66,3 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 208,7 milyon ABŞ dollarına bərabər olub.

Hesabat dövründə qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (84,5 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (65,5 milyon ABŞ dolları) ikinci və Gürcüstan (33,4 milyon ABŞ dolları) üçüncü olub. Aprel ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında elektrik enerjisi (32,6 milyon ABŞ dolları) birinci, pomidor (tomat) (23 milyon ABŞ dolları) ikinci və qızıl (18,9 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşıb.




“İxrac icmalı”nda göstərilib ki, 2023-cü ilin may ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilmiş qeyri-neft ixracının dəyəri 9,7 milyon ABŞ dolları olub.

Bu ilin yanvar-aprel aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi (“Azərkosmos”) tərəfindən dünyanın 42 ölkəsinə 6,2 milyon ABŞ dolları dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edilib. “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 77 faizini təşkil edib. Cari ilin aprel ayında isə “Azərkosmos” dünyanın 41 ölkəsinə 1,6 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

***“Xalq qəzeti”***

# Qaz yataqlarımızın ehtiyatları yenidən öyrənilir

**Azərbaycanın qaz ehtiyatları yenidən qiymətləndiriləcək. Bu məqsədlə hazırda “Ümid”, “Babək”, “Abşeron”, “Naxçıvan”, “Şəfəq–Asiman” kimi yataqların potensialının bir daha nəzərdən keçirilməsi planlaşdırılır.**



Bunu cümə günü Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə Enerji Həftəsi çərçivəsində keçirilən 28-ci Bakı Enerji Forumu zamanı bildirib. O deyib ki, adıçəkilən yataqların potensialının nəzərdən keçirilməsi və yenidən texniki qiymətləndirmə aparılması nəzərdə tutulur. Bununla bağlı SOCAR-ın Fransanın “TotalEnergies” şirkəti ilə əməkdaşlıq edəcəyini vurğulayan X.Yusifzadə bu məqsədlə may ayının əvvəlində müvafiq memorandum imzalandığını xatırladıb.

***“Xalq qəzeti”***

# Qərbdən Şərqə əsas yollar ölkəmizdən keçir



**Dünən Baki Konqres Mərkəzində 1-ci Xəzər Beynəlxalq Nəqliyyat və Logistika Forumu öz işinə başlayıb. İlk dəfə təşkil olunmuş forum 31 may-2 iyun tarixlərində ölkəmizdə baş tutan 20-ci yubiley Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit va Logistika “Translogistica Caspian” sərgisi çərçivəsində keçirilib.**

Əlverişli coğrafi məkanda yerləşən Azərbaycanın nəqliyyat-logistika sahəsində əhəmiyyətli rolu “Translogistica Caspian” sərgisi çərçivəsində 1-ci Xəzər Beynəlxalq Nəqliyyat və Logistika Forumunun təşkili zərurətini yaradıb. Forumda Azərbaycanın dövlət qurumları, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Beynəlxalq Ekspeditorlar Assosiasiyaları Federasiyası, Beynəlxalq Logistika və Nəqliyyat İnstitutu, Dəmir Yolları Əməkdaşlıq Təşkilatı kimi qlobal təşkilatlar, müxtəlif ölkələrin nəqliyyat ekspedisiya assosiasiyaları, xarici və yerli nəqliyyat sektorunun peşəkarları iştirak ediblər.

Yeri gəlmişkən, ekspertlər 1-ci Xəzər Beynəlxalq Nəqliyyat və Logistika Forumunu nəqliyyat sektorunun həm yerli, həm də beynəlxalq oyunçular arasında məlumat və təcrübə mübadiləsinin aparılması, işgüzar ünsiyyət, netvorking və etibarlı biznes münasibətlərinin qurulması, eləcə də mövcud biznes əlaqələrinin daha da genişləndirilməsinə imkan yaratmaq baxımından əhəmiyyətli hesab edirlər. Bununla yanaşı sözügedən tədbir maraqlı tərəflər üçün yeni tərəfdaşlar qazanmaq və səmərəli əməkdaşlıqlar formalaşdırmaq üçün önəmli platformadır.

Tədbirdə Azərbaycanın beynəlxalq logistika marşrutlarını birləşdirərək nəqliyyat qovşağına çevrilməsi, tranzit perspektivləri, logistika məsrəflərinin optimallaşdırılması, müasir logistikada yeni texnologiyalar və avtomatlaşdırılma, logistika sektorunda insan kapitali, peşə təhsili və təlimi kimi mövzular ətrafında geniş müzakirələr aparılıb.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov çıxış edərək 1-ci Xəzər Beynəlxalq Nəqliyyat və Logistika Forumunun əhəmiyyətindən söhbət açıb. Son illər Azərbaycanda həyata keçirilən nəqliyyat-logistika layihələrindən bəhs edən nazir müavini hazırda mühüm geosiyasi əhəmiyyət daşıyan Zəngəzur dəhlizinin Cənubi Qafqazda sülhün bərqərar olması ilə yanaşı, təchizat zəncirinin təhlükəsizliyi üçün də böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O deyib ki, Zəngəzur dəhlizi üzərindən Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan MR arasında reallaşdırılacaq regional kommunikasiya layihələri, işğaldan azad edilmiş ərazilərin mövcud potensialından tam istifadə edilməsi davamlı və dayanıqlı inkişaf, Azərbaycanın Cənubi Qafqazda sülh və əməkdaşlıq erasını təşviq etməsi üçün geniş imkanlar yaradır.

Qeyd olunub ki, hazırda işğaldan azad edilmiş ərazilərdə dağılmış nəqliyyat infrastrukturunun yenidən qurulması, yeni avtomobil yollarının, dəmir yollarının inşası istiqamətində mühüm işlər görülür. Həmin ərazilər üzrə hazırlanmış Regional Nəqliyyat Baş Planının icrası istiqamətində ötən müddətdə mühüm işlərin həyata keçirildiyini vurğulayan S. Məmmədov 2024-cü ilin sonuna qədər yekunlaşdırılması nəzərdə tutulan Horadiz-Ağbənd dəmir yolunun mühüm əhəmiyyət daşıdığını bildirib.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədr müavini Natiq Şirinov çıxışında Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismarından sonra Çindən Avropaya, o cümlədən əks istiqamətdə daşınan yüklərin çatdırılma müddətinin dəniz daşımalarına nisbətən üç dəfəyədək qısaldığını və bunun nəticəsində son illərdə bu marşrut üzrə ticarət həcminin xeyli artdığını diqqətə çatdırıb. Ötən ilin avqustun 18-də “Azərbaycan Respublikası Hökuməti, Gürcüstan Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit gömrük prosedurlarının asanlaşdırılması üçün ilkin məlumat mübadiləsinə dair Saziş”in imzalandığını xatırladan sədr müavini deyib ki, Orta Dəhliz üzərindən daşımaların artan dinamikası marşrut üzərində yerləşən ölkələrdə tranzit prosedurlarının sadələşdirilməsini və vahid yanaşma əsasında icra mexanizmlərinin yaradılmasını zəruri edir. Bu səbəbdən Orta Dəhliz marşrutu üzərində yerləşən ölkələrin gömrük orqanlarını rəqəmsal həllərə əsaslanmaqla vahid informasiya məkanında birləşdirən tranzit portalının yaradılması nəzərdə tutulur.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin birinci müavini Natiq Həsənov isə deyib ki, son 20 ildə Azərbaycanda nəqliyyat sektoruna böyük investisiyalar yatırılıb. Qeyd olunub ki, hazırda ölkəmizdə 70 mindən çox kiçik və orta biznes subyekti nəqliyyat, anbar təsərrüfatı, logistika sektorunda fəaliyyət göstərir ki, bu da ildə 1 milyard manatdan çox əlavə dəyər yaradır. Bunun qənaətbəxş olmadığını vurğulayan N. Həsənov KOB subyektləri üçün kifayət qədər geniş imkanların mövcudluğunu, onların nəqliyyat layihələrində daha fəal iştirakına ehtiyac duyulduğunu bildirib.

TRACECA–Avropa–Qafqaz–Asiya Beynəlxalq Nəqliyyat Dəhlizinin baş katibi Asset Assavbayev bildirib ki, hazırda qlobal yük daşıyıcıları xeyli sayda sənəd almalı olurlar. Baş katib deyib ki, qaydaların sadələşdirilməsi, gömrük prosedurlarının, peşəkar sürücülər üçün vizasız keçidin və digər xidmətlərin rəqəmsallaşması üzərində ciddi iş aparılır.

Forumda, həmçinin Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov, Azərbaycan Dəmir Yolları QSC sədrinin müavini Emil Məmmədov, Dəmir Yolları Əməkdaşlıq Təşkilatının sədri Miroslav Antonoviç, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin sədr müavini Tariyel Mirzəyev, “Silk Way West Airlines”in kommersiya üzrə vitse-prezident Vüqar Məmmədov, “JSC Sinara Transport Machines” şirkətinin marketinq üzrə baş direktorun müavini Mixail Boyko və başqaları “Loqistika infrastrukturu və KOB-lar üçün yeni imkanlar” və “Tranzit Perspektivləri və beynəlxalq gömrük standartlarına uyğunluq” adlı sessiyalarda çıxış edərək 1-ci Xəzər Beynəlxalq Nəqliyyat və Logistika Forumunu əməkdaşlıq üçün mühüm platforma kimi dəyərləndirib, təklif və mülahizələrini bölüşüblər.

**Mirbağır YAQUBZADƏ,**
**“Xalq qəzeti”**

Milli Məclisdə

# Parlament müzakirələri – yeniliklər

**Bu barədə Milli Məclisin sədri Sahibə Qafarova məlumat verib. O qeyd edib ki, parlamentin yaz sessiyası sona çatsa da, Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq, 83 deputat növbədənkənar sessiyanın çağırılması üçün Milli Məclisin sədrinə müraciət edib. Bununla bağlı S.Qafarova sərəncam imzalayıb və iyun ayında parlamentin növbədənkənar sessiyası olacaq.**



### Dərmanlar ucuzlaşacaq

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov "Dərman vasitələri haqqında" Qanuna edilən dəyişiklik barədə məlumat verərkən dedi ki, bu sənəd dərmanların qiymətinin optimallaşdırılmasına imkan verəcək: "Ölkəmizə dərman idxalı edən təşkilatların dərman preparatlarının sənədləşdirilməsi, qeydiyyatdan keçirilməsi və lisenziyalaşdırılmasının asanlaşdırılmasına və sadələşdirilməsinə xidmət edən bu dəyişiklik bir müddət sonra həm qiymətə, həm də keyfiyyətə müsbət təsir göstərəcək. Bu gün dövlətin siyasəti də ölkədə dərmanların keyfiyyətinin nəzarətdə saxlanılması ilə yanaşı, həm də qiymətlərin optimallaşdırılmasıdır. Bu, Prezident tərəfindən həyata keçirilən dövlət səhiyyə siyasətinin tərkib hissəsidir".

### "Yaşı tamam olan gün yola salırlar"

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlamentdə çıxışı zamanı deyib : "Bir neçə il bundan qabaq Əmək Məcəlləsinə edilən dəyişikliyə görə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işləyənlərin son yaş həddi 65 müəyyən edilib. Yalnız cüzi istisnalarla ildə bir dəfə uzadılmaqla işçi 70 yaşa çatanadək işləyə bilər. Son zamanlar xüsusilə təhsil, səhiyyə və mədəniyyət müəssisələrində yaş məhdudiyyətinin tətbiqi kəskin və kütləvi xarakter alıb. Bu insanlarla uzun illər peşəsinin mütəxəssisi, guya, heç bir bilik və bacarığa malik olmayan kimi davranaraq, onları elə doğum günündəcə işdən azad edirlər. Təşkilatda olan alternativ vakant iş yerləri də onlara təklif olunmur. Bu isə təhsil, səhiyyə və mədəniyyət işçiləri arasında ciddi narazılıq və sosial gərginlik yaradır. Bizə edilən müraciətlərin sayı və xarakteri müvafiq yumşalmanın vacibliyini diktə edir.

M.Quliyev təklif edib ki, Əmək Məcəlləsində dəyişiklik olunsun və dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışmanın son həddi 65 -dən 70 yaşa qaldırılsın: "Yaş həddi insanın çalışma imkanına əngəl olmamalıdır. Əgər bilik və bacarığı , sağlamlığı imkan verirsə, müvafiq sertifikasiya və attestasiyadan keçibsə, formal yaş məhdudiyyətinə görə insanları əmək fəaliyyətindən kənarda qoymaq doğru deyildir. Bu vətəndaşın konstitusiya ilə təmin olunan əmək hüququnun pozulmasıdır".

### İki yeni sosial müavinət növü təsis edilir

Parlamentdə "Sosial müavinətlər haqqında" Qanuna edilən dəyişikliklər mahiyyət etibarı ilə himayədar ailə institutunun yaradılması ilə əlaqədar Ailə Məcəlləsinə edilən dəyişikliklərə uyğunlaşma xarakteri daşıyır.

Edilən düzəlişlərə əsasən, himayədar ailəyə verilmiş uşaqların tərbiyəsi və onlara mövsümi geyimlərin alınması məqsədi ilə 2 yeni sosial müavinət növü təsis edilir. Onlardan biri uşağın tərbiyəsi ilə bağlı xidmətlərin qarşılanması üçün nəzərdə tutulmuş aylıq , digəri isə mövsümi geyimlərin alınması üçün birdəfəlik müavinətlərdir. Digər dəyişikliklərdə həmin müavinətlərin verilməsi qaydaları, şərtləri, müddətləri və dayandırılması ilə bağlı hüquqi əsaslar ehtiva olunur.

**Hazırladı:**
**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**

# 2023-cü ilin dövlət büdcəsinə dəyişikliklər müzakirə olundu

**İyunun 2-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Əmək və sosial siyasət komitələrinin birgə iclası keçirilib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gündəliyə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında", "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" və "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinin daxil edildiyini bildirdi.**



Komitə sədri diqqətə çatdırdı ki, "Büdcə sistemi haqqında" Qanunda dövlət büdcəsinin gəlirləri və xərcləri arasında tarazlığın təmin olunması, onun tərtibinin və icrasının, həmçinin gəlir və xərclərin məbləğinin dəyişdirilməsi dövlət büdcəsinə yenidən baxılmasının mühüm şərti kimi göstərilib və burada dövlət büdcəsinə yenidən baxılma halları müəyyən edilib. O bildirib ki, büdcəyə ediləcək düzəlişlərlə bağlı parlamentə daxil olan sənədlərdə 2023-cü il ərzində ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsinin, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasının, dövlət borcunun idarə edilməsi üzrə yeni yanaşmanın tətbiqinin və digər zəruri tədbirlərin dövlət büdcəsi qarşısında əlavə maliyyə tələbatını formalaşdırdığı, həmin tələbatın dövlət büdcəsinin neft-qaz və qeyri-neft, qaz sektoru üzrə əlavə gəlirləri, mövcud ehtiyatları və kəsirin genişləndirilməsi hesabına maliyyələşdirilməsi üçün dövlət büdcəsinə yenidən baxılması ehtiyacının yarandığı qeyd olunub. Bununla yanaşı, yenidən baxılan dövlət büdcəsinin əsas parametrləri, o cümlədən xərc və gəlirlərində dəyişikliklərin edilməsi ilə bağlı qrafik göstəricilər də öz əksini tapıb.

Sonra maliyyə naziri Samir Şərifov 2023-cü il dövlət büdcəsinə təklif olunan dəyişikliklər barədə ətraflı məlumat vedri. O, bildirdi ki, Prezident İlham Əliyev tərəfindən cari ilin dövlət büdcəsinə yenidən baxılması ilə bağlı əlavə maliyyə təminatının yaradılması, bununla əlaqədar olaraq ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, Böyük Qayıdışa dair Dövlət Proqramının icrası, dövlət borcunun idarə edilməsi üzrə yeni yanaşmanın tətbiqi və digər zəruri xərclərə bağlı dövlət büdcəsi qarşısında yeni vəzifələr qoyulub. 2023-cü ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı qanun layihəsi cari ildə əlavə xərclərin qarşılanması üçün maliyyə təminatının yaradılması, cari və orta müddətli makro-iqtisadi və fiskal dayanıqlığa xələl gətirilməməsi, Dövlət Neft Fondunun aktivlərinin münbit qiymət konyunkturası şəraitində artımının davam etdirilməsi ilə bağlı hədəflər gözlənilməklə tərtib olunub.

Sənədə əsasən, işğaldan azad olunmuş ərazilərdə, ölkə sərhədlərinin toxunulmazlığının təmin edilməsi və mühafizəsi, ordunun hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində əlavə tədbir və layihələrin icrası üçün zəruri maliyyə təminatının yaradılması xüsusi əhəmiyyət daşıyır. Bunlar nəzərə alınaraq, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi üçün əlavə 1105,0 milyon manat vəsait tələb olunur. Cari il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 3000,0 milyon manat vəsait nəzərdə tutulub. Böyük Qayıdışa dair I Dövlət Proqramı ilə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün 2260,0 milyon manat əlavə vəsaitin cəlb edilməsinə zərurət yaradıb.

Yenidən baxılmış 2023-cü ilin dövlət büdcəsinin əsas parametrləri ilə bağlı məlumata əsasən, dövlət büdcəsinin gəlirləri təsdiq olunmuş 30774,0 milyon manata qarşı 3005,0 milyon manat və ya 9,8 faiz artırılaraq 33779,5 milyon manat təşkil edəcək. Dövlət büdcəsinin təsdiq olunmuş 33353,3 milyon manat məbləğində xərcləri 3215,5 milyon manat və ya 9,6 faiz artırılaraq 36568,8 milyon manata çatdırılacaq. Dövlət büdcəsinin kəsiri təsdiq olunmuş 2579,3 milyon manata qarşı 210,0 milyon manat və ya 8,1 faiz artırılaraq 2789,3 milyon manat olacaq. Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin kəsiri 210,0 milyon manat artırılaraq 2789,3 milyon manat məbləğinə çatdırılır. Kəsirin cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 2,5 faiz həcmində olacaq.

Sonra Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev dürüstləşdirilmiş büdcədə Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun gəlir və xərclərinin istiqaməti barədə məlumat verdi.

Sonra Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun dürüstlədirilmiş büdcələri barədə fikirlərini açıqladı. O, ölkə Prezidentinin sosial sahədə islahatların həyata keçirilməsi ilə bağlı sərəncamlarının qüvvəyə mindiyini, bu islahatlar çərçivəsində icra olunan proqramların əksəriyyətinin 2023-cü ilin büdcəsində nəzərdə tutulduğunu söylədi. DSMF-in büdcəsində dürüstləşmənin 4 milyon manat nəzərdə tutulduğunu deyən nazir, qeyd etdi ki, burada əsasən, müsbət demoqrafik dəyişikliklə bağlı uyğunlaşdırma aparılır.

İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov makro-iqtisadi göstəricilərlə bağlı bir sıra məqamlara toxundu və Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunda nəzərdə tutulan dəyişikliklərlə əlaqədar palatanın rəyini təqdim etdi.

Təqdim edilən məsələlər ətrafında aparılan müzakirələrdə çıxış edən deputatlar 2023-cü ilin dövlət büdcəsinə təklif olunan dəyişikliklərlə bağlı öz fikir və qeydlərini səsləndirdilər.

Maliyyə naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov, İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov, Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini İsmayıl Hüseynov deputatların qaldırdığı bir sıra məsələlərə aydınlıq gətiriblər.

Müzakirələrin sonunda gündəlikdəki qanun layihələrinin hamısı baxılmaq üçün Milli Məclisin iclasına tövsiyə olundu.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**

# Azərbaycan– ABŞ hərbi əməkdaşlığı müzakirə edilib



**İyunun 2-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənovla Amerika Birləşmiş Ştatlarının müdafiə katibinin siyasi məsələlər üzrə müavini Kolin Kahlın təşəbbüsü ilə telefon danışığı olub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, tərəflər ölkələrimiz arasında əlaqələr, regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı, həmçinin ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.

**"Xalq qəzeti"**



# Vaşinqtonda rəsmi qəbul

**Vaşinqtonda Azərbaycanın Müstəqillik Günü və Silahlı Qüvvələri Gününün 105-ci ildönümünə həsr edilmiş rəsmi qəbul və ziyafət təşkil olunub.**

Tədbirə 30-a yaxın ölkənin səfirləri, çoxsaylı hərbi attaşelər, yəhudi təşkilatlarının və müxtəlif tədqiqat mərkəzlərinin rəhbərləri və nümayəndələri, o cümlədən ABŞ-da yaşayan Azərbaycan icmasının üzvləri daxil olmaqla 600-dən çox qonaq qatılıb.

Səfir Xəzər İbrahim ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin qurucusu kimi ölkəmizin hazırkı qlobal səciyyəli vəziyyətinə gəlib çıxmasında müstəsna rolunu xüsusi vurğuladı.

Hər iki Qarabağ müharibəsinin iştirakçısı olan Azərbaycanın ABŞ-dakı hərbi attaşesi Rüstəm Gözəlov Müzəffər Ali Baş Komandanın xüsusi diqqəti və səyləri nəticəsində ordumuzun bugünkü müasir və güclü vəziyyətinə gəldiyini xüsusi vurğulayıb.

Çıxışlardan sonra ABŞ-ın Vaşinqton şəhərinin meri Muriel Bauzer tərəfindən 28 May – Azərbaycanın Müstəqillik Günü münasibətilə imzalanmış bəyannamə oxunub.

Bədii hissədə ABŞ-da yaşayan həmvətənimiz Məryəm Nəcəfzadə "Sarı gəlin" və "Koroğlu" operasından musiqi əsasında milli rəqslərimizi ifa edib.

**"Xalq qəzeti"**

# Londonda təntənəli ziyafət



**Azərbaycan Respublikasının Müstəqillik Günü və Silahlı Qüvvələr Günü münasibətilə iyunun 1-də Londonun ən tanınmış və möhtəşəm məkanlarından olan tarixi "Lancaster House"da təntənəli ziyafət keçirilib.**

Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin tolerantlıq və multikulturalizm kimi prinsiplərinin bu gün Azərbaycan Respublikası tərəfindən dünyada təmsil olunduğunu qeyd edib.

Səfir, həmçinin çıxışında regionun gələcək inkişafı və davamlı sülhün təmin olunması istiqamətində Prezident İlham Əliyevin qətiyyətli addımlar atdığını vurğulayaraq, Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində görülən işlərdən söz açıb.

Britaniya Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya Departamentinin rəhbəri səfir Kristofer Allan Azərbaycanın Britaniya üçün önəmli müttəfiq olduğunu qeyd edərək, iki ölkə arasında iqtisadi, ticari və investisiya sahələrində əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb. O, iki ölkə arasında siyasi sahədə əməkdaşlığın daha da inkişaf etdiyini, dövlət rəsmilərinin qarşılıqlı səfərlərinin buna böyük töhfə verdiyini qeyd edib.

Tədbir çərçivəsində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan sərgi də təşkil edilib.

Qeyd edək ki, tədbirin keçirildiyi "Lancaster House"da Böyük Britaniya hökumətinin rəsmi tədbirləri təşkil olunur.

**"Xalq qəzeti"**

# "Elektron məhkəmə" sistemi həyatımıza daxil olur




**Dünən Şəmkir Rayon Məhkəməsində "Elektron məhkəmə" informasiya sisteminin ölkə üzrə tam tətbiqinin yekun mərasimi keçirilib.**

Ədliyyə naziri Fikrət Məmmədov bildirib ki, tədbirin 100 illiyini qeyd etdiyimiz ümummilli liderin xalqın tələbi ilə hakimiyyətə qayıdışının və Milli Qurtuluş Gününün 30-cu ildönümünə təsadüf etməsi onu ikiqat əlamətdar edir.

Nazir ulu öndərin yolu ilə gedən müasir Azərbaycan dövlətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli tərəqqisini, ölkəmizin nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən, Dünya Bankının Doing Business hesabatlarında yüksək reytinqlərə nail olduğunu qeyd edib, müasir çağırışlara uyğun aparılan məhkəmə-hüquq islahatlarından, bu sahədə Dünya Bankı ilə səmərəli əməkdaşlıqdan danışıb.

Bildirib ki, dövlət başçısının rəhbərliyi ilə aparılan islahatların mütərəqqiliyi nüfuzlu beynəlxalq qurumların, o cümlədən, Dünya Bankının diqqətini cəlb edib. Bununla əlaqədar Dünya Bankı dəstək göstərmək təşəbbüsü irəli sürərək, 2006-cı ildən ədliyyə sahəsində birgə uğurlu layihələr həyata keçirilib və mühüm nailiyyətlər əldə olunub.

Bu gün tətbiq olunan "Elektron məhkəmə" sistemi vasitəsilə məhkəməyə müraciət edilməsindən qərarın icrasına qədər bütün proses əhatə olunur. İddianın verilməsi, onun qeydiyyatı, rüsumların ödənilməsi, işlərin hakimlər arasında bölüşdürülməsi, tərəflərin dəvət edilməsi, elektron kabinetlərin yaradılması və onun vasitəsilə proses barədə məlumatların və məhkəmə sənədlərinin əldə edilməsi, habelə şikayətlərin verilməsi və s. məsələlər elektron sistem vasitəsilə həyata keçirilir.

Şəffaflığın təmini məqsədilə proseslərin audio-video yazısının aparılması, onların videokonfrans vasitəsilə keçirilməsi imkanının yaradılması, bəzi kateqoriya işlərin, o cümlədən artıq 4 ildir ki, kommersiya işlərinin yalnız elektron qaydada aparılması təmin edilib. E-məhkəmə sistemi ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə müxtəlif məhkəmə monitorinqlərinin keçirilməsinə, məhkəmə statistikasının elektron qaydada və dolğun aparılmasına şərait yaradıb. Həmçinin vətəndaş məmnunluğunun və sistemin imkanlarından geniş istifadənin təmin edilməsi məqsədilə onun mobil versiyası yaradılıb.

Nazir hazıradək Bakı, Sumqayıt, Şəki və Naxçıvan Muxtar Respublikası apellyasiya məhkəmələrinin yurisdiksiyasına aid məhkəmələrdə e-məhkəmənin tətbiqini qeyd edərək, bu gündən digər – Gəncə və Şirvan apellyasiya məhkəmələrinin yurisdiksiyasına daxil olan bütün məhkəmələrin qoşulması ilə "Elektron məhkəmə" informasiya sisteminin ölkəni tam əhatə edildiyini vurğulayıb, bu münasibətlə iştirakçıları, hakim korpusunu təbrik edib.

Dünya Bankının departament müdiri D.Boyce çıxış edərək "Elektron məhkəmə" sisteminin ölkə üzrə tam tətbiqi münasibətilə Azərbaycanı təbrik edərək mürəkkəb bir prosesin uğurla həyata keçirilməsini böyük və tarixi nailiyyət kimi dəyərləndirib. Bildirib ki, bəzi dövlətlərdə ədliyyə sisteminin müasirləşdirilməsi prioritet olmadığı halda, Azərbaycanda bu sahədə çox böyük işlər görülüb.

**"Xalq qəzeti"**

# Zəngilanda Ekoloji İşçi Qrupun iclası

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupunun növbəti iclası Zəngilan rayonunun Ağalı kəndində keçirilib.**

İclasda İşçi Qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Şuşa şəhəri Dövlət Qoruq İdarəsinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları iştirak edib.



İşçi Qrupunun rəhbəri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov nazirlik tərəfindən Zəngilan və Qubadlı rayonları ərazisində həyata keçirilən ekoloji tədbirlər, o cümlədən meşəbərpa və yeni yaşıllıq sahələrinin salınması tədbirləri, xüsusi mühafizə olunan təbiət əraziləri, eləcə də Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı həyata keçirilmiş tədbirlər, Qoruq ərazisində aparılmış çöl-tədqiqat işləri, flora və fauna növlərinin öyrənilməsi barədə məlumat verib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev öz təbiəti və əlverişli coğrafi mövqeyi ilə seçilən Zəngilan rayonunun həm də iqtisadi cəhətdən, o cümlədən, mədən sənayesi, kənd təsərrüfatı, logistika, alternativ enerji, turizm sahələrinin inkişafı üçün geniş imkanlara malik bir ərazi olduğunu qeyd edib. Həmçinin həyata keçirilən infrastruktur layihələrinin, yenidən salınacaq şəhər, qəsəbə və kəndlərin konseptual əsasını "rahat yaşayış", "yaşıl və təmiz", "mütərəqqi innovasiyalar" kimi yanaşmaların təşkil etdiyi və ekoloji məsələlərə xüsusi diqqət yetirildiyi qeyd olundu.

İclasda Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində, o cümlədən Oxçuçay üzərində (Sayıflı, Sarıqışlaq, Zəngilan və Cahangirbəyli) Kiçik Su Elektrik Stansiyalarının tikintisi ilə bağlı ekoloji tarazlığın qorunması, ətraf mühitin mühafizəsi məsələləri müzakirə olunub.

Zəngilan, Qubadlı və Cəbrayıl rayonlarının ərazisində yayılmış faydalı qazıntı yataqları barədə, eləcə də işğaldan azad edilmiş ərazilərin yenidənqurma və bərpası ilə bağlı tikinti layihələrinin həyata keçirilməsi üçün bu ərazilərdə yerləşən ümumi yayılmış faydalı qazıntı yataqlarından istifadə qaydaları barədə iştirakçılara məlumat verilib.

**"Xalq qəzeti"**

# İranda Azərbaycan vətəndaşına cinayət işi açılıb



**İranda həbs olunan Azərbaycan vətəndaşı Fərid Səfərli ilə görüşün keçirilməsi üçün tədbirlər görülür.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib.

A.Hacızadə qeyd edib ki, Fərid Səfərli barədə məlumat Azərbaycan Xarici İşlər Nazirliyinə daxil olan gündən, yəni, martın 9-dan etibarən vətəndaşın aqibətinin müəyyən edilməsi və İranın məsələyə aydınlıq gətirməsi məqsədilə müvafiq olaraq İranın Azərbaycandakı səfirliyinə nota ünvanlanıb. Çoxsaylı müraciətlərdən sonra İran tərəfi notamıza cavab olaraq, Fərid Səfərlinin həbs olunaraq ona qarşı cinayət işi başladıldığını bildirib. Bu barədə Fərid Səfərlinin ailəsinə müvafiq məlumat verilib.

XİN sözçüsü vurğulayıb ki, məlum terror hadisəsi ilə bağlı Azərbaycanın İrandakı diplomatik təmsilçiliyinin məhdud olmasına baxmayaraq, Fərid Səfərli barədə məlumat verildiyi ilk gündən etibarən həm Xarici İşlər Nazirliyi, həm də Təbrizdəki Baş konsulluğumuz tərəfindən İranın aidiyyəti qurumları ilə müzakirələr aparılır. Bununla yanaşı, Fərid Səfərlinin ailəsi və özü ilə mütəmadi əlaqə saxlanılır. Yaxın zamanlarda Təbrizdəki Baş konsulluğumuzun Fərid Səfərli ilə görüş keçirməsi üçün tədbirlər görülür.

**"Xalq qəzeti"**

# Bakı Zooparkında uşaq şənliyi

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı Zooloji Parkında 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı tədbir keçirilib. Zooloji Park və Bakı Abadlıq Xidmətinin əməkdaşlığı ilə təşkil olunan "Gələcək uşaqlara məxsusdur" adlı şənlikdə "Dayaq" Vətən Müharibəsi Əlillərinə və Şəhid ailələrinə Dəstək Təşkilatı, "Ümid işığında" Əlil Uşaqlara Yardım İctimai Birliyi, SOS (Save Our Ship) Uşaq kəndləri təşkilatından ümumilikdə 300 uşaq iştirak edib.**





Musiqi sədaları ilə müşayiət olunan və gün boyu davam edən tədbir qonaqlarda xoş əhval-ruhiyyə yaradaraq, unudulmaz günlərindən birinə çevrilib. Zooloji Parkın müxtəlif məntəqələrində qurulan pavilyonlarda ziyarətçilər oyunlara və yarışlara qatılaraq hədiyyələr qazanıblar. Bununla yanaşı, balacalar açıq havada üz boyama, köpük şouda iştirak ediblər. Cizgi film personajlarının iştirakı şənliyi daha da rəngləndirib, qonaqların diqqətini müxtəlif viktorina və maraqlı oyunlara cəlb edib. Ziyarətçilər öz maraq dairələrinə uyğun seçim edərək, keramika, təbii parçalardan oyuncaqların hazırlanması, rəsm çəkmək, ekoçantaların zoomorf ornamentləri ilə bəzədilməsi, quş yemlərinin hazırlanması kimi müxtəlif ustad dərslərinə qatılıblar. Eyni zamanda, uşaqların maariflənməsi üçün onlara Zooloji Parkın lektoriyasında heyvanların həyat tərzini özündə əks etdirən cizgi filmləri, onların biologiyası haqqında təqdimatlar nümayiş edilib. Daha sonra, açıq havada heyvanların xarici quruluşları ilə bağlı geniş məlumat əldə edən kiçik ziyarətçilərə heyvanlarla yaxından təmasda olmaq, qulluq etmək və onlara qayğı göstərmək şansı verilib, həmçinin IDEA Heyvanlara Qayğı Mərkəzinin təşkilatçılığı ilə himayə guşəsi təşkil olunub.

**"Xalq qəzeti"**

# Naxçıvan "Yaşıl enerji" zonasına çevrilir

## *Şərur rayonunda yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib*



**Naxçıvanda bərpa olunan enerji mənbələrinin şəbəkəsinin genişləndirilməsi istiqamətində daha bir layihə uğurla gerçəkləşdirilib. Şərur rayonu ərazisində yeni Günəş Elektrik Stansiyası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli "Yaşıl enerji" mənbəyinin işə salınması mərasimində iştirak edib.**

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev məlumat verib ki, Şərur Günəş Elektrik Stansiyasının layihə gücünün daha 3 meqavat artırılaraq 11 meqavata çatdırılması üçün 10 may 2022-ci il tarixdə İsveçrənin "Pure Energy Development" SARL şirkəti ilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti arasında müqavilə imzalanıb.

Kənd təsərrüfatına yararsız 5,3 hektar ərazidə şirkətin Naxçıvanda yerləşən "Duzqala" MMC podratçı şirkəti tikinti-quraşdırma işlərini həyata keçirib, stansiyada hər birinin gücü 330 Vatt olan 9108 "PERC" tipli müasir "şüşə-şüşə" formalı günəş panelləri, hər birinin gücü 50 kilovatt olan 60 invertor, müasir tip kommutasiya aparatları və digər elektrik avadanlıqları ilə təmin olunmuş 3 ədəd 35/0,4 kilovoltluq 1250 kilovatt gücündə transformator yarımstansiyası quraşdırılıb.

Stansiyanın layihə gücü 11 meqavata çatdırıldığı üçün il ərzində 16,5 milyon kilovatt-saat elektrik enerjisi istehsal ediləcək ki, bu da Şərur rayonunun elektrik enerjisinə olan tələbatının 21 faizini təşkil edəcək. Bununla da Naxçıvan Muxtar Respublikasında günəş elektrik stansiyalarının gücü 39 meqavata, illik istehsal gücü isə 58,5 milyon kilovatt-saata çatdırılacaq.

Stansiya ilə tanışlıqdan sonra Dövlət Energetika Xidmətinin əməkdaşları ilə görüşən səlahiyyətli nümayəndə deyib ki, Naxçıvanda Azərbaycanın digər bölgələri ilə müqayisədə günəş radiasiyasının faizi olduqca yüksəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvanı, ümumilikdə, "yaşıl enerji" dəhlizinə çevirməyi qarşısına məqsəd qoyduğunu bildirib, bunu üzərimizə strateji vəzifə kimi qoyub.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" dəhlizinə çevrilməsi istiqamətində işlər bundan sonra da uğurla aparılacaq. Azərbaycanın karbohidrogen yataqları dünyaya açılıb. Bu işlərdə Naxçıvanın xüsusi payı var. Muxtar Respublikada günəş, külək, hidro enerjiləri ilə bağlı layihələri sürətlə inkişaf etdirəcək. 400 meqavatlıq və daha sonra 500 meqavatlıq 2 enerji santralının qurulmasından söhbət gedir. Biz birdən-birə 400 meqavatlıq böyük bir layihənin icraçısına və sahibinə çevriləcəyik.

Fuad Nəcəfli görülən işlərlə bağlı xidmətin əməkdaşlarını təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

İsveçrənin "Pure Energy Development" SARL şirkətinin icracı direktoru Mişel Kalerami deyib: "Naxçıvan alternativ enerji üzrə regionda lider hesab olunur. Yeni stansiyaların tikintisi ilə birlikdə növbəti addım Naxçıvanda "Yaşıl enerji"nin toplanması olacaq. Azərbaycan hökumətinin dəstəyi sayəsində əminəm ki, Naxçıvan qısa zamanda "Yaşıl enerji" zonasına çevriləcək".

**Səbuhi HƏSƏNOV,
"Xalq qəzeti"nin bölgə müxbiri**

# Güney Azərbaycanın da müstəqil olmaq hüququ tarixdən gəlir

**Arazın hər iki tayında – Həmədandan Dərbəbdə, Xəzərdən Qara dənizə qədər olan ərazilərdə tarixin son 3 minilliyində türkdilli toplumların aparıcı etnos olaraq davamlı mövcudluğu bu coğrafiyada Azərbaycan adlı bir məmləkətin yaranması və bu günə gəlb çatması ilə nəticələnmişdir. Bu bütöv ölkənin XIX əsrin əvvəllərində Qacarlar və Rusiya imperiyaları arasında Araz çayı sərhəd olmaqla 2 yerə parçalanması tarixdə ədalətsiz bir gerçək olaraq qalmaqdadır.**



Quzey Azərbaycanda 1918-ci ildə itirilmiş dövlətçiliyin dirçəldilməsi və 1991-ci ildə yenidən bərpa edilməsi "Dünya azərbaycanlıları" anlayışını və "Bütöv Azərbaycan" coğrafiyası düşüncəsini bizim günlər üçün aktuallaşdırmışdır. Quzeydə Azərbaycanın müstəqillik qazanması dünya birliyində xalqımızın qanuni haqqı kimi qəbul edilmişdir. Bütöv Azərbaycanın daha böyük hissəsi olan Güneyin İran adlı dövlətin tərkibində qalmasını tarixçilər necə qiymətləndirirlər?

**Bu sualı AMEA Tarix İnstitutunun doktoru, professor Kərim Şükürov bir cümlə ilə belə cavablandırdı: "Güney Azərbaycanın İranın tərkibində olmasının tarixi-hüquqi əsası yoxdur". Görkəmli tarixçi alim qəzetimizə bu açıqlamasınının davamında bildirdi:**

–Tarixin daha qədim çağlarına getmədən Səfəvilər dövlətindən (1501-1736) başlamaq olar. Səfəvilər dövlətinin Azərbaycan dövləti olması, İran tarixşünaslığının əks iddiasına baxmayaraq, təsdiq olunmuş faktdır. Azərbaycan torpaqları Səfəvi dövlətinin əsasını təşkil etmiş, onun formalaşması və inkişafında əsas amil olmuşdur. Səfəvilər dövləti əfqanların hücumu ilə əlaqədar böhran keçirdiyi dövrdə isə qüdrətli Azərbaycan sərkərdəsi Nadir xan (1736-cı ildən Nadir şah) onun ərazisini bərpa etmiş, Əfşarlar imperiyasını yaratmışdır. Nadir şah Şirvan, Qarabağ, Təbriz və Çuxursəəd bəylərbəyliklərini ləğv etmiş və onların əsasında Azərbaycan vilayəti yaratmış, yəni, Azərbaycanın cənub və şimalını eyni inzibati vahiddə birləşdirmişdir. Qardaşı İbrahim xanı da bu vilayətin hakimi təyin etmişdir.

Nadir şahın qətlindən sonra Azərbaycanda xanlıqlar yaranmışdır. Onlar tarixi-coğrafi və etnik baxımdan vahid Azərbaycanın ərazisini təşkil etmiş, yalnız coğrafi yerləşməsinə görə, şərti olaraq Şimali və Cənubi Azərbaycan xanlıqları kimi ifadə olunmuşdur. Azərbaycan xanlıqları, xüsusilə daha güclü xanlıqlar müstəqil siyasi xətt yeritmişdir. Bu beynəlxalq müqavilələr ilə də tanınmışdır. Xanlıqlar dövrünün əsas məzmununu mərkəzləşdirmə uğrunda mübarizə təşkil etmişdir. Bu iki istiqamətdə getmişdir. Urmiya, Quba və Qarabağ xanlıqları Azərbaycan torpaqlarını mərkəzləşdirməyə çalışmışdır. Qubalı Fətəli xan (1758-1789) Azərbaycanın şimal-şərq torpaqlarını birləşdirməyə nail olmuşdur.

Kərim xanın ölümündən sonra Ağa Məhəmməd xan Qacar Azərbaycan torpaqlarının birləşdirilməsi siyasətini davam etdirmiş, 1795-ci ildə Azərbaycanın şimalındakı torpaqlar uğrunda da mübarizə başlanmışdır. Şuşa alındıqdan sonra 1797-ci ildə Şah Qacar burada öldürülmüşdür. Cənubi Qafqazda Rusiya imperiyasının mövqeyi güclənməyə başlamışdır.

Yeni Qacar hökmdarı Fətəli şah (1797–1834) Ağa Məhəmməd şahın Azərbaycan siyasətini davam etdirməyə çalışmış, lakin Rusiyanın Şimali Azərbaycanı işğal etməsi – Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə bu siyasət baş tutmamışdır. Buna görə də əsas diqqət Azərbaycanın güney torpaqlarına yönəlmişdir. Qacarlar Güney ərazisini Azərbaycan əyaləti adlandırmışlar.

**Güney Azərbaycanın Qacarlar dövrü tarixinin sonrakı mərhələsində Azərbaycan əyalətinin mövqeyinin tədricən sıxışdırılmasının 1905–1911-ci illər İran inqilabı ilə nəticələndiyini söyləyən alim bildirdi:**

–Bu dövrdə məhz Güney Azərbaycan inqilabın mərkəzi olmuş və muxtariyyət məsələsi meydana gəlmişdir. Azərbaycanlılar nəinki öz ölkəsində, o cümlədən bütün İranda azadlıq hərəkatının avanqardına çevrilmişlər. Bir neçə il sonra Rusiya imperiyasının devrilməsindən sonra Azərbaycanın quzeyində müstəqil Azərbaycan Cümhuriyyətinin (1918-1920) yaradılması ilə yeni situasiya meydana gəlmişdir. Akademik Bartoldun fikrincə, Cümhuriyyətin Azərbaycan adlandırılması onun Güney Azərbaycana iddiasını da ortaya qoymuşdur. Beləliklə, Azərbaycanın birləşdirilməsi ideyası da ortaya çıxmış, bu İran tərəfindən ciddi narahatlıqla qarşılanmışdır. 1920-ci ilin martında Cümhuriyyət ilə İran arasında bağlanan müqavilələrdə Şimali Azərbaycan Qafqaz Azərbaycanı kimi qeyd edilmişdir.

Bundan sonra Güney Azərbaycandakı proseslərin siyasi istiqaməti də dərinləşməkdə davam etmişdir. 1920-ci ildə Güney Azərbaycanın İranın tərkib hissəsi olması haqqındakı fikirlər, Azadistan və s. məsələlər üzərində dayanmadan, qeyd etmək lazımdır ki, Xiyabaninin rəhbərliyi ilə cənubda ilk dəfə o tayda Azərbaycan milli hökuməti yaradılmışdır.

**İranda türk şahları hakimiyyətinin fars sülaləsi ilə əvəzlənməsinin Güney Azərbaycanın məqsədyönlü və davamlı assimiliyasiya siyasətinin hədəifinə çevrilməsi ilə nəticələnməsini tarixçi alim belə dəyərləndirdi:**

–1921-ci ildə dövlət çevrilişi nəticəsində Rza Pəhləvi baş nazir olmuş, 1925-ci ildə isə Fars imperatorluğunun yeni, Pəhləvi sülaləsinin (1925–1979) banisi kimi taxt-taca yiyələnmişdir. 1935-ci ildə dövlətin rəsmi adı İran kimi qəbul olunmuşdur. Pəhləvilər dövründə Güney Azərbaycana qarşı şovinist münasibət dövlət siyasətinə çevrilmişdir. Kəsrəviçilik ideologiyası ilə Azərbaycanın cənub və şimalının ayrılmasının saxtakarlıqla "əsaslandırılmasına" cəhd edilmişdir. İran tərkibində Güney Azərbaycanın vahid inzibati ərazi statusunun ləğvi (1938-ci il ərazi islahatı nəticəsində Güney Azərbaycan ərazisi, əsasən, 3 və 4-cü ostanların tərkibinə daxil edilmişdir) əsas məsələlərdən birinə çevrilmiş, azərbaycanlıların hüquqlarının məhdudlaşdırılması genişlənmişdir.

Güney Azərbaycan xalqı bu proseslərə də ciddi müqavimət göstərmiş, II Dünya müharibəsindən sonra, 1945-ci ilin dekabrında Seyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Milli hökuməti təşkil edilmişdir. Azərbaycan Milli hökumətinin süqutu ilə İranda Güney Azərbaycana və azərbaycanlılara qarşı ayrı-seçkilik siyasəti, daha da güclənmişdir.

1979-cu ildə şah rejiminin inqilabi yolla devrilməsindən və İran İslam Respublikasının yaradılmasından sonra Güney Azərbaycanın tarixi-coğrafi ərazisinin parçalanması, əhalinin etnik tərkibinin dəyişdirilməsi, ən adi insan hüquqlarının pozulması məqsədyönlü şəkildə davam etdirilmişdir. 1989-cu il Arazın bu tayında sərhəd hərəkatının baş verməsi və Azərbaycanın dövlət müstəqilliyini elan etməsindən sonra, İranın Azərbaycan siyasəti (həm şimal, həm də cənub üzrə) daha kəskin xarakter almışdır. Azərbaycanın Ermənistan üzərində 44 günlük müharibədəki tarixi qələbəsi ilə anti-azərbaycan siyasətinin mahiyyəti tamamilə aşkara çıxmışdır. İran birmənalı şəkildə mövqeyi tutaraq, Ermənistan ilə eyni blokda birləşmişdir.

**Professor Kərim Şükürov Güney Azərbaycanın müstəqil olmaq hüququnu bu mülahizə ilə tamamladı:**

–Qeyd edilən tarixi faktlardan aydın olur ki, Azərbaycanın cənub torpaqlarının İranın tərkibində olmasının tarixi-hüquqi əsası yoxdur. Bu yalnız Rusiya imperiyası ilə İran arasında bağlanan Gülüstan və Türkmənçay müqavilələri ilə dövlətlərarası sərhədlərin müəyyən edilməsinin nəticəsi kimi meydana gəlmiş, Azərbaycanın cənub və şimalının vahid dövlətdə birləşdirilməsi prosesinin qarşısı alınmışdır.

İranın tərkibində qalan Güney Azərbaycanın ərazi bütövlüyünə də ciddi zərbə vurulmuş, azərbaycanlıların insan hüquq və azadlıqları məhdudlaşdırılmış və onlar diskriminasiyaya məruz qalmışdır. Bu proseslər getdikcə daha kəskin xarakter almaqdadır. Belə bir vəziyyətdə İrandakı azərbaycanlıların öz müqəddəratını təyinetmə hüququnu reallaşdırması tarixi zərurət kimi meydana çıxır.

***Hazırladı:***
***Tahir AYDINOĞLU, "Xalq qəzeti"***

**Güney Azərbaycanın Zəncan şəhərindən olan məhbus yazıçı, hüquq müdafiəçisi Nərgiz Məhəmmədi Amerika Yazıçılar Assosiasiyasının illik "Yazı Azadlığı Mükafatı"na layiq görülüb. Bu barədə "İran İnternational" məlumat yayıb.**

# Məhbus yazıçı qadın "dünya üçün ilham mənbəyi"dir



Hazırda yazıçı qadın İranda həbsxanada təkadamlıq kamerada mənəvi işgəncəyə məruz qalaraq saxlanılır. Buna görə də mükafat Nyu-York şəhərində keçirilən toplantıda məhbusun həyat yoldaşı Təqi Rəhmaniyə təqdim edilib. Tədbir üçün göndərdiyi mesajda Nərgiz Məhəmmədi İranda qadınlara nifrət və alçaldılma siyasətinə son qoymasına çağırıb. O, bu il mayın 17-də edam edilmiş Yusuf Mehrad və Sədrullah Fazeli, habelə həbsdə olarkən müalicə olunması səbəbindən vəfat etmiş şair, kinorejissor Bektaş Abtini də xatırlayıb.

Amerika Yazıçılar Assosiasiyasının baş direktoru Suzan Nossel açıqlamasında Nərgiz Məhəmmədinin İran hakimiyyətinin onu susdurmaq üçün israrlı cəhdlərinə qarşı göstərdiyi cəsarət və müqavimətə görə dünya üçün ilham mənbəyi olduğunu bildirib.

***T.TURAN***




# ARAZ

*Halına acıdım lap əzəl gündən,*
*Bu qədər qınanır bilmirəm nədən,*
*Arazı heç zaman qınamadım mən,*
*Hər iki tərəfə məhrəmdir Araz!*
*Yaralı torpağa məlhəmdir Araz!*

*Sarıyıb yurdumun şırım yarasın,*
*Açmayıb, bağlayıb qardaş arasın,*
*İndi mən qınayım bunun harasın?*
*Hər iki tərəfə məhrəmdir Araz!*
*Yaralı torpağa məlhəmdir Araz!*

*Çəkib acıları, yığıb suyuna,*
*Sakitdir, bələddir hamı huyuna,*
*O da qurban gedib fitnə, oyuna,*
*Hər iki tərəfə məhrəmdir Araz!*
*Yaralı torpağa məlhəmdir Araz!*

*Xudafərin qucaqlayan qoludur,*
*Keçidləri salam deyən əlidir,*
*Bayatılar pöhrələyən dilidir,*
*Hər iki tərəfə məhrəmdir Araz!*
*Yaralı torpağa məlhəmdir Araz!*

*O tayda çifayda deyir Şəhriyar,*
*Bu tayda dardadır indi Bəxtiyar,*
*Yarını gözləyir hər gün Lütfiyar,*
*Hər iki tərəfə məhrəmdir Araz!*
*Yaralı torpağa məlhəmdir Araz!*

***Zaur USTAC***

# Təbriz teatrı – milli varlığımızın silinməz izləri

**Azərbaycan peşəkar milli teatrının 150 illiyinin qeyd olunduğu bir vaxtda Arazın o tayına – ötən əsrin birinci yarısında Təbrizdə fəaliyyət göstərmiş dram teatrının tarixinə də nəzər salmaq lazım gəlir.**

Güney Azərbaycanda teatr tamaşalarının göstərilməsi ötən yüzilliyin əvvəllərinə təsadüf edir. Bu da daha çox Bakı mühitində fəaliyyət göstərən teatr truppalarının Cənubi Azərbaycana qastrolları sayəsində mümkün olub. Bu qastrol səfərlərində teatr truppalarını Sidqi Ruhulla, Mirzağa Əliyev, Cəlil bəy Bağdadbəyov, Abbasmirzə Şərifzadə, Tiflisdən Mirzəli Abbasov, Məmmədtağı Əsgərov, İbrahim İsfahanlı, Mirzəxan Quliyev, Mustafa Mərdanov, Əşrəf Yüzbaşov və başqaları təmsil edib. Onlar müəyyən dəstələrlə ayrı-ayrı vaxtlarda Tehran, Təbriz, Rəşt, Ənzəli, Qəzvin, Xoy, Maku, Urmiya, Culfa, Ərdəbil və digər şəhərlərdə yerli həvəskarları da cəlb etməklə Azərbaycan dilində tamaşalar göstəriblər.

Təbriz teatrının yaranma tarixi də bu dövrə təsadüf edib. Şəhərdə teatr həvəskarlarından Mehdi xan Şəfizadə, Həsən Çörəkçi, doktor Rəhim xan, Ələkbər Bəradərən və Ələkbər xan başda olmaqla on iki nəfər "Xəyanət" (1908) adlı bir tamaşa göstərirlər. 1909-cu ildə böyük teatr sənətçisi Sidqi Ruhulla Təbrizə qastrola gəlir. Yerli ziyalılar və teatr həvəskarları ilə birlikdə bir neçə tamaşa hazırlayır. İlk tamaşa Hüseynqulu Sarabskinin "Cəhalət" əsəri olur. Bu əsər fransız katoliklərinin klubunda göstərilir.

Bundan sonra Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsi nümayiş olunur. Tamaşa "Bağ-meşə qapısı" adlanan məhəllədə yan-yana sıralanan dükanların üstündəki böyük otaqda oynanılır. Bundan əlavə, Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan", Jan Batist Molyerin "Zorən təbib" əsərləri də tamaşaya qoyulur. Bu qastrollar tədricən öz nəticəsini verir. Təbrizdə yerli ziyalılar tərəfindən teatr sənətinə daha böyük maraq yaranır.

1910–1919-cu illər ərzində ayrı-ayrı sənətkarlar tərəfindən İrana təşkil olunan qastrollarda əsasən Mirzə Fətəli Axundzadə, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev və Nəriman Nərimanovun faciə və komediyaları, Sultanməcid Qənizadə, Mirmahmud Kazımovski, Hüseynqulu Sarabskinin kiçik həcmli ibrətamiz məzhəkələri və Üzeyir Hacıbəylinin, Zülfüqar Hacıbəyovun opera və operettaları oynanılır. Bu barədə sənətşünaslıq doktoru, professor İlham Rəhimlinin "Azərbaycan teatr tarixi" kitabında dəyərli məlumatlar yer alıb.

1920-ci ildə Sidqi Ruhulla, M.Şəfizadə, M.R.Vaizzadə və başqalarının təşəbbüsü ilə Təbrizdə ilk teatr binası – "Xeyriyyə teatrı" tikilir. Bu teatrın səhnəsində Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi tamaşaya (1 may 1921-ci il) qoyulur. Eyni zamanda Azərbaycan türklərinin təşəbbüsü ilə Təbriz, Urmiya və Xoy şəhərlərində Ü.Hacıbəylinin məşhur komediyaları səhnələşdirilir.

1928-ci ildə Təbrizdə 700 yerlik daha bir "Şiri Xorşid" teatrı istifadəyə verilir. Lakin onun səhnəsində əsasən yerli müəlliflərin fars dilində bədii cəhətdən zəif əsərləri tamaşaya qoyulur. 1930-cu ildə Bakı və Tiflis teatrlarında rejissorluq və aktyorluq edən Mirseyfəddin Kirmanşahlı İrana gəlir. Üç il ərzində Tehran və Təbrizdə müxtəlif teatr kollektivlərində rejissorluq edir. Təbriz teatrında peşəkarlıq səviyyəsinin formalaşması üçün səy göstərir.



Rza Quluzadə Şərqli və Rza Vaizzadə bu teatrın inkişafında xüsusilə böyük zəhmət çəkirlər. Teatr dəstələrində Rza Şərqlinin "Mirzə Rza Kirmani", "Cinayət", "Börkün bəlası", "Quqquluqu", "Dəlilər yurdu", "Pul, yoxsa xəyanət" ("Xəyanət və vəfa"), Rza Vaizzadənin "Cəhalət qurbanı", "Tükənməz xəzinə", Mirzə Cabbar Əsgərzadənin "Noi bəşər", "Çadramın mühəssənatı", "Müəllimlər həyatı", Abdulla Fərivərin "Bəhram Çubinə", Hilal Nasirinin "Mirzə Tağıxan Əmir Kəbir" pyesləri əsasında maraqlı tamaşalar hazırlanır.

Professor İlham Rəhimli "Azərbaycan teatr tarixi" kitabında yazır ki, 1941-ci ildə Təbrizdə "Azərbaycan cəmiyyəti" qurulur. Eyni zamanda, teatr truppası yaranır. Truppanın tamaşaçılara təqdim etdiyi ilk tamaşa Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" faciəsi olur. İranda ezamiyyətdə olan rejissor Şəmsi Bədəlbəyli truppa ilə sıx yaradıcılıq əlaqəsi saxlayır, bir neçə əsərə quruluş verir.

Azərbaycan Dövlət Opera və Balet Teatrı 1941-ci il oktyabrın əvvəlindən dekabradək Təbrizdə qastrol səfərində olur. Teatrın maraqlı repertuarla çıxışı şəhərin teatr həyatında möhtəşəm canlanma yaradır. Az sonra ziyalıların cəm olduqları "Azərbaycan cəmiyyəti"nin təşəbbüsü ilə Təbrizdə "Azərbaycan aktyorları heyəti" yaradılır. Təbrizdə çıxan "Azərbaycan" qəzeti teatr prosesini canlandırmaq və pərakəndə qüvvələri bir yerə cəmləmək məqsədilə on bir nəfərdən ibarət müdiriyyət heyəti təyin edir. Teatr sənətinə təzə gələn həvəskar aktyorları seçmək üçün isə doqquz nəfərdən ibarət komissiya təşkil edilir...

1940–1946-cı illərdə Tehran şəhərində azərbaycanlı teatr fədailəri "Fərhəng-e sinema", "Honər", "Şiri Xurşid" teatr binalarında tamaşalar göstəriblər. Repertuarda Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", "Xırs quldurbasan", Üzeyir Hacıbəylinin operetta və operaları, Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun kiçik həcmli məzhəkələri əsas yer tutub.

1945-ci il dekabrın 12-də Təbrizdə Azərbaycan Milli Hökumətinin qurulması Təbriz teatrının inkişafında yeni bir dövr açır. Təbriz Dövlət Dram Teatrı yaradılır. Kollektivin əsasını müxtəlif truppaların həvəskar aktyorları təşkil edir. 8 mart 1946-cı ildə teatrın təntənəli açılışı olur, sənət ocağı Cəlil Məmmədquluzadənin "Anamın kitabı" pyesinin tamaşası ilə fəaliyyətə başlayır.

1946-cı ilin dekabrında Cənubi Azərbaycan Milli Hökuməti süqut etdikdən sonra Təbriz Dövlət Dram Teatrı bağlanır. Lakin Güneydəki teatr tariximiz milli varlığımızın silinməz izlərini yaşadır.

***Savalan FƏRƏCOV***

# Dünya siyasətinin Ərdoğan fenomeni

**Türkiyədə keçirilən prezident seçkiləri çağdaş dünya siyasətinin ən xarizmatik siyasətçilərindən olan, görkəmli dövlət xadimi Rəcəb Tayyib Ərdoğanın parlaq qələbəsi ilə başa çatdı. Son seçkilər, eyni zamanda, Türkiyə demokratiyasının zəfəri kimi qəbul olunur. Qalib isə 85 milyonluq Türkiyə xalqıdır!**



Bir çox siyasi təhlilçilər müasir dünya siyasətində R.T.Ərdoğan fenomeninin yarandığının fərqindədirlər. Fakt və reallıq ondan ibarətdir ki, bu görkəmli siyasətçinin qurucusu və lideri olduğu Ədalət və İnkişaf Partiyası son 21 ildə on altı dəfə müxtəlif təyinatlı seçkiləri udub. Sivil, demokratik dünyada çox az siyasətçiyə belə uğur nəsib olur!

Bilkənd (Ankara) Universitetinin professoru Əmrulla Məmmədli bizimlə telefon söhbəti zamanı fəxrlə bildirdi ki, R.T.Ərdoğanın son prezident seçkilərində qələbəsi gözlənilən olduğu qədər də arzuolunan idi. Son iyirmi ildə mövcud hakimiyyətin əldə etdiyi uğurlar göz önündədir. Bunlardan bir neçəsini xatırlatmaq yerinə düşər. Yaxın vaxtlarda tam gücü ilə işləyəcək “Akkuyu” Atom Elektrik Stansiyası, Cənub-Şərqi Anadoluda neft ehtiyatlarının aşkar edilərək istifadəyə hazır vəziyyətə gətirilməsi, hərbi hücum təyyarələrinin istehsalı, zəlzələ bölgəsində genişmiqyaslı tikinti işlərinin aparılması, hazırda müəyyən problemləri olan milli iqtisadiyyatın dirçəldilməsi və regionda liderliyini təsdiqləməsi, Şərqi Aralıq dənizində söz sahibi olması, yüksək sürətli dəmir yollarının istifadəyə verilməsi, “Yeni İstanbul Kanalı” layihəsinin reallaşdırılması və bu qəbildən olan bir çox nəhəng layihələr...

Amma Qərb siyasətçilərini qardaş ölkənin əldə etdiyi nailiyyətlərdən daha çox onun 2023–2028-ci illərdə R.T.Ərdoğanın liderliyi ilə daha böyük zəfərlərə imza atacağı narahat edir. Onlar bilirlər ki, Ərdoğan Türkiyəsini dayandırmaq qeyri-mümkündür!

Türkiyənin Mərkəzi Seçki Komissiyası tərəfindən prezident seçkilərinin yekun nəticələri açıqlanıb. Qeyd olunub ki, “Cümhur İttifaqı"ndan prezidentliyə namizəd, hakim Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğan 52,18 faiz səslə qalib gəlib. “Millət İttifaqı"ndan prezidentliyə namizəd, Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu isə 47,82 faiz səs toplayıb.

Bu arada Türkiyədə müxalifətin seçki blokunun dağılması barədə məlumatlar yayılıb. İYİ Partiyanın baş katibi Uğur Poyrazın sözlərinə görə, “Millət İttifaqı” seçki birliyi idi və mayın 28-dən blokun səlahiyyəti başa çatıb. Xatırladaq ki, “Millət İttifaqı”nda Cümhuriyyət Xalq Partiyası, İYİ Partiya, Səadət Partiyası, Gələcək Partiyası, Demokrat Partiyası və Demokratiya və İnkişaf Partiyası (DEVA) təmsil olunub. Seçkilərdə qələbə qazanan “Cümhur İttifaqı”nda isə Ədalət və İnkişaf Partiyası, Milliyyətçi Hərəkat Partiyası, Böyük Birlik Partiyası, Yenidən Rifah Partiyası, Hür Dava Partiyası və Demokratik Sol Partiyası birləşib.

Türkiyə Böyük Millət Məclisi (TBMM) dünən fəaliyyətə başlayıb. 28-ci çağırış ölkə parlamentinin deputatlarının andiçmə mərasimi MHP lideri Dövlət Baxçalının sədrliyi ilə keçiriləcək. Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 3-də andiçmə mərasimi olacaq.

Andiçmə mərasimində dünyanın bir çox ölkələrinin liderlərinin, eləcə də Rusiya Prezidenti Vladimir Putinin və Ukraynanaın dövlət başçısı Volodimir Zelenskinin iştirakı gözlənilir. CNN-Türkün yaydığı bu xəbər ildırım sürətilə bütün dünyaya yayılıb.

Hazırda Türkiyə Prezidenti seçkilərdəki parlaq qələbəsi münasibətilə çox sayda təbrikləri qəbul edir. Dünən BMT-nin Baş katibi Antonio Quterreş ilə Türkiyə Prezidenti arasında telefon danışığı olub. Baş katib R.T.Ərdoğanı prezident seçkilərində qalib gəlməsi münasibətilə təbrik edib və onunla bir çox regional və qlobal problemlərin həlli istiqamətində birgə çalışmaq şansından məmnunluq bildirib.

Bu arada xəbər yayılıb ki, NATO-nun Baş katibi Yens Stoltenberq İsveçin alyansa üzvlüyü məsələsini Prezident Ərdoğanla müzakirə etmək üçün yaxın zamanlarda Türkiyəyə gələcək. Alyansın rəhbəri bu barədə NATO ölkələrinin xarici işlər nazirlərinin qeyri-rəsmi görüşü ərəfəsində bildirib. Onun sözlərinə görə, səfər zamanı İsveçin tezliklə alyansa üzvlüyü üçün mövcud yollar müzakirə olunacaq.

“Türkiyənin bəzi haqlı təhlükəsizlik narahatlıqlarının olduğunu unutmamalıyıq. Çünki heç bir müttəfiqə Türkiyə qədər terror hücumu olmayıb. Bu səbəbdən terrorun hər növünə qarşı Türkiyə ilə birlikdə çalışmağımız vacibdir. Mən NATO müttəfiqlərinin fəaliyyətini, eləcə də İsveçin ötən ay terrorla mübarizə sahəsində atdığı addımları və Türkiyə ilə əməkdaşlığı sürətləndirmək cəhdlərini alqışlayıram. Əminəm ki, İsveçin üzvlük protokolu tezliklə ratifikasiya olunacaq”, – deyə Yens Stoltenberq vurğulayıb.

Xatırladaq ki, 2022-ci ilin iyul ayında Finlandiya və İsveç NATO-ya üzvlüklə bağlı müraciət edib. Türkiyə alyansın üzvü kimi sənədi ratifikasiya etmək üçün bir neçə şərt irəli sürüb. Bu şərtlər arasında kürd separatçılarının terror təşkilatı kimi tanınması, terrorda ittiham olunan şəxslərin Türkiyəyə ekstradisiyası və Ankaraya silah tədarükünə qoyulan qadağanın aradan qaldırılması yer alıb. Finlandiya 2023-cü il aprelin 4-də NATO-ya üzv olub. İsveçin NATO-ya üzvlüyünə isə Türkiyə tərəfi hələlik razılıq vermir.

Maraqlıdır ki, Türkiyə Prezidentinə ayrı-ayrı regionlarda sülh yaradılması üçün vasitəçilik etməsini xahiş edənlərin sayı artır. Məsələn, ən son faktı diqqətinizə çatdıraq. Bu günlərdə Serbiya Prezidenti Aleksandar Vuçiç ilə Türkiyə Prezidenti arasında telefon danışığı olub. Söhbət zamanı A.Vuçiç Ərdoğanı yenidən prezident seçilməsi münasibətilə təbrik edib.

Telefon danışığında ikitərəfli münasibətlər və regional məsələlər, həmçinin Kosovonun şimalında baş verən son hadisələr barədə fikir mübadiləsi aparılıb. Serbiya Prezidenti regionda sülhün və sabitliyin təmin olunması üçün R.T.Ərdoğandan şəxsi nüfuzundan istifadə etməsini xahiş edib. A.Vuçiç də həmkarını Serbiyaya səfərə dəvət edib.

Türkiyə Prezidenti həmin məsələ ilə bağlı Kosovanın Baş naziri Albin Kurti ilə telefonla danışıb. Türkiyə lideri Kosovanın şimalında baş verənlərlə bağlı bölgədə davamlı sülh və sabitliyin bərqərar olmasının yeganə yolunun dialoq prosesində irəliləmək olduğunu bildirib. Ərdoğan Türkiyə olaraq dialoq prosesinə öz töhfələrini verməyə hazır olduqlarını bildirib.

Bəli, bu gün Türkiyə Prezidenti R.T.Ərdoğan dünyanın ən nüfuzlu liderlərindəndir. Gücünü xalqından, milətindən alan, ən çətin problemlərin həllində yüksək qətiyyəti, prinsipiallığı, ən başlıcası ədalətlililiyi və humanizmi ilə seçilən bu görkəmli siyasətçinin nüfuzu və şöhrəti bütün dünyaya yayılıb. Həqiqətən, məşhur mahnıda deyildiyi kimi, o, susqun dünyanın hürr səsidir!

***Məsaim ABDULLAYEV,***
***“Xalq qəzeti”***

# Ukrayna NATO-dan öz təhlükəsizliyinə zəmanət istəyir

**Ukraynanın təhlükəsizliyi rəsmi Kiyev ilə NATO rəhbərliyi arasdında müzakirə obyektinə çevrilib. Ukrayna rəsmiləri alyansdan və Qərb ölkələrinin liderlərindən bununla bağlı təhlükəsizliyinə zəmanət istəyirlər.**



Məsələ Kişinyovda keçirilən “Avropa siyasi birliyi”nin sammitində müzakirə olunub. Estoniyanın baş naziri Kaja Kallas çıxışında bildirib ki, ukraynalılara ümid vermək lazımdır. “Rusiyaya göstərmək vacibdir ki, biz Ukraynanın tərəfindəyik və Ukraynanın yeri NATO-dur. Aydındır ki, müharibənin davam etdiyi bir vaxtda bu, mümkün deyil. Ancaq ölkənin NATO-ya üzv olacağına dair aydın siqnal vermək vacibdir və biz Ukraynanın tərəfindəyik”.

Fransa Prezidenti Emmanuel Makron isə bir müddət əvvəl Slovakiyanın paytaxtı Bratislavada keçirilmiş beynəlxalq “Globsec” konfransında deyib ki, NATO ölkələri Ukraynanın təhlükəsizliyinə etibarlı təminat verməlidirlər. “2019-cu ilin dekabrında NATO barəsində kəskin danışdım. Blok daxilində Türkiyə ilə bir sıra digər güclər arasında parçalanma var. Mən “beyin ölümü” haqda danışdım. Bu gün qeyd edə bilərəm ki, Putin Ukraynaya qarşı təcavüzkar müharibəsilə NATO-nu oyadıb”, – deyə Fransa Prezidenti bildirib.

Onun sözlərinə görə, Paris Kiyevin hərbi yardım alaraq əldə etdiyi silahlardandan Rusiya ərazisinə hücumlar üçün istifadə edilməsinə qarşıdır, amma öz ərazisini müdafiə etmək cəhdini dəstəkləyir.

Ağ evdən də oxşar açıqlama gəlib. Vurğulanıb ki, ABŞ Kiyevin yardım silahlarından istifadə etməklə, Rusiya ərazisinə hücumlarını dəstəkləmir. Amma yerli silahlarla Rusiya ərazisinə zərbələr endirməsini beynəlxalq hüquq baxımından qanuni hesab edir.

İstənilən halda Ağ ev Ukraynaya hərbi yardımlarını davam etdirir. Yeni yardım paketinə “Avenger” və “Patriot” üçün raketlər daxildir. Bu barədə Pentaqonun saytı xəbər verib. Xəbərdə bildirilir ki, ABŞ Prezidenti Cozef Baydenin administrasiyası Ukraynaya 300 milyon dollarlıq yeni hərbi yardım paketi ayırıb.

Bunların fonunda Ukraynanın NATO-ya üzvlük məsələsi də müzakirə edilir. Norveçin paytaxtı Osloda NATO-nun baş katibi Yens Stoltenberqin sədrliyi ilə NATO xarici işlər nazirlərinin iki günlük qeyri-rəsmi toplantısı keçirilir. Alyansən rəhbəri toplantıdan əvvəl brifinq düzənləyərək deyib: “Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsi beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Ukrayna Rusiya ərazisinə hücum edə bilər. Özünümüdafiə hüququ BMT Nizamnaməsində təsbit olunub”.

Müharibəni Rusiya Prezidenti Vladimir Putinin başlatdığını xatırladan Y.Stoltenberq qeyd edib ki, yalnız o, özü bu müharibəni dayandıra bilər: “Biz Ukraynanı dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik. Nə qədər lazımdırsa, Ukraynanın yanında olacağıq. Həmçinin Ukraynaya dəstək NATO-nu münaqişə tərəfi etmir. NATO-nun iki vəzifəsi var: Ukraynanı dəstəkləmək və Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsinin bu ölkədən kənara çıxmasının qarşısını almaq”.

NATO xarici işlər nazirlərinin toplantısında isə Ukraynanın alyansın bir hissəsi olacağa barədə prinsipial razılaşma əldə olunub. Amma bu, Rusiya ilə müharibə başa çatandan sonra nəzərdə tutulur.

Ukrayna Prezidenti Volodimir Zelenski daha əvvəl demişdi ki, o, müharibə bitməmiş Ukraynanın Şimali Atlantika Müqaviləsi Təşkilatına üzv ola bilməyəcəyini başa düşür. Ukrayna lideri ümid etdiyini bildirmişdi ki, NATO-nun iyul sammitində ölkənin alyansa qoşulmasından əvvəl tərəfdaşlardan təhlükəsizlik zəmanəti alacaq.

Təhlükəsizlik zəmanəti ilə bağlı söhbətlərin getdiyi bir vaxtda Ukrayna növbəti hücuma məruz qalıb. Kiyev Regional Hərbi Administrasiyasının yaydığı məlumata görə, iyunun 2-nə keçən gecə Rusiyanın hava hücumu zamanı Kiyev səmasında 30-dan çox pilotsuz təyyarə və raket vurulub. Zərərsizləşdirilən raket və kamikadze dronlarının qalıqlarının düşməsi nəticəsində Podol rayonunda yanğın baş verib.

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının yaydığı məlumatda bildirilib ki, iyunun 2-nə keçən gecə Rusiya hərbçiləri Ukrayna ərazisinə 15 qanadlı raket, 18 kamikadze dronu atıb.

Ukrayna da öz növbəsində Rusiya ərazisinə hücum gerçəkləşdirib. İyunun 2-də pilotsuz uçuş aparatları Smolensk vilayətinin ən böyük enerji obyektlərinə hücum gerçəkləşdirib. Vilayətinin rəhbəri vəzifəsini icra edən Vasili Anoxinin sosial şəbəkələrdə verdiyi məlumata görə, hadisə nəticəsində ölən və xəsarət alan olmayıb. Dronlar mühüm infrastruktur obyektlərinə ciddi ziyan vura bilməyib. Anoxin bildirib ki, zərbə gecə saat 3 radələrində baş verib.

Xatırladaq ki, daha əvvəl Kaluqa yaxınlığında naməlum obyektin düşməsi barədə məlumat yayılmışdı.

***Pünhan ƏFƏNDİYEV,***
***“Xalq qəzeti”***

# Türkiyə mətbuatının “Nagehan yarası”

## O, türklər və azərbaycanlılar üçün ikinci Marqarita Simonyandır

**Bu erməni aləti həyasızlığın son həddindədir. Qardaş ölkədə keçirilmiş məlum seçkinin nəticələri bütün dünya tərəfindən qəbul edilsə də, bu saxtakar “jurnalist” vay-şivən qaldırır ki, guya, Azərbaycan Prezidenti Türkiyədəki seçkilərə müdaxilə edib və səsvermənin nəticələri AK Partinin xeyrinə saxtalaşdırılıb.**



Xatırladaq ki, 2009-cu ildə işğal altında olan Qarabağa icazəsiz səfər etdiyinə görə “Azərbaycana giriş qadağası qoyuldu” iddiası ilə gündəmə gələn, “Habertürk”-ün köşə yazarı Nagehan Alçının adı gündəmi zəbt etdiyi üçün “Faktyoxla Lab” onun kimliyini araşdırmaq qərarına gəlmiş və olduqca mühüm faktları ortaya qoymuşdu. Həmin çoxsaylı faktlardan ikisini xatırladaq və sonra mövzunu davam etdirərik.

**Birinci fakt:** “Həm İkinci Qarabağ müharibəsi dövründə, həm də ondan əvvəlki illərdə Azərbaycanı və Türkiyəni ermənilərə qarşı amansız mövqe nümayiş etdirməkdə günahlandıran Nagehan Alçının hər il 24 aprel tarixində sosial mediada paylaşdıqlarına baxmaq kifayətdir ki, onun hansı düşüncənin sahibi olduğunu görək”.

**İkinci fakt:** “2016-cı ilin “Aprel döyüşləri”ndən sonra Nagehan Alçı “Milliyyət” qəzetindəki köşə yazısında qurduğu sətiraltı cümlələrlə erməniləri müdafiə edir, Türkiyəni və Azərbaycanı isə “yazıq” erməni xalqına aqressiya nümayiş etdirməkdə günahlandırırdı: “Mən bizim mediaya baxıram, ancaq bir tərəfə yox, bütün mediaya baxıram, hamısında azərbaycanlılar bizim qardaşımızdır, ermənilər düşməndir yanaşması! 5 azərbaycanlı şəhid oldu, əvəzində 100 erməni əsgəri öldürüldü və s... Bəs niyə deyirdiniz, türk millətçiliyi bu torpağa məxsus hər etnik mənsubiyyəti əhatə edən çətirdir deyə?”

Türkiyə mətbuatının qara yarası olan bu məxluq son günlər lap “ağ edib”. Yuxarıda qeyd etdiyimiz kimi, geridə qalan prezident seçkilərinin nəticələrini hamı qəbul etsə də, o hələ də narazıdır. Üstəlik, bu bədnam və bədxah jurnalist Türkiyədə keçirilmiş prezident seçkisinin ikinci turunda Rəcəb Tayyib Ərdoğanı dəstəkləyən Sinan Oğanı da ittiham edib. O, “Tvitter” hesabında yazdığı statusda Sinan Oğanın etnik kimliyini şübhə altına alıb. Eyni zamanda, Azərbaycan Prezidentinin ünvanına həqiqətə uyğun olmayan fikirlər yazıb.

Təbii ki, ermənilərin vəsaiti hesabına “bəslənən” və milli kimliyi şübhəli olan bu məxluqun cəfəngiyyatları cavabsız qalmır. Elə ATA İttifaqının prezidentliyə namizədi olmuş Sinan Oğan da özünün “Tvitter” hesabında Nagehan Alçının böhtanlarına cavab verib: “Nagehan xanım, siz də mənim keçmişimlə bağlı qınamağa bir şey tapa bilməyəndə öz təxəyyülünüzü satmağa başladınız? Sizcə, biz bilmirik ki, sizin məqsədiniz Azərbaycan Prezidentinin Türkiyədə daxili siyasətə qarışdığını iddia etmək və Türkiyədə anti-Azərbaycan cəbhəsi yaratmaqdır?! Deyəsən, Azərbaycana giriş qadağanızın olmasının acısı keçməyib!”.

Yeri gəlmişkən, Böyük Quruluş Partiyasının sədri, millət vəkili Fazil Mustafa da bir müddət əvvəl ermənipərəst mövqeyilə seçilən jurnalist-araşdırmaçı Nagehan Alçı barəsində demişdi ki, erməni lobbisinin kirayələdiyi bu adam barəsində Azərbaycan Xarici İşlər Nazirliyinin çıxardığı qərarın qüvvədə olub-olmadığı barədə dəqiq məlumatı yoxdur: “Hər halda onun Azərbaycan üçün arzuolunmaz şəxs sayılması barədə qərara həqiqətən ehtiyac var”.

Sonda onu da xatırladaq ki, yuxarıda adını çəkdiyimiz mənbənin öyrəndiklərinə görə, Nagehanın atası Rüştü Alçı Kayserinin Talas rayonunda anadan olub. Bu şəhərdə isə erməni sakinlərin üstünlük təşkil etdiyini Türkiyə mənbələri təsdiqləyir. Elə ona görə də, Nagehan Alçının ermənipərəst mövqeyinin və Azərbaycana qarşı nifrət hissinin olmasının bir səbəbini də bu məqamda axtarmaq lazım gəlir.

***Hazırladı:***
***İ. QAÇAYEV,***
***“Xalq qəzeti”***

# Fransada pensiya islahatı: ölkə yenidən çalxalana bilər

**Fransada pensiya islahatlarına qarşı tətil və nümayişlər yenidən başlanıb. İyunun 6-na elan edilmiş etiraz nümayişinin ölkə həyatını yenidən iflic edəcəyi gözlənilir.**



Mülki Aviasiya Baş İdarəsi bir çox uçuşların ləğv ediləcəyini bildirib. Paris-Orli hava limanında iyunun 6-na nəzərdə tutulan hər üç uçuşdan biri ləğv edilib. Həmçinin Lion, Marsel, Nitsa, Tuluz, Bordo, Nant şəhərlərində uçuşların ləğv edilməsinin böyük narahatlıq yaradacağı qeyd edilir. Bildirilir ki, uçuşlar dispetçerlərin pensiya islahatlarına qarşı tətilə qatıldıqları üçün ləğv olunub.

Fransada 8 həmkarlar ittifaqı və 5 gənclər təşkilatı iyunun 6-da ölkədə ümumi etiraz nümayişinə çağırış edib. Yeni ümumi etiraz nümayişi Liot qrupunun təqdim etdiyi və hökumətin və prezident çoxluğunun konstitusiyaya zidd hesab etdiyi islahatın ləğvini nəzərdə tutan qanun layihəsinin parlamentdə baxılmasından iki gün əvvəl keçiriləcək.

***“Xalq qəzeti”***

Mətbuat konfransı

# Davamlı sosial islahatların uğurları





**DOST Agentliyində "2018–2023: sosial islahatlar və əldə olunan nailiyyətlər" mövzusunda mətbuat konfransı keçirilib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov vurğulayıb ki, Prezident İlham Əliyevin uğurlu siyasətinin mərkəzində vətəndaş amili, vətəndaş rifahının təminatı dayanır.**

Bildirilib ki, dövlət başçısının tapşırıqları əsasında son 5 ildə 4 sosial islahat paketi icra olunub. Dörd milyondan çox vətəndaşı əhatə edən həmin sosial islahatlar nəticəsində minimum aylıq əməkhaqqında 2,7 dəfə, minimum pensiyada 2,5 dəfə, orta aylıq əməkhaqqında 65 faiz, median əməkhaqqında 2,1 dəfə, əməkhaqqı fondunda 2,5 dəfə, orta aylıq pensiyada 2,1 dəfə, sosial müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı sosial yardımın orta aylıq məbləğində 2,5 dəfə artım baş verib, 10-dan çox yeni sosial ödəniş növü təsis olunaraq və sosial təminat sistemində bir sıra humanist yanaşmalar, güzəştlər tətbiq edilməklə bu sistemin əhatə dairəsi daha da genişləndirilib. Həmin 4 sosial islahat paketi üzrə əlavə olaraq ayrılan illik vəsait 6,8 milyard manata çatıb.

Qeyd olunub ki, Prezident İlham Əliyevin fərmanı ilə 2019-cu ilin may ayında DOST Agentliyi və həmin vaxtdan 6 DOST Mərkəzi, habelə Zəngilanın Ağalı kəndində ölkə üzrə ilk "Smart DOST" məntəqəsi açılıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan, 154 növdə sosial xidmətin "bir pəncərə"dən, çevik, tam şəffaf şəkildə təqdim edildiyi DOST mərkəzlərində ötən dövrdə 1 milyon 561 min vətəndaşa xidmət göstərilib, bu xidmətlərdən vətəndaş məmnunluğu 98,5 faiz təşkil edib. DOST konsepsiyası beynəlxalq səviyyədə də yüksək dəyərləndirilərək 9 beynəlxalq mükafat və sertifikatla təltif olunub və DOST təcrübəsini öyrənməyə maraq göstərən ölkələrin sayı daim artır. Hazırda DOST mərkəzləri şəbəkəsinin ölkə boyu genişləndirilməsi işləri diqqətə çatdırılıb.

Bildirilib ki, 2018–2023-cü illərdə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara postmüharibə dövründə 4760, bu il 260, ümumilikdə ötən dövrdə 13,6 minə qədər mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə postmüharibə dövründə 324, ümumilikdə ötən dövrdə 7500-dən çox avtomobil verilib.

2018–2023-cü illərdə əmək müqavilələrinin sayında 35 faiz (və ya 450 mindən çox) artım olduğu, bu dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 400 min nəfərin işlə təmin olunduğu, 62 min nəfərin özünüməşğulluq proqramına cəlb olunaraq onlar üçün kiçik ailə təsərrüfatları yaradıldığı, proqrama cəlb olunanların illik sayının 14 dəfə artaraq 16 mini ötdüyü, 445 min nəfərin peşəyönümü xidmətlərə, 16 min nəfərin peşə hazırlığına cəlb edildiyi diqqətə çatdırılıb.

2018-ci ildən sonrakı dövrdə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsinin əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verildiyi, Qəbələdə Uşaq Reabilitasiya Mərkəzi açıldığı bildirilib. Qeyd olunub ki, yaxın aylarda Şamaxıda Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Şəmkirdə Uşaq Reabilitasiya Mərkəzi açılacaq, Ağcabədi və Qubada da Uşaq Reabilitasiya Mərkəzlərinin tikintisinə başlanacaq. Görülən işlər reabilitasiya xidmətləri göstərilənlərin illik sayında 3 dəfə artıma imkan verib.

Qeyd olunan dövrdə nazirliyin müəssisələrində 104 min şəxsə reabilitasiya xidmətləri göstərilib, əlilliyi olan şəxslərə 246 min reabilitasiya vasitəsi, o cümlədən müharibə ilə əlaqədar əlilliyi olan 416 şəxsə 433 son nəsil yüksək texnologiyalı protez verilib, sosial xidmətlər, günərzi, icma əsaslı reabilitasiya mərkəzləri şəbəkəsi genişləndirilib.

Son beş ildə sosial sahədə geniş elektronlaşma proqramının icra olunduğu, nazirliyin 153 xidmətindən 140-dan çoxunun elektronlaşdırıldığı bildirilib. Həmin dövrdə bu e-xidmətlərə 64 milyon müraciət, nazirliyin e-sistemlərinə 572 milyon sorğu və müraciət qeydə alındığı, qurumun 31 e-xidməti üzərindən 3,3 milyon e-arayış verildiyi diqqətə çatdırılıb. Dövlət başçısının 2018-ci il 5 sentyabr tarixli fərmanı ilə yaradılan "e-sosial.az" portalından isə 69 milyon dəfə istifadə edildiyi bildirilib. Nazirlik tərəfindən 2019-cu ildən bəri yaradılan 51 proaktiv təyinat mexanizmi üzərindən sosial ödənişlər üzrə 715 min proaktiv təyinat həyata keçirildiyi, 692 min fərdi hesabın e-qaydada açıldığı qeyd olunub.

Vurğulanıb ki, Prezident İlham Əliyevin tapşırıqları əsasında aparılan sosial islahatların uğurları beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qurumları 2022-ci ildə və 2023-cü ilin ilk rübündə 33 beynəlxalq mükafat və sertifikatla təltif olunub. Dövlət xidmətlərinin 2022-ci ildə "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsində 24 mərkəzi icra hakimiyyəti orqanı arasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 1-ci yerə yüksəlib.

Mətbuat konfransında sosial sahənin digər istiqamətləri üzrə görülən işlər və əldə olunan nailiyyətlər diqqətə çatdırılıb, jurnalistlərin sualları cavablandırılıb.

*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*

# Şuşanın fateh şəhidi

**Azərbaycan Hərb Tarixi Muzeyində Vətən müharibəsi şəhidi, Xüsusi Təyinatlı Qüvvələrin kəşfiyyatçısı, "Azərbaycan bayrağı" ordenli əsgər Qurban İbrahimovun anadan olmasının 25 illiyinə həsr olunmuş "Cəsur döyüşçü Qurban İbrahimov-25 il" adlı anım tədbiri keçirilib.**



Müdafiə Nazirliyinin idarə və təşkilatlarının, veteran təşkilatlarının, şəhər məktəblərinin nümayəndələri iştirak etdikləri tədbirdə muzey rəisi, polkovnik Əzizağa Qənizadə, şəhid Qurbanın qardaşı kapitan Aftandil İbrahimov, anası İntizar xanım İbrahimova çıxış ediblər.

Qeyd edilib ki, Qurban İbrahimov Vətən müharibəsi zamanı Hadrut, Cəbrayıl, Xocavənd və Laçın rayonlarının azadlığı uğrunda gedən ağır döyüşlərdə silahdaşlarına qorxmazlığı, mətinliyi ilə nümunə olmağı bacarmışdı.

Qarabağın tacı olan Şuşanın döyüş texnikası tətbiq edilmədən xüsusi təyinatlı qüvvələrimizin cəsur döyüşçüləri tərəfindən azad edilməsi müharibənin kulminasiyası oldu. Yüngül silahlarla silahlanmış döyüşçülərimizin sıldırım qayalarla dırmaşaraq alınmaz qala hesab edilən şəhərə girməsi və onu düşməndən təmizləməsi hərb tariximizin şanlı səhifələrindəndir. Təəssüf ki, Şuşa döyüşləri zamanı, noyabrın 5-də Qurban İbrahimov düşmən gülləsinə tuş gələrək şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılaraq vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli sərəncamına əsasən, Qurban İbrahimov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. Hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi, şəxsi igidlik və şücaət göstərdiyi üçün Qurban İbrahimov həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Tədbirdə şəhid Qurban İbrahimovun həyatı və döyüş yoluna həsr olunmuş "Vətən uğrunda" adlı sənədli film və sərgi nümayiş olunub.

Anım tədbiri Müdafiə Nazirliyinin H.Aslanov adına Ordu, İdeoloji iş və Mədəniyyət Mərkəzi solistlərinin ifasında hərbi vətənpərvərlik musiqilərinin səsləndirilməsi ilə davam etdirilib.

Yaşasaydı, iyunun 4-də Qurban İbrahimov 25 yaşını qeyd edəcəkdi.

Vətən torpaqlarının bütövlüyü naminə öz canından keçən, düşmənə amansız zərbələr vuran, Azərbaycan bayrağını azad olunmuş torpaqlarımıza sancan qəhrəman oğullarımızı yad etmək, xatirələrini əziz tutmaq hər birimizin ən müqəddəs vəzifəsi və borcudur.

**Leyla QURBANOVA, "Xalq qəzeti"**

# Aztəminatlı ailələrə dəstək mexanizmi




**Dövlət başçısının sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında belə bənd var: "Aztəminatlı və yoxsulluğa həssas təbəqənin sosial müdafiəsinə əlavə imkanların yaradılması". Hazırda həmin bəndin icrası məqsədilə hər hansı böhran vəziyyətində (iqtisadi böhran, pandemiya, sel, daşqınlar və s.) aztəminatlı ailələrin və həssas qrupların sosial müdafiəsinin yaxşılaşdırılması mexanizmi hazırlanır.**

Bununla əlaqədar beynəlxalq ekspert və aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə keçirilən növbəti görüşdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov ölkəmizdə sosial müdafiə sisteminin gücləndirilməsi sahəsində aparılan islahatlar barədə məlumat verib.

Bildirilib ki, qeyd edilən mexanizmin yaradılması prosesi ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin Uşaq Fondunun Azərbaycan Nümayəndəliyi arasında görüş keçirilib.

Xatırladaq ki, ötən ilin oktyabr ayında da "Sosial Müdafiə və Uşaq müdafiəsi üzrə Birgə Fəaliyyət Planı"na əsasən UNICEF tərəfindən dəvət olunan sahə üzrə ekspert Şarlin Ramkisunun iştirakı ilə aidiyyəti dövlət qurumlarının əməkdaşları ilə görüşlər keçirilmişdi. Görüşlərin nəticəsi olaraq ilkin hesabat sənədi hazırlanaraq aidiyyəti qurumlara göndərilmişdi.

Hazırda keçirilən görüşdə sözügedən mexanizmin hazırlanması istiqamətində atılacaq növbəti addımlara dair aidiyyəti qurumlarla birgə müzakirələr aparılıb.

*Zərifə HÜSEYNOVA, "Xalq qəzeti"*

# Paytaxtın yeni bərpa mərkəzi

**Paytaxtın Nərimanov rayonunda Sosial Xidmətlər Agentliyinin yeni ixtisaslaşmış Sosial Xidmət Mərkəzi fəaliyyətə başlayıb. Müəssisədə sosial işçi, psixoloq, loqoped, sosial-pedaqoq və uşaq inkişafı üzrə mütəxəssislər tərəfindən 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə reabilitasiya xidmətləri göstəriləcək.**



Mərkəzin açılışında Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov həssas əhali qruplarından olan şəxslərə göstərilən dövlət qayğısından bəhs edib.

Bildirilib ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq həssas qrupların sosial müdafiəsi tədbirləri mütəmadi olaraq gücləndirilir, sosial xidmətlər sisteminin əhatə dairəsi genişləndirilir. Agentlik hazırda 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsləri həm stasionar, həm də səyyar formada sosial xidmətlərlə təmin edir.

Daha əvvəl açılışı olan Abşeron və Sabunçu rayonundakı Sosial Xidmət mərkəzlərində bu kateqoriyadan olan 500-dək uşağın reabilitasiyası işləri aparılıb. Hazırda həmin müəssisələrdə 139 uşaq müvafiq xidmətlərlə təmin edilir.

Yeni ixtisaslaşmış mərkəzin xidmətlərindən yarımstasionar formada 3–11 yaş qrupuna aid əlilliyi olan uşaqlar bəhrələnəcək. Burada uşaqlar üçün fərdi və qrup şəklində sosial-reabilitasiya xidmətləri təşkil edilməsi, eyni zamanda, valideynlərin müvafiq təlimlərə cəlb olunması nəzərdə tutulub.

Qeyd edilib ki, mərkəz ay ərzində 80 nəfər uşağa keyfiyyətli reabilitasiya xidmətləri göstərilməsi üçün xüsusi avadanlıq və ləvazimatlarla da təchiz edilib.

*Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"*

Sağlam həyata qayıdış

**Tütünlə mübarizə dünyanın diqqətini tütündən istifadənin sağlamlıq üçün yaratdığı təhlükələrə yönəldir və dövlətləri tütün istehlakının miqyasının azaldılması üzrə effektiv siyasət aparmağa çağırır. Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, ATU-nin Ağciyər xəstəlikləri kafedrasının müdiri Rafiq Bayramov tütünün insan orqanizminə zərərləri ilə bağlı sorğumuzu belə cavablandırdı:**

# Ömrü "tüstü"yə verməyin!



– Statistikaya görə, hər il dünyada təxminən 8 milyon nəfər "tütün epidemiyası"nın qurbanı olur. Onların 800 min nəfərindən çoxu passiv siqaret istifadəçiləridir. Onu da qeyd edim ki, siqaret çəkənlərin yarısı 70 yaşına çatmadan vəfat edir. Tütündən istifadə edilməsi ölümə aparan ən mühüm səbəblərdən biridir. ÜST-nin məlumatına görə, tütündən istifadə hazırda dünyada hər on nəfərdən birinin həyatına son qoyur. Bundan başqa, tütünçəkmənin təsiri nəticəsində 25-dən çox xəstəlik, o cümlədən ürək-damar, ağciyər və onkoloji xəstəliklər daha da ağırlaşır.

Həkim qeyd etdi ki, aparılan sorğular nəticəsində məlum olub ki, tütündən istifadə edənlərin üçdə ikisi siqaretin zərərlərindən xəbərsizdir. Siqaretin tərkibində olan nikotin zəif narkotik maddə sayılır və asılılıq yaradır. Asılılığın müxtəlif üsullarla müalicəsi var və hər yaşda bundan imtina etmək mümkündür.

2017-ci il dekabrın 1-də ölkəmizdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanun qəbul edilib. Son illər onun icrası sahəsində görülən ardıcıl tədbirlər nəticəsində ölkəmizdə tütündən istifadə edənlərin sayı ildən-ilə azalır.




Dünyada tez-tez istehlak edilən tütün məmulatları arasında birinci yerdə olan siqaret, insan ölümünə səbəb olan son dərəcə zərərli vərdişlərdən biridir. Siqaret bütün dünyada qarşısı alına bilən və yoluxucu olmayan xəstəliklərin və bu xəstəliklərlə bağlı ölümlərin əsas səbəbidir. Siqaret tüstüsünün tərkibində 7 mindən çox kimyəvi maddə var, onlardan yüzlərlə zəhərli və 70-dən çoxu birbaşa kanserogendir. Akkumulyator istehsalında istifadə edilən kadmium, bataqlıqlarda böyük miqdarda olan metan qazı, kimya sənayesində istifadə edilən və zəhərli təsiri ilə tanınan arsenik, pestisid istehsalında istifadə edilən nikotin, soba və su qızdırıcısı zəhərlənməsinə səbəb olan karbonmonoksit qazı kimi bir çox zərərli komponentlər, boya sənayesində istifadə edilən ammonyak birbaşa siqaret tüstüsü ilə bədənə salınır. İnsan sağlamlığına son dərəcə mənfi təsir göstərən bu zəhərli kimyəvi maddələr arasında insektisid kimi istifadə edilən nikotin adlı maddə də sinir sisteminə güclü stimullaşdırıcı təsir göstərir. Nikotinin bu xüsusiyyətinə görə siqaret çəkənlərdə zamanla nikotindən psixi və fiziki asılılıq yaranır.

Siqaret çəkmək sağlamlığa bütünlüklə ziyandır. Xərçəng, ürək-damar xəstəlikləri, tənəffüs problemləri, cinsi fəaliyyətdə passivlik, böyrək xəstəlikləri, depressiya, adaptasiya problemi, beynin fiziki və psixoloji olaraq passivləşməsi, diabet və bir çox xəstəliklərə yol açır.

– Siqareti atdıqdan sonra orqanizmdə hansı dəyişikliklər baş verir? Tövsiyəniz...

– 20 dəqiqə ərzində qan təzyiqi normallaşır, 8 saat sonra qanın oksigen sıxlığı artır, 24 saat sonra infarkt riski azalmağa başlayır, 48 saatın sonunda sinir uclarının zədələnməsi azalır, dad və qoxu hissləri yaxşılaşır, 2 həftə ilə 3 ay arasında qan dövranı yaxşılaşır, ağciyər tutumu 30 faiz artır. Gəzmək, pilləkənlərə qalxmaq daha asan olur. İldən-ilə xəstəliklər orqanizmi tərk edir.

Düzgün həyat tərzinə yönəlmək, siqaret çəkməyə meyil yaradacaq bütün vasitələrdən (maşında və evdə külqabılar, siqaret qutuları) və siqaret çəkməyə meyilli çevrədən uzaq durmağı tövsiyə edirəm. Özünüzün və ətrafınızdakıların sağlamlığına laqeyd qalmayın, "siqaretə yox!"– deyin.

*Zərifə HÜSEYNOVA, "Xalq qəzeti"*

# Şuşada beynəlxalq rəqs festivalı



**Şuşada "Heydər Əliyev – Türk dünyası birliyinin böyük carçısı" adlı beynəlxalq uşaq rəqs festivalı keçirilib.**

Beynəlxalq rəqs festivalının təşkilində məqsəd uşaq və gəncləri dünyaşöhrətli siyasətçi Heydər Əliyevin Türk dünyası ilə bağlı gördüyü işlər haqqında məlumatlandırmaq, türkdilli dövlətlərin gənc nəslinə ölkəmizi tanıtmaq, uşaqları bir-birilərinin milli adət-ənənələri ilə tanış etmək, onlara öz ölkələrinin tarix və mədəniyyətini layiqincə təmsil etmək üçün şərait yaratmaq, eləcə də Şuşa şəhərinin füsunkar gözəlliyini iştirakçılara tanıtmaq olub.

Festivalda Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Azərbaycandan olan 150-yə yaxın məktəbli tmüxtəlif rəqs nömrələrini nümayiş etdiriblər.

Büynəlxalq şənlikdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Baş nazirin müavini Əli Əhmədov, elm və təhsil naziri Emin Əmrullayev, mədəniyyət naziri Adil Kərimli, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, tanınmış mədəniyyət və incəsənət xadimləri, şəhid övladları və digər qonaqlar iştirak ediblər.

**"Xalq qəzeti"**

Süreyya Ağaoğlu – 120

# Türk dünyasının ilk qadın vəkili

**İyunun 2-də Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və Özbəkistan Respublikasının Vəkillər Palatasının birgə təşəbbüsü ilə türk dövlətlərinin ilk qadın vəkili Süreyya Ağaoğlunun 120 illik yubileyinə həsr edilən "Gender bərabərliyi beynəlxalq insan hüquqlarının hissəsi kimi" mövzusunda beynəlxalq konfrans keçirilib.**




Tanınmış vəkilin ömür yolu və fəaliyyətindən danışan Anar Bağırov deyib ki, Süreyya xanım 1903-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhərində Azərbaycanın və Türkiyənin görkəmli ictimai-siyasi xadimi Əhməd bəy Ağaoğlunun ailəsində dünyaya gəlib. 1920-ci ildə İstanbul Qızlar Liseyini bitirib. 1921-ci ildə İstanbul Hüquq Fakültəsinə qəbul olub və bununla da hüquq fakültəsinin qapısının qız tələbələrin üzünə açılmasında rol oynayıb. Məzun olduqdan sonra vəkillik fəaliyyəti ilə məşğul olmağa başlayan Süreyya xanım Beynəlxalq Qadın Hüquqşünaslar Cəmiyyətinin ikinci prezidenti seçilib və ömrünün sonuna qədər vəkilliklə məşğul olub.

Sonra Süreyya Ağaoğlunun həyat və yaradıcılığına həsr olunan film nümayiş olunub.

Tədbirdə Özbəkistan Respublikası Vəkillər Palatasının sədri Alim Ernazarov çıxış edərək deyib ki, Azərbaycanla Özbəkistanın mədəniyyəti, mentaliteti, dünyagörüşü oxşardır. Qeyd edib ki, Özbəkistan Vəkillər Palatasının 5 minə yaxın vəkili var. Onların təxmini 22 faizini qadınlar təşkil edir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva azərbaycanlı qadınların cəmiyyətin bütün sahələrində olduğu kimi hüquq sahəsində də fəal fəaliyyət göstərdiklərini deyib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova deyib ki, istənilən demokratik cəmiyyətin xarakteri onun insan hüquqlarına münasibəti, xüsusilə onun tərkib hissəsi olan gender bərabərliyi, qadın hüquqlarına, uşaqların problemlərinə necə yanaşmasından asılıdır. Azərbaycanın bu sahədə gözəl tarixi ənənəsi var. Azərbaycan Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk ölkə olub.

Azərbaycanın tarixən tolerantlığı ilə seçilən ölkə olduğunu söyləyən Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərov diqqətə çatdırıb ki, ölkəmizdə qadınlara seçki hüququ bir çox ölkələrdən qabaq verilib.

Azərbaycan Respublikası Baş prokurorunun müavini Heydər Məmmədov deyib ki, hazırda prokurorluq orqanlarında 470 qadın əməkdaş fəaliyyət göstərir.

Hibrid qaydada keçirilən və üç sessiyadan ibarət konfransda doqquz ölkənin Vəkillər kollegiyalarının rəhbər şəxsləri və nümayəndə heyətinin üzvləri gender bərabərliyi ilə bağlı müxtəlif mövzularda çıxışlar edib, mövcud problemlər, onların həll yolları barəsində məlumat veriblər və geniş fikir mübadiləsi aparılıb.

***"Xalq qəzeti"***

# Poeziyamızın inciləri özbək dilində

**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Özbəkistanın ünlü yazarı Dilbar xanım Haydarova ilə görüş və onun Azərbaycan şairlərindən özbəkcəyə çevirdiyi şeirlərdən ibarət antologiyanın təqdimat mərasimində istər-istəməz ulu söz dahimiz Hüseyn Cavidin bu sözlərini xatırladıq: "Turana qılıncdan daha kəskin, ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!" Tədbir boyu bu fikir bütün çıxışlardan qırmızı xətt kimi keçdi və Azərbaycan–Özbəkistan mədəni, ədəbi əlaqələrinin hazırkı səviyyəsi hamılıqla təqdir edildi.**

AYB-nin beynəlxalq əlaqələr üzrə katibi, yeni yaranmış TÜRKSOY Yazıçılar Birliyində ölkəmizin rəsmi təmsilçisi, şair Səlim Babullaoğlu tədbiri açaraq, türk coğrafiyası xalqlarının bir kökdən gələn ədəbiyyatının tarixi, əlaqələrin geniş aspekti barədə danışdı, turan dünyası yazıçılarının əsərlərinin qardaş ölkələrdə təbliği zərurətinə önəm verildiyini alqışladı. O, qeyd etdi ki, bu baxımdan Dilbar xanım Haydarovanın gərgin zəhmət və Azərbaycana sevgilərlə hasilə yetirdiyi antologiya dəyərli bir töhfədir.






Tədbirin aparıcısı – "Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin sədri, şair Güllü Eldar Tomarlı lokomotivi ədəbiyyat olan ümum türk mədəniyyətinin tarixən çulğalaşmasını, bu gün özünün zirvə həddinə çatmasını böyük uğur saydığını bildirdi və möhtərəm qonağımız Dilbar xanımın yeni kitabını böyük yaradıcılıq uğuru kimi dəyərləndirdi.

Sonra filologiya elmləri doktoru, tanınmış Nəvaişünas, özbək ədəbiyyatı tədqiqatçısı Almaz Ülvi Binnətova, AYB-nin "Poeziya Seksiyası"nın rəhbəri, Türk Edebiyyatı Vakfının Fəxri üzvü İbrahim İlyaslı, AYB İdarə Heyətinin üzvü, şair Elçin Mirzəbəyli, Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli tanınmış yazar Baba Vəziroğlu və başqaları çıxış edərək qonağı salamladılar və özbəkcə nəşr edilmiş "Azərbaycan şeiriyyəti antologiyası" haqqında ürək sözlərini söylədilər.

Dilbar xanım Haydarova isti qarşılanmaya, xoş süözlərə görə minnətdarlıq etdi, bunmdan sonra da qardaş xalqlarımızın ədəbi əlaqələrinin inkişafı naminə əlindən gələni edəcəyini bildirdi.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**

Təqvim yada salır

**Naxçıvan Dövlət Universitetində bu ali məktəbdə uzun illər dərs demiş, rəhbər vəzifələrdə çalışmış, ömrünün yeddinci onilliyinin tamamına 7 ay qalmış dünyasını dəyişmiş dosent Nazim Bababəylinin 70 illik yubileyi sevgi-sayğılarla qeyd edilib.**

# Naxçıvanda tanınmış alimin yubileyi



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Nazim Bababəylinin çoxillik zəngin elmi-pedaqoji fəaliyyətindən danışaraq bildirib ki, tanınmış coğrafiyaçı alim həm də muxtar respublikanın ictimai-mədəni həyatında fəal iştirak edirdi. O, Naxçıvan MR Ali Məclisinin deputatı və Avropa Şurası Regional və Yerli Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin üzvü idi. Mərhum həmkarımıza muxtar respublikanın Əməkdar müəllimi fəxri adı verilmişdi, alim "Tərəqqi" və "Akademik Plyuqin" medallarına layiq görülmüşdü.



Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Bəhruz Məmmədov, bələdiyyə və turizm kafedrasının müdiri Flora Kərimova, coğrafiya kafedrasının baş müəllimləri Etiqad Bəktaşi, Əli Qurbanov, Nurlana Qənbərova, Əməkdar jurnalist, rejissor Səməd Canbaxşiyev Nazim Bababəyli ilə bağlı xatirələrini danışıblar, yubilyar alimin çap olunmamış və yarımçıq elmi işlərinin toplanılıb kitab şəklində nəşr edilməsinin vacibliyini qeyd ediblər.

BDU-nun kafedra müdiri Fərhad Mirzəyev Nazim Bababəyli ilə 40 illik dostluq münasibətlərindən və Milli Aerokosmik Agentliyinin Naxçıvan şöbəsindəki fəaliyyətlərindən, onun Günəş-84, Günəş-85, Naxçıvan-90 beynəlxalq elmi ekspedisiyalarındakı təşkilatçılıq işlərindən söz açıb.

***"Xalq qəzeti"***

# Dolma beynəlxalq festivalın birincisi oldu




**Özbəkistan Xarici İşlər Nazirliyi Daşkəndin Mərkəzi Parkında "Xalqların mədəni ənənələri və mətbəxi" adlı beynəlxalq festival keçirib.**

Tədbirdə Türkiyə, Azərbaycan, Böyük Britaniya, ABŞ, Qazaxıstan, Rusiya, İtaliya, İran, Misir, Səudiyyə Ərəbistanı, Cənubi Koreya, Hindistan, Pakistan, Tacikistan, Ukrayna və digər ölkələrin Özbəkistandakı səfirlikləri və mədəniyyət mərkəzləri iştirak ediblər.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM)

beynəlxalq festivalda bu ilki iştirakını Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edib və bu məqsədlə Azərbaycan pavilyonunun önündə ulu öndərə dair foto və nəşrlərdən ibarət sərgi də keçirib.

Azərbaycan üçün ayrılmış guşədə ölkəmizin bayrağı, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadi inkişafından bəhs edən kitablar, "Qarabağ həqiqətləri" seriyasından Heydər Əliyev Fondu tərəfindən rus və ingilis dillərində çap edilən nəşrlər, Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı əsərlər nümayiş etdirilib. Festivalda Azərbaycan mədəniyyətinə dair suvenirlər, Qarabağın milli kişi və qadın geyimləri iştirakçıların diqqətini cəlb edib.

Festival çərçivəsində təşkil edilən konsertdə AMM-nin rəqs ansamblının üzvlərinin ifasında milli rəqslərimiz maraqla qarşılanıb.

Müxtəlif ölkələrin təmsilçılərindən ibarət münsiflər heyəti Azərbaycan milli yeməyi olan dolmanı "Ən dadlı yemək" nominasiyasında birinci yerə layiq görüb və festivalın mükafatı ilə təltif edib.

**Qulu KƏNGƏRLİ,**
**Daşkənd**

# Son sutkada 4 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 4 yoluxma faktı qeydə alınıb, 14 nəfər müalicə olunaraq sağalıb.**




Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 830, bu günə qədər isə ümumilikdə 7 milyon 624 min 100 test icra olunub.

***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 172** **Bakı şəhəri, 31 may 2023-cü il**

***"Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nın və "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"nın və onların tətbiqi qaydalarının təsdiq edilməsi və "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 20 oktyabr tarixli 170 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 629-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 122 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 noyabr tarixli 1893 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı" təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı" təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısı"nın və "Hamilə və ya bir yaşına çatmamış uşağı olan qadınların iş yerlərində təmasda olması qadağan olunan zərərli istehsalat amillərinin siyahısı"nın tətbiqi qaydaları" təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 20 oktyabr tarixli 170 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 604) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 173** **Bakı şəhəri, 31 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2019-cu il 6 fevral tarixli 38 nömrəli və "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" 2019-cu il 4 sentyabr tarixli 381 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiq və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin və "Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli 1885 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanının 4.7-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 fevral tarixli 38 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 336, № 3, maddə 560; 2022, № 6, maddə 685) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissədə "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə yüklülüyü üzrə bildirişlərin daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə daxil edilməsi üçün reyestrə inteqrasiya edilməli olan informasiya sistemlərinin Siyahısı"nın 1-ci hissəsində "Azərbaycan Respublikasının Vergilər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

**2.** "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 sentyabr tarixli 381 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1535; 2021, № 7, maddə 866) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissədə "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "İri dövlət şirkətlərinə dair vahid məlumat bazasının formalaşdırılması və ondan istifadə Qaydaları" üzrə:

2.2.1. 1.4-cü bənddə "Əmlak Məsələləri Dövlət Komitəsidir" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətidir" sözləri ilə, 1.5-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

2.2.2. 1.8.1-ci yarımbənddən ", Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri, 1.8.2-ci və 1.8.3-cü yarımbəndlərdən ", Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri çıxarılsın;

2.2.3. 3.2-ci bənddə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin və həmin bənddən ", Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Baş prokuror Astarada qəbul keçirib



**İyunun 2-də Baş prokuror Kamran Əliyev Astara Rayon Prokurorluğunun inzibati binasında Astara, Masallı, Yardımlı, Lənkəran və Lerik rayonlarından olan vətəndaşlarla görüşüb.**

Qəbulda iştirak edən 31 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə əlaqədar və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

Həmçinin, Baş prokuror Prezidentin 2021-ci il 7 may tarixli fərmanı əsasında yaradılan və Azərbaycan prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 174** **Bakı şəhəri, 31 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2014-cü il 24 yanvar tarixli 19 nömrəli, "Aqrar sığorta" informasiya sisteminin Əsasnaməsi"nin və "Aqrar sığorta" informasiya sisteminə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların Siyahısı"nın təsdiq edilməsi barədə" 2020-ci il 6 iyul tarixli 238 nömrəli, "Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2020-ci il 20 oktyabr tarixli 401 nömrəli, "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və "Hökumət buludu" ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli, "Doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 2 dekabr tarixli 479 nömrəli, "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi barədə" 2021-ci il 28 yanvar tarixli 18 nömrəli, "İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi"nin təsdiq edilməsi haqqında" 2021-ci il 13 oktyabr tarixli 308 nömrəli və "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması və bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında" 2021-ci il 27 noyabr tarixli 371 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

"Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli 1885 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 noyabr tarixli 1887 nömrəli Fərmanının 4.7-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 19 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 68; 2016, № 11, maddə 1945; 2018, № 5, maddə 1140) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 3-cü hissəsi ləğv edilsin.

**2.** "Aqrar sığorta" informasiya sisteminin Əsasnaməsi"nin və "Aqrar sığorta" informasiya sisteminə inteqrasiya ediləcək informasiya sistemlərinin və onlardan əldə olunması nəzərdə tutulan məlumatların Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 6 iyul tarixli 238 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 968) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissədə "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Aqrar sığorta" informasiya sisteminin Əsasnaməsi"nin 6.1.9-cu və 6.1.10-cu yarımbəndlərində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

**3.** "Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 oktyabr tarixli 401 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1289) 2-ci hissəsində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316; 2021, № 2, maddə 203, № 4, maddələr 416, 418, № 9, maddə 1064, № 12, maddə 1510; 2022, № 4, maddə 381, № 6, maddə 685, № 11, maddə 1351, № 12, maddələr 1550, 1552; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 mart tarixli 70 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissənin ikinci abzasının üçüncü cümləsindən "və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri çıxarılsın;

4.2. 5-ci hissənin üçüncü abzasının ikinci cümləsindən "(VXSİDA)" akronimi, dördüncü abzasının birinci cümləsindən "və VXSİDA-nın" sözləri və on birinci abzasından ", VXSİDA" akronimi çıxarılsın.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 dekabr tarixli 479 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1583) ilə təsdiq edilmiş "Doğum və ölüm faktını təsdiq edən sənədlər üzrə məlumatların, habelə vətəndaşların dəfni ilə bağlı məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə ötürüləcəyi aidiyyəti dövlət informasiya ehtiyatlarının və sistemlərinin Siyahısı"nın 1.3-cü və 2.2-ci bəndlərində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**6.** "Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 28 yanvar tarixli 18 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 101, № 6 (IV kitab), maddə 671, № 12, maddə 1536) 2-ci hissəsində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**7.** "İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 oktyabr tarixli 308 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1177; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 9 mart tarixli 82 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2-ci hissədə "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

7.2. həmin Qərarla təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə məlumat bazasının (elektron informasiya ehtiyatının) formalaşdırılması və istifadə Qaydası, o cümlədən həmin məlumat bazasına (elektron informasiya ehtiyatına) inteqrasiya edilməli olan informasiya sistemlərinin və resurslarının siyahısı, həmin məlumatlara buraxılış dərəcəsi"nin 5.1-ci bəndində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 27 noyabr tarixli 371 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 11, maddə 1293, № 12, maddə 1543, № 1, maddə 79; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 9 mart tarixli 82 nömrəli Qərarı) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "COVID-19 xəstəliyinə qarşı peyvənd olunmanı, peyvəndləməyə əks göstərişi, neqativ PZR test nəticəsini əks etdirən və COVID-19 xəstəliyinə yoluxmuş şəxslərin sağalaraq immunitetə malik olmalarını təsdiq edən sertifikatların tanınması Qaydası"nın 5.7-ci bəndində "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Teatrların rəhbərliyi yenilənir

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubiley tədbirləri çərçivəsində "Azərbaycan teatrı – 150: inkişaf perspektivləri" mövzusunda Teatr Forumu başa çatar-çatmaz teatrların bir qismində kadr dəyişiklikləri elan edildi.**





Mədəniyyət naziri Adil Kərimlinin əmri ilə Əməkdar incəsənət xadimi, rejissor Mehriban Ələkbərzadə Akademik Milli Dram Teatrına bədii rəhbər, Xalq artisti Yusif Eyvazov Azərbaycan Dövlət Opera və Balet Teatrına direktor təyin olundu.

Bəs teatrlarımıza gətirilən yeni rəhbər şəxslər tamaşaçılar və teatr heyəti üçün hansı yenilikləri edəcəklər?!

Teatrda aktyorlarla bağlı məlumat verən Mehriban Ələkbərzadə bildirdi ki, aktyor heyətinin tərkibi xeyli azdır:

"Burada çox az sayda tamaşa hazırlanır. Eyni zamanda, truppanın yalnız bir qismi tamaşalara cəlb olunur. Teatrın gücünü artırmaq üçün yeni quruluşda olan tamaşalara üstünlük vermək lazımdır. Düşünürəm ki, bunun üçün, ilk növbədə, truppa gücləndirilməlidir".

İndi teatrda yeniliklər barədə danışmağın isə hələ tez olduğunu deyən rejissor qeyd etdi ki, hazırda teatrda baş verən bütün prosesləri nəzarətə götürür və heyətin işə yanaşma prinsipləri ilə tanış oluram.

Azərbaycan Dövlət Opera və Balet teatrında isə, artıq bir aya yaxındır ki, yeni direktor, Xalq artisti Yusif Eyvazovun təşəbbüsü ilə məşhur italyan opera müğənnisi Federiko Lonqhinin teatra dəvəti ilə ustad dərsləri keçirilir.

Bu barədə teatrın mətbuat xidmətindən məlumat aldıq. Bildirildi ki, cənab Federiko teatr kollektivi ilə öz təcrübəsini bölüşməklə yanaşı, solistlərlə də fərdi məşğələlər aparır. Silsilə şəklində davam edəcək layihə tetrın yaradıcılıq baxımından kadr potensialının və peşəkarlığının yüksəldilməsinə yönəlib.

Opera teatında, həmçinin "Teatrın tarixi simaları" adlı yeni layihənin icrasına başlanıb. Layihənin ilk sayı Azərbaycan professional musiqisinin banisi, dahi Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasına həsr olunur. Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının tarixi simaları, teatrla əməkdaşlıq etmiş bəstəkarlar, ifaçılar, rejissorlar, libretto müəllifləri haqqında məlumatlar və onların yaradıcılıq fəaliyyəti ilə bağlı bilgilər bugünkü gənc nəslin ixtiyarına veriləcək.

Qeyd edək ki, Azərbaycanda ilk dəfə iyunun 11-i saat 19:00-da Heydər Əliyev Mərkəzində "Viva Opera" adlı möhtəşəm qala-konsert keçiriləcək. Gecədə Azərbaycanda və dünyada tanınmış klassik vokal ifaçıları iştirak edəcəklər.

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***

# "Görünməyən cəbhə"nin gerçəkləri

## Xüsusi xidmət orqanı veteranının kitabı haqqında qeydlər

**Xüsusi xidmət orqanlarının veteranı, ehtiyatda olan polkovnik Hamlet İsmayılov bir vaxtlar qorxmaz, cəsur çekist kimi tanınırdı. Onun "görünməz cəbhə" nin şanlı keçmişinə və bu gününə həsr olunmuş yazıları gənc çekistlərin əsl vətənpərvərlik ruhunda yetişməsi və xidmət göstərməsində mühüm önəm daşıyır. Rus dilində yeni çap olunmuş sayca 7-ci kitabı – "İstəyirsiniz inanın, istəyirsiniz – yox" bu missiyanın uğurlu davamı sayıla bilər.**

Hamlet müəllimin yeni kitabında əsl azərbaycanlı ürəyinin çırpıntıları ifadə olunub, şanlı qəhrəmanlıq tariximizin parlaq səhifələri sevgi ilə qələmə alınıb. "Görünməz cəbhə"nin sınaqlardan çıxmış sədaqətli əsgərinin qələmə aldıqlarının uydurma olmadığına, həyatdan götürüldüyünə oxucular zərrəcə şübhə etməyəcəyi qənaətindəyəm və ümid edirəm ki, bu kitaba sarılacaq hər kəs də fikrimə şərik çıxacaq.

Uzun illərdən bəri tanıdığım, dostluq etdiyim Hamlet İsmayılov yeni kitabında ötən illərin və müasir dövrün ictimai-siyasi hadisələrinə geniş spektrdə işıq salmağa nail olmuş, Azərbaycan xalqının zaman-zaman üzləşdiyi çətinlik və problemlərdən əsil publisist ustalığı ilə bəhs etmişdir. Xarici havadarlarının, ilk növbədə, Mixail Qorbaçovun dəstəyi və fitvası ilə ermənilərin xalqımızın başına gətirdikləri müsibətlərdən və nəhayət, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun işğalda olan torpaqlarımızı azad etməsindən, Azərbaycan dövlətinin və xalqımızın sarsılmaz iradəsi ilə həmin arazilərdə başlayan dirçəliş və çiçəklənmə marafonundan ətraflı bəhs edən müəllif olduqca maraqlı məqamlara aydınlıq gətirmişdir. Müəllif ötən onilliklərdə rastlaşdığı çeşidli hadisələri həqiqətin süzgəcindən keçirməyi ustalıqla bacarmış, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin düzgün qurulması, onlarda xalqa, dövlətə məhəbbət hissinin davamlı olaraq aşılanması zərurətini önə çəkmişdir.




Müəllif yeni kitabında, eyni zamanda, xüsusi xidmət orqanlarının milliləşməsində, yenidən formalaşdırılmasında əvəzsiz xidmətləri olan fenomenal şəxsiyyət, ulu öndər Heydər Əliyevlə bağlı fikirlərini də oxucuların diqqətinə çatdırır. 1980-ci ildə dahi rəhbərin Naxçıvan səfərində onun təhlükəsizliyinə cavabdeh olanlar arasında o zaman DTK-nın Naxçıvan idarəsində işləyən Hamlet İsmayılov deyirdi: "Onunla fəxr edirəm ki, taleyimə dahi bir insanın təhlükəsizliyinin təmin olunması kimi şərəfli vəzifəni yerinə yetirənlər arasında olmaq düşüb".

1973-cü ildən 2003-cü ilədək xüsusi xidmət orqanlarında qüsursuz fəaliyyət göstərən polkovnik Hamlet İsmayılovu keçmiş iş yoldaşları və gənc çekistlər Vətənin sadiq əsgəri, layiqli vətəndaş kimi tanıyır və ehtiram göstərirlər. O da, öz növbəsində, vaxtilə çiyin-çiyinə çalışdığı insanları unutmur, onlarla daim əlaqə saxlayır. Xüsusi xidmət orqanları veteranları Alyansının rəhbəri Fəxri Abbasov, veteran çekistlər Bəhruz Teymurov, Bəxtiyar Əliyevlə, Şamil Süleymanovla, Əli Orucovla və Xalq yazıçısı Çingiz Abdullayevlə bağlı səmimi duyğu və düşüncələrinə bu kitabda geniş yer alıb.

Hamlet müəllim öz nəslinin, soyunun qəhrəmanlıq ənənələrini uğurla davam etdirib. Onun böyük qardaşları Əliağa və Ayaz İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçiblər. "Mən də müharibə iştirakçısıyam – Birinci Qarabağ müharibəsinin. 1991-ci il iyulun 6-da Goranboy istiqamətində döyüşlərdə ağır yaralanmışam. Bu kitabı yazmağa 2020-ci ilin martında başlamışam. Həmin ilin noyabrında Azərbaycan Ordusu erməni faşistləri üzərində şanlı Qələbəyə imza atdı. Biz buna görə öz qəhrəmanlarımıza – ilk növbədə, Ali Baş Komandanımıza minnətdarıq. General Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin, Dmitri Solntsevin, Denis Proninin, Fəqan Məmmədovun, Xudayar Yusifzadənin, Yüksəl Əlizadənin və yüzlərlə digər igidlərimizin cəsarəti qarşısında baş əyirəm".

Hamlet müəllim yeni kitabında cəsur çekistlərimizin istər döyüş bölgələrində, istərsə də adi günlərdə Vətənin azadlığı, ərazi bütövlüyü uğrunda əsil fədakarlıq nümunələri göstərdiklərini publisistik çalarlarla oxucuya təqdim edir. Müəllifin dili rəvan, süjet xətti orjinaldır. O, rastlaşdığı və iştirakçısı olduğu hadisələrə bədii don biçməyi, oxucunu inandırmağı ustalıqla bacarmışdır.

Müəllifin yeni kitabında müxtəlif vaxtlarda qələmə aldığı şeirləri də yer alıb.

Hamlet İsmayılovun bu kitabı gənc çekistlərin və oxucuların Zəfər tariximizə dair daha çox bilgilər əldə etməsi üçün etibarlı mənbə kimi də tanına bilər.

***Akif CABBARLI, yazıçı-publisist***

# İKİNCİ BİLDİRİŞ

## LPO "Günay Bank" ASC də qorunan əmanətlər üzrə kompensasiyaların verilməsi barədə məlumat




Bakı Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 2-3(103)-42/2023 nömrəli, 18 may 2023-cü il tarixli qərarı ilə "Günay Bank" ASC müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu Bankın ləğvedicisi təyin edilmişdir. Həmçinin "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Günay Bank" ASC-də sığorta hadisəsi günü 18 may 2023-cü il müəyyən edilmişdir.

Bildiririk ki, kompensasiyaların ödənilməsi "Bank Respublika" ASC vasitəsilə 19 iyun 2023-cü il tarixdən başlayaraq həyata keçiriləcəkdir. "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 28.3-cü maddəsinə əsasən Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir.

Qorunan əmanətçilər əmanət hesabları üzrə hesabdan çıxarışları ləğv prosesində olan "Günay Bank" ASC-nin Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Alı küçəsi 45 ünvanında yerləşən baş ofisindən əldə edə bilərlər.

Əmanətçilərdən kompensasiyaların alınması üçün "Bank Respublika" ASC-nin müvafiq filiallarına müraciət edərkən kompensasiyanın ödənilməsi prosedurlarına uyğun olaraq ərizəyə əmanət müqaviləsi, əmanət kitabçası, yaxud qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmanəti təsdiqləyən digər sənədlər və onların surəti, habelə əmanətçinin şəxsiyyətini təsdiq edən sənədin təqdim edilməsi xahiş olunur. Həmçinin bildiririk ki, kompensasiya almaq üçün əmanətçinin nümayəndəsi müraciət etdikdə o, qeyd edilən sənədlərlə yanaşı, əlavə olaraq notariat qaydasında təsdiq olunmuş etibarnaməni təqdim etməlidir.

Qorunan əmanətçilər ərizə formalarını 19 iyun 2023-cü il tarixdən etibarən "Bank Respublika" ASC-nin müvafiq filiallarından və ƏSF-nin www.adif.gov.az internet-saytından əldə edə bilərlər. Kompensasiyaların ödənilməsi ilə bağlı "Bank Respublika" ASC-nin müvafiq filial şəbəkəsi barədə əlavə məlumat veriləcəkdir.

Məlumat üçün qeyd edək ki, əmanətlər "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq kompensasiya olunacaq. Belə ki, sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 100 (bir yüz) min manatdan çox olmamaqla, fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri üzrə kompensasiya məbləği 20 (iyirmi) min manatdan çox olmamaqla, notariusların depozit hesablarında olan fiziki şəxslərə məxsus pul vəsaitləri üzrə kompensasiya isə həmin pul vəsaitlərinin 100 faizi həcmində ödəniləcəkdir.

Kompensasiyaların ödənilməsi prosesi haqqında ətraflı məlumatı Əmanətlərin Sığortalanması Fondunun saytından əldə edə bilərsiniz.

www.adif.gov.az

# Qafqaz Müsəlmanları İdarəsi Məhərrəm ayının başlama vaxtını açıqlayıb

**Bu il Məhərrəm ayı iyulun 19-da daxil olacaq. Bu barədə Qafqaz Müsəlmanları İdarəsindən məlumat verilib.**

Bildirilib ki, iyulun 19-da Hicri-qəməri təqvimi ilə 1444-cü il başa çatır və 1445-ci il başlayır. Məhərrəm ayının 10-u Aşura günü isə iyulun 28-nə təsadüf edir.

Qeyd edilib ki, avqustun 17-də Məhərrəm ayı başa çatacaq və Səfər ayı başlayır. Sentyabrın 16-da isə Səfər ayı başa çatacaq.

# Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi Azərbaycan Turizm və Menecment Universiteti

## 2023/2024-cü tədris ilində aşağıdakı ixtisaslar üzrə təkrar ali təhsil almaq üçün qəbul elan edir:

- Turizm işinin təşkili
- Turizm bələdçiliyi
- Menecment
- Marketinq
- Maliyyə
- Mühasibat
- Qida mühəndisliyi
- Nəqliyyatda servis (nəqliyyat növləri üzrə)
- Sosial iş
- Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması
- Beynəlxalq münasibətlər
- Dövlət və bələdiyyə idarəetməsi

Təkrar ali təhsil almaq üçün əvvəlki ali təhsili və ya hazırda işlədiyi vəzifəsi seçdiyi ixtisasa uyğun gələn şəxslər ATMU-nun müəyyənləşdirdiyi qaydaya əsasən müsabiqədə iştirak edə bilərlər.

Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- təhsil müəssisəsi rəhbərinin adına ərizə;
- ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiq edilmiş surəti və qiymət kitabçasından çıxarış;
- əmək kitabçasından çıxarış;
- şəxsiyyət vəsiqəsinin surəti;
- 3x4 sm. ölçüdə 4 ədəd fotoşəkil.

Sənədlər 2023-cü il iyunun 5-dən avqustun 5-dək həftənin I-V günləri saat 9.00-dan 17.00-dək ATMU-nun əsas korpusunda qəbul edilir.

Təkrar ali təhsil almaq üçün ATMU-ya sənədlərini təqdim etmiş şəxslərlə ATMU-da yaradılan komissiya müsahibə aparır. Müsahibədən uğurla keçənlər seçdikləri əlavə təhsil ixtisası üzrə təkrar ali təhsil alan tələbələr sırasına qəbul edilirlər. Təkrar ali təhsil almaq şansı əldə etmiş və tələbələr sırasına qəbul olunmuş şəxslər əvvəlki ali təhsil ixtisaslarının uyğunluğundan asılı olaraq müvafiq ixtisaslara qəbul edilir və onlar üçün təhsil müddəti müəyyənləşdirilir.

Təhsil Azərbaycan dilindədir.

Xaricdə təhsil almış şəxslər təkrar ali təhsil almaq üçün Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyində müvafiq prosedur (nostrifikasiya) keçməklə şəhadətnamə aldıqdan sonra sənədlərini təqdim edə bilərlər.

Təhsil ödənişlidir. Təhsil haqqı ixtisaslara uyğun olaraq müəyyənləşdirilir.

Qeyd- sənəd təqdim edənlər həmçinin elektron formada Elm və Təhsil Nazirliyinin www.portal.edu.az saytından da qeydiyyatdan keçməlidirlər. Yuxarıda qeyd olunan sənədlərin hər birinin sistemə yüklənməsi vacibdir.

Telefonlar- (+99412) 5644233 (daxili: 125), (+99412) 5645411.

Email: info@atmu.edu.az URL: www.atmu.edu.az

Ünvan-AZ 1072, Bakı, K.Rəhimov küçəsi 822/23-cü məhəllə.

***Azərbaycan Turizm və Menecment Universiteti***

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

## öz gəmiləri üçün separatorların satın alınması məqsədilə AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər.

Müraciət üçün son müddət 7 iyun 2023-cü il saat 17.00-dəkdir.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1016.

Ünvan-AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi 2.

# "AZƏRELEKTROTERM" ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Azərelektroterm" ASC-nin nizamnaməsinə əsasən, səhmdarların illik ümumi yığıncağının məsafədən (onlayn qaydada ) keçirilməsi 19 iyul 2023-cü il saat 11.00-da nəzərdə tutulur.

Gündəlikdəki məsələ:

1. 2022-ci maliyyə ili üzrə maliyyə hesabatlarının müzakirəsi və təsdiq edilməsi.

Ümumi yığıncağın gündəliyinin materialları ilə Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi (keçmiş 1222-ci keçid ) 12 nömrəli ünvanda tanış olmaq mümkündür.

Əlaqə telefonları- (012) 566 10 67, +994 77 346 73 87.

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 116 (30232) 3 iyun 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Bakıda buz meydançası istifadəyə verilib

**Heydər Əliyev adına İdman-Konsert Kompleksində buz meydançası istifadəyə verilib.**



Meydança ölkədə idmanın fiqurlu konkisürmə növünün inkişafına təkan məqsədilə istifadəyə verilib.

Burada hokkeyin inkişafı üçün tələb olunan imkanlar da mövcuddur.

## Dənizkənarı Milli Parkda taekvondo festivalı

**Dənizkənarı Milli Park ərazisində Dünya Taekvondo Federasiyasının nümayiş komandası tərəfindən demo şou təşkil olunub.**



Bakıda keçirilən taekvondo üzrə dünya çempionatı çərçivəsində təşkil edilən şou başlamazdan əvvəl Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Ço və Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Nağı Səfərov komanda üzvləri ilə görüşüb. Çunqvon Ço şəhər sakinləri ilə də görüşərək onlarla şəkillər çəkdirib.

Tədbirdə komanda tərəfindən Azərbaycan milli rəqslərinin də nümayiş olunması izləyicilər tərəfindən maraqla qarşılanıb.

## Cüdoçularımız 3 medal qazanıblar

**Tacikistanın paytaxtı Düşənbədə Qran-Pri turnirində komandamız uğurla çıxış edərək 3 medal qazanıb.**



Gümüş medalları yığmamızın aktivinə Gültac Məmmədəliyeva (52 kq) və Turan Bayramov (60 kq) yazdırıblar.

Azərbaycan yığmasının digər üzvü Yaşar Nəcəfov (66 kq) bürünc medala sahib olub.

Sabah başa çatacaq yarışda 40 ölkədən 300-dən çox idmançı medallar uğrunda mübarizə aparır. Komandamız turnirdə 7 çəki dərəsində 12 idmançı ilə təmsil olunur.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*





## "WhatsApp" Rusiyada cərimələnib

**"WhatsApp" son zamanlar mesajların redaktəsi və istifadəçi adı kimi bir sıra yeni funksiyalarla insanların maraq dairəsindədir. Bu dəfə isə şirkət Rusiyada yeni cərimə ilə gündəmə gəlib. Xəbəri "tass.ru" saytı verib.**

Rusiyanın paytaxtı Moskvada məhkəmədə baxılan iddiada "WhatsApp" vasitəsi ilə qeyri-qanuni yolla antidepresan satıldığı müəyyən edilib. Rusiyanın müvafiq qurumlarının tələbinə baxmayaraq şirkət qadağan olunmuş məzmunlu söhbət qrupunu silməyib. Buna görə, məhkəmə şirkətin qanunvericiliyə əməl etmədiyinə qərar verib və "WhatsApp"ı 3 milyon rubl (təxminən 37 min dollar) cərimələyib.

Qeyd edək ki, "WhatsApp" Rusiyada ilk dəfə qadağan olunmuş məzmunu silmədiyi üçün cərimələnib.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## Venera gerçək cəhənnəmdir

**Amerika kosmik agentliyi (NASA) 2028–2030-cu illərdə Venera planetinin atmosferini və geoloji xüsusiyyətlərini öyrənmək üçün iki yeni missiya göndərəcək. Layihələrin hər birinin dəyəri 500 milyon dollardır. Bununla bağlı NASA rəhbərliyi bildirib ki, hər iki missiya "32 ildən çox müddət ərzində olmadığımız planeti tədqiq etməyə imkan verəcək".**



Qeyd edək ki, "Magellan" adlanan Amerika zondu sonuncu dəfə 1990-cı ildə Veneraya çatıb. Aparat dörd il ərzində də planetin ətrafında dövr edərək onun səthi haqqında məlumatlar toplamışdı. Bundan sonra, Avropa və Yaponiyadan olan kosmik aparatlar da Veneraya göndərilib.

Venera, okeanları olmayan və əksər hissəsi karbon dioksiddən ibarət olan çox ağır bir atmosferlə əhatə olunmuş bir planetdir. Buludlar kükürd turşusundan ibarətdir. Səthdə təzyiq Yerdən 92 qat daha yüksəkdir. Burada temperatur 482 dərəcəyə çatır. Nahaq yerə onu "cəhənnəm" adlandırmırlar.

*Pünhan ŞÖVKƏTOĞLU, "Xalq qəzeti"*

## Mobil telefon noutbukla yola getmir...

**Hər birimizə yaxşı bəllidir ki, bəzən istifadəçilər hər iki cihazla işlədiyinə görə telefonu noutbukun üzərinə qoyurlar. Mütəxəssislər isə mobil cihazları noutbukun üzərinə qoymağı məsləhət görmürlər.**



Çünki noutbukun üzərinə qoyulmuş telefon ciddi problemlərə səbəb ola bilər. Çətinliklər həm mobil telefonda, həm də fərdi kompüterdə yarana bilər.

Bu zaman mobil cihazın şarjı sürətli şəkildə boşalmağa başlayacaq. Səbəb isə budur ki, noutbukun yanında olanda hər iki cihazın yükü artır.

Bununla yanaşı, həm kompüterin, həm də telefonun işləməsi zamanı gecikmələr baş verəcək. Hətta hər iki cihazın sıradan çıxma riski var.

Beləliklə, mobil cihazlar noutbukun üzərinə qoyula bilməz. Üstəlik, adları çəkilən cihazları mümkün qədər bir-birindən uzaq tutmaq məsləhətdir.

*"Xalq qəzeti"*

*Sosial şəbəkələrdən seçmələr*

## Hər uşaq köksündə bir kainat var...

**Tanınmış yazıçı-dramaturq, filosof, Əməkdar incəsənət xadimi Firuz Mustafa dünən özünün "Facebook" səhifəsində paylaşım edib. Orada yazılır:**



Hər uşaq köksündə bir kainat var...
Nəvələrim kainatı dərk etmək istəyirlər...

Qeyd etmək lazımdır ki, 1 iyun Uşaqları Beynəlxalq Müdafiəsi Günü edilən bu qeydlər Firuz müəllimin sosial şəbəkələrdəki çox sayda dostlarının da diqqətindən yayınmayıb.

Onlardan biri yazıb ki, bu gözəl balalar babalarının kitablarını oxusalar, dünyanın sirlərindən xeyli dərəcədə vaqif olacaqlar. Başqa bir izləyici isə qeyd edib ki, bəlkə də Azərbaycanda ən çox mütaliə edən şəxslərdən biri məhz F.Mustafadır.

Fikrimcə, fotodakı qızların düşüncəli baxışları onların həyatı vərəq-vərəq oxumaq, öyrənmək, düşünərək yaşamaq arzularından xəbər verir. Allah bütün balaları xoşbəxt eləsin!

*Təqdim etdi: M.HACIXANLI, "Xalq qəzeti"*

## "440 milyon dollarlıq" aktrisa

**Bu günlərdə populyar "Forbes" jurnalı ən varlı aktrisaların adlarını açıqlayıb. Məlum olub ki, Hollivud ulduzu Riz Uizerspunu dünyanın ən varlı aktrisasıdır.**



"Associated Press" agentliyinin məlumatına görə, hazırda aktrisanın varidatı 440 milyon dollar dəyərindədir. 2021-ci ildə o, öz şirkətinin aksiyalarını çox yüksək qiymətə satıb. Bu yaxınlarda aktrisa populyar "Sabah şousu" serialının 10 bölümündə çəkilmək üçün 20 milyon dollar tələb edib. Riz 12 illik həyat yoldaşı Cim Totdan bir neçə ay öncə ayrılıb. Onların 3 oğlu var.

Yeri gəlmişkən, "Forbes" ötən il ən varlı aktyor kimi Dueyn Consonu 270 milyon dollarla birinci sıraya yerləşdirmişdi.

*"Xalq qəzeti"*

## Bir doza dərman – 2 milyon dollar?

**"Zolqensma" dünyanın ən bahalı dərmanlarından biridir. İsveçrənin "Novartis" şirkəti tərəfindən istehsal olunan dərmanın bir dozasının qiyməti 2 milyon dollardır. Preparat onurğa əzələlərinin atrofiyasının müalicəsində innovativ terapiya üsulu kimi tətbiq edilir.**



Körpələrdə bu xəstəlik özünü iflic, əzələ zəifliyi və hərəkət qabiliyyətinin davamlı olaraq itməsi kimi göstərir. Atrofiyanın 1-ci dərəcəsi ilə doğulmuş uşaqlarda orta ömür müddəti cəmi iki ildir. "Zolqensma" dərman vasitəsinin tətbiq edildiyi körpələr bir dozanın inyeksiyasından sonra süni tənəffüz aparatı olmadan nəfəs ala, özləri otura və iməkləyə biliriər.

Tədqiqatçılar dərmanın körpələrin ömrünü uzatdığını təsdiqləyirlər. "Zolgensma" dərmanı dünyanın ən bahalı dərmanı kimi Ginnesin Rekordlar Kitabına düşüb. Rusiyada dərmanın bir dozası hazırda təxminən 160 milyon rubla atılır.

*Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"*

*Sağlamlıq guşəsi*

## Kələm zəhəri zərərsizləşdirir

**Kələm qızardılmış ətin orqanizmə kanserogen təsirini azaldır. Ona görə kələmə bükülb yemək məqsədəuyğun hesab edilir. Çünki kələmdə kanserogenlərin təsirini zəifldən maddələr var.**



Həkim - qastroenteroloqların fikrincə, qızardılmış ət orqanizm üçün təhlükəli kanserogenlərin əmələ gəlməsinə səbəb olur. Məsələn, kabab və qrilin tərkibində heterosiklik aminlərin, polisiklik aromatik karbohidrogenlərin olması aşkar edilmişdir. Orqanizmə böyük miqdarda nüfuz edən bu birləşmələr xərçəngin inkişafına səbəb olur.

Kələmdən əlavə, kabab və ümumiyyətlə digər qızardılmış ətlər həmişə hər hansı bir göyərti ilə birlikdə qəbul edilməlidir. Çünki yaşıl tərəvəzlər və bitkilər xlorofil ifraz edir ki, bu maddə də ətə qırmızı rəng verən həmin təsiri azaldır.

Qeyd etmək lazımdır ki, həzm zamanı toksin kimi fəaliyyət göstərən maddələr əmələ gəlir. Bunun da toxumalara təsiri səbəbindən bağırsaq xərçəngi baş verir.

Süfrənizdən yaşıl tərəvəzləri, xüsusilə kələmi əskik etməyin.

*Z.HÜSEYNOVA, "Xalq qəzeti"*

**Proqnoz**

## Bölgələrdə şimşək çaxacaq, leysan yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, iyunun 3-də Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək. Səhər bəzi şəhərətrafı ərazilərdə zəif duman olacaq. Mülayim cənub küləyi əsəcək. Gecə 17-22°, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-20°, gündüz 29-34°, dağlarda gecə 8-13°, gündüz 13-18°, bəzi yerlərdə 20-25° isti olacaq

*Q. QASIMOV, "Xalq qəzeti"*

✓ 2022-ci ildə Azərbaycan Universiteti tərəfindən Ağamalı Kamil oğlu Hüseynovun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

✓ Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən Hüseynova Mayaxanım Tağı qızının adına verilmiş 075 nömrəli buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

✓ 2008-ci ildə Ukrayna Respublikası Mülki Müdafiə Universiteti tərəfindən Nəcəfov Mehrəli Nazim oğlunun adına verilmiş diplomun qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Prezidenti Administrasiyası Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılov və şöbənin əməkdaşları iş yoldaşları Aybəniz Nəzərovaya atası

**İSLAM NƏZƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Xalq qəzeti"nin kollektivi qəzetin əməkdaşları Fuad Cəfərliyə nənəsi

**QANFURUZ PİRİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5168
SİFARİŞ 1384
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00